Xalqın qəzeti!

# Xalq qəzeti

№ 121 (30815) 14 iyun 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Dövlətin sosial dəstəyi davamlı və əhatəlidir

*İndiki islahat paketi 3 milyon vətəndaşın rifahının yaxşılaşmasına töhfədir*



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2025-ci ildə reallaşdırılan növbəti sosial islahat paketi çərçivəsində müavinət və təqaüdlərin artırılmasına dair keçirilən brifinqdə nazir müavini Rəşad Mustafayev vətəndaş rifahı təminatının, sosial müdafiə sisteminin gücləndirilməsinin Prezident İlham Əliyevin uğurlu siyasətinin əsas istiqamətlərindən biri olduğunu deyib. O, dövlət başçısının fərman və sərəncamları ilə 2018 – 2025-ci illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 5 sosial islahat paketinin uğurla icra olunduğunu və bu islahatlar üzrə ayrılan illik əlavə vəsaitin 7,6 milyard manata çatdığını qeyd edib.**

ardı səhifə ⇨ 10

## Çağdaş tariximizin ümummilli xilas günü



**15 İyun Milli Qurtuluş Günü, xalqımızın xilas günüdür. 32 ildir ki, bu tarix taleyimizə yazılan bir gün anlamı daşıyır. Bu müddət tarix üçün qısa zaman kəsiyi olsa da, ötən dövrdə ölkəmizin və xalqımızın həyatında köklü dəyişikliklər baş vermişdir. Azərbaycan müstəqil bir dövlət kimi möhkəmlənmiş, dünyaya açılmış, dövlət quruculuğu yolunda tutarlı addımlar atılmışdır.**

Bu yığcam ifadələrin arxasında ümummilli lider Heydər Əliyevin şəxsiyyət nəhəngliyi, dövlətçiliyə misilsiz xidməti, Ulu öndərin xalqla yekdilliyi, Azərbaycanın vaxtı ilə mübtəla edildiyi və sonu görünməyən bəlalardan xilası durur.

Ötən bu illər ərzində ümummilli lider Heydər Əliyev bir daha sübut etmişdir ki, o Azərbaycanın tarixində və dünyanın siyasi arenasında əbədi yaşamaq hüququ qazanmışdır. Ümummilli lider Heydər Əliyev tükənməz istedadını, zəngin təcrübəsini azad, müstəqil, dünyanın sivilizasiyalı dövlətləri səviyyəsinə çatan bir dövlət qurmağa sərf etmişdir.

ardı səhifə ⇨ 9

## Qurtuluş: Yeni, güclü Azərbaycan strategiyası



səhifə ⇨ 6

## Kopırkin və “diplomatik blef”

*Səfir vasitəçiliyi “diriltdir”, yoxsa Qərbə mesaj verir?*

**Məlum olduğu kimi, Azərbaycanla Ermənistan arasında vasitəçilik dövrü geridə qalıb. Söhbət heç bir nəticə verməyən vasitəçiliyin artıq tarixə çevrilməsindən gedir. O da məlumdur ki, Bakı və İrəvan ikili təmaslar zamanı daha çox irəliləyişə nail olublar, nəinki hansısa xarici platformalardakı müzakirələr nəticəsində. Belə bir durumda Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin açıqlaması bir qədər təəccüblüdür. Yəni, diplomat keçilmiş yoldan xəbərdar deyil?**



ardı səhifə ⇨ 3

## Qərbi Azərbaycana qayıdışın hüquqi əsasları



**Bu konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara və əyani sübutlara əsaslanır. İndiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün Qərbi Azərbaycan İcmasının (QAİ) həyata keçirdiyi fəaliyyətin məqsəd və prinsipləri, hazırlıq və icra tədbirlərinin ümumi çərçivəsini müəyyən edir.**

Tarixi ərazilərimiz olan Qərbi Azərbaycana qayıdış məsələsi 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfərdən sonra regionda formalaşmış yeni geosiyasi reallıqlar fonunda aktuallaşıb. Bu reallıq, vaxtilə həmin ərazilərdə yaşamış soydaşlarımızın geri qayıtmaq kimi öz hüquqlarını bərpa etmək məsələsini gündəmə gətirib. İşğaldan azad olunmuş Qarabağa, Şərqi Zəngəzura köçlə yanaşı, soydaşlarımızın Qərbi Azərbaycana qayıtmaq niyyətlərinin reallaşacağı gün uzaqda deyil. Özlərinin dədə-baba yurdlarına qayıdış azərbaycanlıların beynəlxalq hüquqla tanınan haqqıdır.

ardı səhifə ⇨ 6

## Dəniz yataqları bu gün də zəngin neft-qaz xəzinəsidir



səhifə ⇨ 11

## Dini libas geymiş revanşist



səhifə ⇨ 4

## Mərmər nağılda əbədiləşən məhəbbət



səhifə ⇨ 14

# Nikol, II Nikolay və erməni kilsəsi

Səhifə ⇨ 4

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının I Konqresinin iştirakçılarına

**Hörmətli Konqres iştirakçıları!**

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının I Konqresinin Bakı şəhərində öz işinə başlaması münasibətilə sizi ürəkdən salamlayır, sağlamlığın qorunmasına yönəlmiş nəcib fəaliyyətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

İnsanların getdikcə daha sıx qarşılaşdıqları sağlamlıq problemlərinə diqqətin artırılması məqsədilə aktual mövzulu ilk belə tədbirin ölkəmizin paytaxtında təşkilini məmnunluq hissi ilə qarşılayır və bunu, Azərbaycanda onkoloji xidmətin ötən illər ərzində keçdiyi uğurlu yola, imza atdığı nailiyyətlərə verilən dəyərin xüsusi ifadəsi hesab edirəm.

Azərbaycanın səhiyyə sistemi bu gün müasir müayinə və müalicə üsulları üçün kifayət qədər geniş imkanlar yaradan zəngin maddi-texniki bazaya və yüksək hazırlıqlı kadr potensialına malikdir. Respublikamızda səhiyyənin ayrı-ayrı sahələrinin sürətli inkişafını nəzərdə tutan layihələr və dövlət proqramları ardıcıl icra olunur.

Türk Dövlətləri Təşkilatının ümumi hədəflərə yönəlmiş hərtərəfli əməkdaşlığı təşviq etməsi toplanmış qiymətli təcrübədən ölkələrimizin birgə faydalanmalarının və problemlərin həllində ortaq səyləri gücləndirmələrinin zəruriliyini ön plana çıxarır.

Bu baxımdan, Konqresdə dünyanın müxtəlif guşələrindən gəlmiş qabaqcıl mütəxəssislərin tibb elminin son yenilikləri əsasında birlikdə aparacaqları geniş diskussiya və ətraflı müzakirələrin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə qurumları qarşısında duran məsələlərin bir çox mühüm aspektlərini əhatə etməsi təqdirə layiqdir.

İnanıram ki, Konqresiniz elmi və praktiki əhəmiyyəti ilə mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi işinə öz töhfəsini verəcək, Türk dünyası ölkələri onkoloqlarının gələcək qarşılıqlı fəaliyyətinin başlıca prioritetlərini müəyyən edəcəkdir.

**Ən xoş arzularla,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 iyun 2025-ci il**

# Milli Məclisin növbəti plenar iclası




**İyunun 13-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib.**

Milli Məclisin sədri iclasın Azərbaycan tarixinin gedişini dəyişmiş bir hadisənin ildönümü ərəfəsində keçirildiyini deyib. O bildirib ki, 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi.

Sonra parlamentin sədri plenar iclasın gündəliyinə 12 məsələnin daxil edildiyini bildirib. O, birinci məsələnin "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib. O qeyd edib ki, qanun layihəsi beynəlxalq sənədlə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcək.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bu məsələni təqdim edib. O, qanun layihəsinin ölkə Prezidentinin imzası ilə Milli Məclisə daxil olduğunu bildirib. Qeyd edib ki, "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş" Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan Hökumətlərinin təmsilçiləri tərəfindən 2024-cü il noyabrın 6-da Bişkek şəhərində imzalanıb. TDTMMM-nin məqsədi Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin, eləcə də digər dövlətlərin ərazilərində baş verə biləcək fəlakətlər və fövqəladə hallar zamanı fövqəladə ehtiyacları dəstəkləmək üçün fəlakətlərə cavab tədbirləri üzrə ortaq potensialın yaradılmasıdır. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sahibə Qafarova növbəti 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə danışıb. Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

S.Qafarova gündəliyin digər 4 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. O qeyd edib ki, növbəti məsələ "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsidir (ikinci oxunuş). İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə məlumat verərək, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin və illik hesabatın birinci oxunuşda ətraflı müzakirə edildiyini bildirib.

İclasda iştirak edən maliyyə naziri Sahil Babayev bildirib ki, dövlət büdcəsi ölkənin strateji inkişaf istiqamətlərini, sosial öhdəliklərini, vətəndaş rifahına yönəlmiş siyasəti özündə əks etdirən əsas sənəddir. Büdcənin icrası isə bu öhdəliklərin həyata keçirilməsinin göstəricisi, Hökumətin sosial-iqtisadi fəaliyyətinin məntiqi yekunudur. O, çıxışında müzakirələr zamanı deputatlar tərəfindən səsləndirilən məsələlərlə bağlı öz fikirlərini açıqlayıb.

Milli Məclisin sədri növbəti məsələnin "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. Komitə sədri Əli Hüseynli qanun layihəsini təqdim edib. Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı nəzərə çatdırıb. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstilik təchizatı haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

S.Qafarova gündəliyin son üç məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib və deputatlardan çıxışlar zamanı birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib. O, növbəti iki məsələnin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-biri ilə bağlı olduğunu diqqətə çatdırıb. Ona görə də layihələrin təqdimatları və müzakirəsi birlikdə aparılıb. "Qaz təchizatı haqqında" qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Komitə sədri Sadiq Qurbanov təqdim edib. "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Komitə sədri Azər Əmiraslanov nəzərə çatdırıb. Sadiq Qurbanov gündəliyin sonuncu məsələsi olan "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Qanun layihələri birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***XQ***

# Hikmət Hacıyev "agent iddiaları"nı cavablandırıb

**Son günlər bəzi media qurumlarında və sosial media platformalarında Azərbaycanla bağlı tamamilə əsassız və uydurma məlumatlar yayılır.**



Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında bildirib.

"Son zamanlar bəzi media və sosial media hesablarında tamamilə əsassız və uydurma iddialar yayılıb ki, guya, Azərbaycan etnik azərbaycanlıları agent kimi cəlb edib və onları İsrail adından İrana yerləşdirir. Bu cür absurd və fantaziyaya əsaslanan iddiaların reallıqla heç bir əlaqəsi yoxdur və qəsdən dezinformasiyadan başqa bir şey deyil. Bu cür saxta xəbərləri və əsassız ittihamları qəti şəkildə rədd edirik", - Hikmət Hacıyev vurğulayıb.

***XQ***

# Ceyhun Bayramov Polşanın yeni səfiri ilə görüşüb



**İyunun 13-də xarici işlər naziri Ceyhun Bayramov Polşanın ölkəmizdə yeni təyin olunmuş səfiri Pavel Radomski ilə görüşüb.**

Görüşdə səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Söhbət zamanı Azərbaycan-Polşa siyasi dialoqunun hazırkı səviyyəsindən məmnunluq ifadə olunub, yüksək səviyyəli qarşılıqlı səfər və təmasların münasibətlərimizin dayanıqlı xarakter daşıması üçün möhkəm zəmin yaratdığı bildirilib.

Azərbaycan-Polşa dövlətlərarası əlaqələrinin hərtərəfli və sistematik inkişafında Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya və Parlamentlərarası əlaqələr üzrə işçi qrupları kimi mexanizmlərin əhəmiyyətindən bəhs olunub.

Görüş zamanı tərəflər arasında qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq inkişaf və çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# MEDİA əsassız məlumatı təkzib edib

**Medianın İnkişafı Agentliyi, guya, Azərbaycan hərbi təyyarələrinin İranla sərhəddə uçuşlar həyata keçirdiklərinə dair həqiqətə uyğun olmayan məlumatlarla bağlı açıqlama yayıb.**




Açıqlamada deyilir: "İsrail-İran münasibətlərinin gərginləşməsi fonunda sosial şəbəkələrin xarici seqmentində guya Azərbaycan hərbi təyyarələrinin İranla sərhəddə uçuşlar etdiklərinə dair həqiqətə uyğun olmayan məlumatlar yayılmaqdadır.

Bildirmək istərdik ki, informasiya manipulyasiyası məqsədilə hazırlanmış bu tip "xəbərlər" saxtadır və qətiyyən reallığı əks etdirmir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırırıq".

***XQ***

# Bakıda Türk Dövlətləri Onkoloqlarının I Konqresi

**İyunun 13-də Bakıda Türk Dövlətləri I Onkoloqlarının I Konqresi işə başlayıb.**

Tədbir Azərbaycan Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzi tərəfindən təşkil edilib və türkdilli ölkələrin onkoloqları arasında elmi əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.

Milli Onkologiya Mərkəzinin Baş direktoru akademik Cəmil Əliyev Türk Dövlətləri Onkoloqlarının I Konqresini açıq elan edib. O bildirib ki, konqresdə dünyanın 10 ölkəsini, yerli və beynəlxalq təşkilatları təmsil edən alimlər, mütəxəssislər və rəsmi şəxslər iştirak edirlər.

Cəmil Əliyev qeyd edib ki, bu tədbir səhiyyənin onkologiya sahəsi və gələcək üçün olduqca önəmlidir: "Türk Dövlətləri Onkoloqlarının Konqresi iştirakçı ölkələrdə onkoloji xidmətin təşkilinin müzakirəsi, təcrübə və bilik mübadiləsinin aparılması, onkologiyanın aktual problemlərinin birgə həlli yollarının hazırlanması üçün mühüm platforma rolunu oynayacaq. Əminəm ki, konqresin nəticələri bizi onkologiya sahəsində əməkdaşlığa bir addım da yaxınlaşdıracaq".





Prezidentin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin konqres iştirakçılarına təbrik məktubunu oxuyub.

Konqresdə çıxış edən səhiyyə naziri Teymur Musayev bildirib ki, qlobal səviyyədə əhalinin yaşlanması, ətraf mühit amilləri, müxtəlif həyat tərzi nəticəsində xərçəng xəstəliyinin dinamikasında artım müşahidə olunur. Nazir qeyd edib ki, 2022-ci ildə dünyada xərçəngə 20 milyon yeni tutulma halı aşkar edilib. Dünya əhalisinin hər 5 nəfərdən biri yaşam müddətində xərçəng xəstəliyinə tutulur. Təxminən, hər il 400 min uşağa xərçəng diaqnozu qoyulur. 1960-cı illərdə uşaqların xərçəngdən sağalma faizi 10 idisə, hazırda bu rəqəm 90-nın üzərindədir.

Türk Dövlətləri Onkoloqlarının Konqresinin yüksək səviyyədə təşkilinin onkologiya sahəsində əməkdaşlığa verilən əhəmiyyətin bariz nümunəsi olduğunu qeyd edən TDT Baş katibi Kubanıçbek Ömüralıyev Azərbaycana göstərdiyi birgə səylərə və dəstəyə görə dərin təşəkkürünü bildirib. O qeyd edib ki, türk dövlətləri arasında bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əməkdaşlıq genişlənir və güclənir.

Bu gün Türk dünyasının son dərəcə vacib olan tarixi hadisəyə şahidlik etdiyini vurğulayan Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov fikirlərinə belə davam edib: "Türk birliyi, Türk Dövlətləri Təşkilatının yaradılması ulu öndər Heydər Əliyevin ən ümdə arzularından biri olub. Həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Qazaxıstan Onkologiya və Radiologiya Elmi-Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Yerbol Bekmuxambetov, Qazaxıstan Milli Elmi Onkologiya Mərkəzinin İdarə Heyətinin sədri Jandos Burkitbayev, Qırğızıstan Milli Onkologiya və Hematologiya Mərkəzinin direktoru Nurbek Bukuyev, Avrasiya Onkologiya Cəmiyyətinin sədri Hilmi Kodaz, Özbəkistan Respublika İxtisaslaşdırılmış Onkologiya və Radiologiya Elmi-Praktik Tibb Mərkəzinin direktoru Mirzaqolib Tillaşayxov, Türkmənistan Elmi-Klinik Onkologiya Mərkəzinin direktoru Mive Berdımuradova və Tacikistan Respublika Onkologiya Elmi Mərkəzinin nümayəndəsi Jumaboy Sanginov çıxış edərək onkologiyanın dünyada qlobal problemə çevrildiyini bildiriblər. Eyni zamanda, son 10-15 ildə tibdə sürətli inkişafın baş verdiyini qeyd ediblər.

Konqres panel iclaslarla davam edib.

***XQ***

# Azərbaycan XİN-in İsrail–İran qarşıdurması ilə bağlı bəyanatı



**Azərbaycan Xarici İşlər Nazirliyi İsrail-İran qarşıdurması ilə bağlı bəyanat yayıb.**

Bəyanatda deyilir: "İsrail Dövləti tərəfindən İran İslam Respublikasının ərazisinə qarşı həyata keçirilmiş hərbi əməliyyatlardan ciddi şəkildə narahatıq. Vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırırıq.

Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini xüsusi olaraq vurğulayırıq.

Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və müvafiq beynəlxalq mexanizmlər çərçivəsində səylərin davam etdirilməsi əhəmiyyət kəsb edir".

*XQ*

# Xankəndidə Ekoloji məsələlər İşçi qrupunun iclası

**Xankəndi şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.**



İclasda İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Şuşa, Ağdam, Füzuli, Xocavənd, Ağdərə, Xocalı rayonlarında və Xankəndi şəhərində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclasda İşçi qrupun üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən və yaşıllıqların götürülməsi zamanı ekoloji tələblərin icra vəziyyəti, bu ərazilərdə yaranan tikinti-söküntü tullantılarının səmərəli idarə olunması və onlardan xammal kimi təkrar istifadə edilməsi barədə, yer təkindən istifadə sahəsində görülən işlər, filiz və qeyri-filiz yataqlarının, şirin və termal mineral su yataqlarının, kəhrizlərin mövcud vəziyyəti və onlardan istifadə perspektivləri, bu ərazilərdə ekoloji pozuntuların qarşısının alınması istiqamətində görülən işlər haqqında məlumat verilib.

İclasda iştirak edən digər qurumların nümayəndələri tərəfindən infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.

*XQ*

# Kopırkin və "diplomatik blef"

## *Səfir vasitəçiliyi "diriltdir", yoxsa Qərbə mesaj verir?*



**Məlum olduğu kimi, Azərbaycanla Ermənistan arasında vasitəçilik dövrü geridə qalıb. Söhbət heç bir nəticə verməyən vasitəçiliyin artıq tarixə çevrilməsindən gedir. O da məlumdur ki, Bakı və İrəvan ikili təmaslar zamanı daha çox irəliləyişə nail olublar, nəinki hansısa xarici platformalardakı müzakirələr nəticəsində. Belə bir durumda Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin açıqlaması bir qədər təəccüblüdür. Yəni, diplomat keçilmiş yoldan xəbərdar deyil?**

Əlbəttə, Kopırkin Azərbaycan və Ermənistan arasında 44 günlük müharibədən sonrakı münasibətlər sisteminə yaxşı bələddir. Onun hansısa fikri elə-belədən dilə gətirdiyini də söyləmək mümkünsüzdür. O zaman meydana daha bir sual çıxır: Səfir Bakı və İrəvanın danışıqlar aparmaq üçün hansısa kənar ölkəyə ehtiyac duymadığını bilmir?

S.Kopırkin deyir ki, Rusiya Azərbaycan və Ermənistan arasında sülh prosesinə vasitəçiliyə hazırlıq xəttinə sadiq, hər iki tərəfə barış sazişini imzalamaq üçün meydan verməyə hazırdır. Onun sözlərinə görə, Moskva, həmçinin, regionda nəqliyyat əlaqələrinin yaradılmasına, iqtisadi kommunikasiyaların blokdan çıxarılmasına, iki Cənubi Qafqaz ölkəsi arasında sərhədlərin delimitasiyası ilə bağlı tədbirlərə, aktual humanitar problemlərin həllinə dəstək göstərməyə də hazırdır. Halbuki, Moskvanın diplomatın sadaladığı istiqamətlər üzrə indiyədək gerçəkləşdirdiyi bütün təşəbbüslər iflasa uğrayıb. Özü də Ermənistan rəhbərliyinin mövqeyi səbəbindən. İndi nə isə dəyişibmi? Prinsip etibarilə, dəyişən heç nə yoxdur. Baş nazir Nikol Paşinyan administrasiyası əvvəllər olduğutək, yenə anti-Rusiya ritorikasını davam etdirməkdədir.

Bu yerdə Kopırkinin bir il əvvəl üzərində dayandığı məqamlardan söz açmaq zərurəti yaranır. O demişdi ki, Moskva İrəvanın Rusiya ilə münasibətlərə xələl gətirəcək addımlar atmayacağına və münasibətləri qoruyub saxlayacağına ümid bəsləyir. "Eyni zamanda, biz ondan çıxış edirik ki, erməni tərəfi çoxşaxəli əməkdaşlığımıza, qardaş xalqlarımızın çoxəsrlik münasibətlərinə xələl gətirəcək addımlar atmayacaq", - deyən səfirin Kremlin beynəlxalq əlaqələrin genişləndirilməsində Ermənistana yardım etməyə hazır olduğunu dilə gətirməsi də təəccüblüdür. Görəsən, Rusiya Ermənistanın beynəlxalq əlaqələrini genişləndirməsinə necə yardım edəcəkmiş? Belə bir mexanizm varmı? Bu niyyət başqa ölkənin daxili işinə qarışmaq deyilmi? Deyəsən, Kopırkinin nəzərində Ermənistan rəhbərliyi, obrazlı desək, üzünə-gözünə çirkab bulaşdıran balaca uşaq ampluasındadır.

Əslində, belə bir baxışın mövcudluğunu səfir dolayısı ilə təsdiqləmişdi. Məsələn, o demişdi ki, rəsmi İrəvanın xarici siyasətini diversifikasiya kursu, istər-istəməz, Rusiyadan xeyli dərəcədə uzaqlaşma kimi qəbul edilir. "İki ölkə arasında müttəfiqlik və qardaşlıq münasibətlərini saxlamaq və gücləndirmək vəzifəsi daşıyan bir səfir kimi, bu cür tendensiya narahatlıq doğurur", - deyən diplomatın ABŞ Dövlət Departamentinin rəsmi nümayəndələrinin verdiyi bəyanatları xatırlatması təsadüf sayıla bilməzdi: "Amerikalılar Ermənistanla münasibətləri açıq şəkildə Rusiya və İranın təsirinə qarşı mübarizə kontekstində qururlar".

Göründüyü kimi, hansı səmtdən yanaşsaq, Kopırkinin timsalında Rusiyanın Azərbaycan–Ermənistan münasibətlərində vasitəçiliyə bel bağlamasına dair hansısa əsas, loru dildə desək, tutacaq yer yoxdur. Ancaq məlum idi ki, səfir fikirləri ilə ölkəsinin Bakı–İrəvan sülh gündəminin Qərb platformasında məntiqi nəticə verməsindən narahatlığını bildirir. Belə qənaətə gəlmək olar ki, narahatlıq indi də var və Kopırkinin hazırda bildirdikləri Moskvanın məqsədyönlü və səmərəli addım atmaq niyyətindən yox, daha çox sülh müqaviləsinin ərsəyə gəlməsinə maneçilik törətmək əzmindən qaynaqlanır.

Yenə də deyək ki, indi vasitəçilik dövrü başa çatıb. Bakı və İrəvan sülh müqaviləsinin bütün bəndləri üzrə razılığa gəliblər. Qalır Ermənistanın barış sazişinin imzalanması üçün Azərbaycan tərəfindən irəli sürülmüş iki şərti yerinə yetirməsi. Söhbət Ermənistan konstitusiyasına dəyişiklikdən, əsas qanunun ölkənin işğalçı mahiyyətə köklənmiş İstiqlaliyyət bəyannaməsinə istinad məntiqindən qurtulmasından və ATƏT-in Qarabağı münaqişəli və mübahisəli ərazi kimi təqdim edən Minsk qrupunun rəsmən ləğvindən gedir.

Hələlik, Paşinyan administrasiyasının diqqətə çatdırdığımız istiqamətlər üzrə hansısa addım atmaq niyyətində olmadığına, gözləmə mövqeyi tutduğuna dair ab-hava var və bu durum, istər-istəməz, sülh prosesindəki ardıcıllığa zərərdir, səmimiyyət mühitinə xələl gətirir. Hər bir halda, vəziyyəti düşünməli olan tərəf Moskva yox, İrəvandır. Bəs Rusiyanın düşündüyü nədir? Daha doğrusu, ölkə Kopırkinin dili ilə nə demək istəyir? Belə nəticəyə gəlmək olar ki, Rusiyanın Ermənistandakı ali diplomatik nümayəndəsinin vurğuladıqları, əslində, informasiya müharibəsinin tərkib hissəsidir. Tam mümkündür ki, Moskva blef ritorikasına baş vurur və Qərbə mesaj verir.

Deməli, Rusiya hazırda heç bir əhəmiyyət daşımayan, hətta, izi-tozu belə görünməyən vasitəçilik missiyasından söz açırsa, düşünmək mümkündür ki, blef ritorikasının informasiya manipulyasiyası Qərb cəmiyyətlərini hərəkətə gətirmək məqsədi daşıyır. Düşünək və görək vasitəçilik nə zaman lazım ola bilər? Cavab çox sadədir – müharibə və qarşıdurma riski olanda. Ehtimal etmək mümkündür ki, Kopırkin açıqlaması ilə məhz həmin riskin mövcudluğuna eyham vurur. Hətta, bir qədər də konkretləşdirsək, Azərbaycanın guya Ermənistana qarşı hücuma keçəcəyini vurğulamaq ehtimalının olduğunu da duya bilərik. Bəs bu, nəyə hesablanıb? Təxmin etmək olar ki, Qərb cəmiyyətlərində erməni həssaslığını və yekunda anti-Azərbaycan ritorikasını gücləndirməyə, həmin ritorikanın bütövlükdə sülh prosesinə maneçilik törətməsi vəziyyətinin formalaşmasına.

Əlbəttə, biz də istəməzdik ki, ehtimalımız özünü doğrultsun. Çünki, böyük ölçüdə, istəyimiz sülhdür. Ancaq bu məramımız ətrafı ayıq nəzərlərlə müşahidəmizi aktuallaşdırır. Müşahidəmiz isə onu göstərir ki, indiyədək Azərbaycan və Ermənistan arasındakı vasitəçiliklə sülh canfəşanlığı edən tərəflərin heç biri səmimi olmayıb, yalnız öz maraq və mənafelərini güdüblər. Eyni sözü Qərb haqqında da söyləmək mümkündür, elə Rusiyaya münasibətdə də. Ona görə yaxşı olar ki, heç bir tərəf dilinə, ümumən, "vasitəçilik" sözünü almasın.

Vasitəçilik həm də ona görə lazım deyil ki, klassik deyimlərin birində bu ampluada dayanın hər iki tərəfin sözünü dinləmək yox, onların haqsız olduqlarını dərk etmək üçün meydana atıldığı bildirilir. Azərbaycan və Ermənistan arasında isə haqsızı müəyyənləşdirməyə heç bir ehtiyac yoxdur. Çünki hər şey aydındır. Yəni, haqsız İrəvandır, haqlı Bakı. Qalır birincinin özünün bunu anlaması. Ermənistan haqsız olduğunu ya anlayacaq, ya da anlayacaq. Başqa yol yoxdur.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Vilayət Eyvazovun gürcü nazirlə görüşü



**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Gela Geladze ölkəmizə rəsmi səfərə gəlib.**



İyunun 13-də cənab Gela Geladze və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov Gürcüstanın daxili işlər naziri Gela Geladzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə Gela Geladzeni təbrik edərək bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. O, xalqlarımız arasındakı dostluğun qədim tarixə malik olduğunu, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan rəhbərliyinin ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə xüsusi önəm verdiklərini qeyd edib. Cənab Vilayət Eyvazov bu münasibətlərin ölkə başçılarının siyasi iradəsinə uyğun uğurla inkişaf etdiyini, dövlət və hökumət rəhbərlərinin qarşılıqlı səfərləri nəticəsində daha da dərinləşdiyini bildirib.

Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın, xüsusilə də transmilli cinayətkarlığın bütün növləri ilə, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində birgə əlaqələrin, təcrübə və informasiya mübadiləsinin və yaradılmış normativ-hüquqi bazanın ilk növbədə dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyi nəzərə çatdırılıb.

Problemlərə toxunularkən narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya, kibercinayətkarlıqla mübarizənin daim diqqət mərkəzində dayandığı, onlara qarşı səmərəli mübarizənin yalnız birgə səylərlə mümkünlüyü qeyd olunub.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Cənab Gela Geladze səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, mehriban qonşu və yaxın dost olan Azərbaycanın daxili işlər orqanları ilə ölkəsinin müvafiq qurumları arasında əlaqələrin bundan sonra daha da inkişaf etdirilməsində maraqlı olduqlarını, bunun üçün gələcəkdə də səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze iştirak edib.

*XQ*

# Hərbi qurum rəisi Tovuzda qəbul keçirib



**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov iyunun 13-də Tovuz rayonunda yerləşən Nizami adına Mədəniyyət Evində Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa və Qazax rayonlarında qeydiyyatda olan vətəndaşları qəbul edib.**

Qəbulda 3 şəhid ailəsi və 9 müharibə iştirakçısı olmaqla, 22 vətəndaşın müraciəti dinlənilib. Qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. SHXÇDX-nın səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara yönəldilib.

*XQ*

# Nikol, II Nikolay və erməni kilsəsi

## *Yaxud Ter-Petrosyanın tarix "dərsində" Paşinyana qəzəb motivləri*

**Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan ölkənin baş naziri Nikol Paşinyanı "xəyanətkar" və "allahsız" adlandırıb. Səbəb baş nazirin Erməni Apostol Kilsəsinə qarşı cəbhə açmasıdır. Ancaq Levonun Nikolu aşağılamasını vurğulamaqdan uzağıq. Çünki ikincini xəyanətkar kimi qələmə verənlərin sırası genişdir və Ermənistanın birinci prezidentinin mövcud xüsusda söylədikləri yenilik deyil. Yenilik Ter-Petrosyanın anti-Paşinyan ritorikasının ümumi məzmunundadır. Məhz bu məqam düşünməyə, XX əsrin əvvəllərində yaşananlara bir qədər fərqli prizmadan yanaşmağa əsas verir.**



Beləliklə, L.Ter-Petrosyanın sözlərindən belə çıxır ki, rus çarizmi 1903-cü ildə Erməni Apostol Kilsəsinə qarşı mübarizə apara bilməmişdisə, Nikolun 2025-ci ildə də bunu bacarması mümkünsüzdür. Elə isə aşağıdakı suallara cavab axtaraq: Çarizm erməni kilsəsindən nə istəmişdi? Onun erməni ruhaniliyinə münasibətdəki qəzəbi nədən qaynaqlanmışdı? 1903-1905-ci illərdə erməni varlığı adına yaşananlarla 1915-ci ildə Osmanlı İmperiyasında baş verənlər arasında hansı bənzərlik olmuşdu? Nəhayət, ötən əsrin əvvəllərinin hadisələri ilə indiki dövrün oxşarlığı nədədir?

Deməli, çar II Nikolayın 1903-cü ildə imzaladığı qanuna görə, Erməni Apostol Kilsəsinin bütün daşınar və daşınmaz əmlakı müsadirə edilməli idi. Bu sıraya kilsələrə, monastırlara, o cümlədən erməni məktəblərinə məxsus torpaqlar, binalar, kitabxanalar, pullar və digər mülkiyyətlər aid edilirdi. Müsadirə olunacaq əmlak Rusiya dövlətinin sərəncamına veriləcək və onun idarəsi rəsmi qurumlara tapşırılacaqdı. Qanunun əsaslandırması isə bu idi ki, kilsənin maliyyə resurslarının dövlət tərəfindən daha effektiv və məqsədyönlü istifadəsi zəruridir. Lakin əsl məqsəd başqa idi...

Əlqərəz, sözügedən qanun erməni xalqının mədəni və dini varlığını hədəfə alan hüquqi akt kimi qiymətləndirildi və haylarda kəskin reaksiya doğurdu. Erməni keşişlər, deputatlar və ziyalılar sənədin ləğvi üçün həm imperiya rəhbərliyinə, həm də beynəlxalq aləmə müraciətlər ünvanladılar, mitinqlər, nümayişlər və kütləvi itaətsizlik aksiyaları keçirdilər. Hətta bəzi yerlədə silahlı müqavimət halları da qeydə alındı. Yeri gəlmişkən, II Nikolayın iradəsini süngü ilə qarşılayan erməni siyasi təşkilatlarından terrorçu Daşnaksütyun və Hnçaq partiyaları xüsusi fəallıq göstərdilər.

Rusiya hökuməti qanunun tətbiqinə qarşı çıxanlarla sərt davrandı, onları repressiyalara məruz qoydu, çoxlu sayda keşiş həbs olundu, məktəblər bağlandı, qarşıdurmalarda xeyli insan həyatını itirdi. Yaranmış gərginlik və müqavimət o qədər güclü oldu ki, 1905-ci ildə hakimiyyət sənədi rəsmən ləğv etmək məcburiyyətində qaldı. Bu, erməni xalqının birlik və iradəsinin güclü təzahürü kimi qiymətləndirilir və hazırda erməni tarixşünaslığında xalqın qələbəsi olaraq təqdim olunur.

Əslində, həmin dövrün hadisələri mərkəzləşdirmə və ruslaşdırma siyasəti aparan Rusiya imperiyasında 1905-ci il inqilabından əvvəlki narazılıq dalğasının tərkib hissəsi idi. Nəzərə alaq ki, imperiya daxilindəki müxtəlif milli azlıqların öz hüquqları uğrunda mübarizələri də olmuşdu. Amma II Nikolayın yalnız Erməni Apostol Kilsəsinin əmlakını müsadirə qərarı təsadüfi deyildi. İmperatorun addımının arxasında həm siyasi, həm ideoloji, həm də imperiya təhlükəsizliyi ilə bağlı konkret səbəblər dayanırdı. Axı Erməni Apostol Kilsəsi təkcə dini qurum statusu daşımırdı.

Məlum olduğu kimi, kilsə məktəbləri idarə edir, tarix, ədəbiyyat və dini biliklər yayırdı. Onun bu hakim mövqeyinin imperiya üçün təhlükəlilik faktorunu şərtləndirən amil isə XIX əsrin sonları – XX əsrin əvvəllərində vüsət almaqda olan erməni millətçiliyi idi. O millətçilik ki, Qərbdən idarə olunurdu. Adlarını çəkdiyimiz Daşnaksütyun və Hnçak kimi terrorçu erməni qruplaşmaları isə Qərbin Osmanlı İmperatorluğu ilə yanaşı, Rusiya İmperiyasını da daxildən çökdürmək planında yer almışdılar. Sözügedən qurumların təsiri ilə ermənilər arasında Avropa maarifçiliyi, liberalizm, millətçilik və müstəqillik ideyaları geniş yayılmışdı. Hay gəncləri və ziyalıları "köhnə qitə"dən ixrac edilən millətlərin öz müqəddəratının təyinatına, konstitusiyalı idarəçiliyə və insan haqlarına dair fikirlərlə tanış olmuşdular.

Çarizmin yanaşmasına görə, ermənilər imperiyada, xüsusilə Cənubi Qafqaz bölgəsində (Qafqaz canişinliyində) loyal olmayan təhlükəli azlığa çevrilmişdilər. Rusiya hayların Osmanlıdakı haylarla siyasi əlaqələr quracaqlarından və vahid hərəkat formalaşdıracaqlarından, Erməni Apostol Kilsəsinin prosesdə katalizator rolunu oynacağından ehtiyatlanırdı. Çünki həmin vaxt kilsənin, xüsusilə Eçmiədzin Katolikosluğunun ixtiyarında çox böyük torpaq sahələri, məktəblər və maddi sərvətlər cəmlənmişdi. Hökumət bu resurslardan mədəni və siyasi məqsədlər naminə yararlanan təşkilatı nəzarətdən çıxmış sayırdı. Əmlakın dövlətə verilməsi həm kilsəni zəiflətmək, həm də onun resurslarını imperiya maraqlarına yönəltmək məqsədi daşıyırdı.

Məlumdur ki, Qərb dövlətlərinin Osmanlını sarsıtmaq məqsədi daşıyan "xristian azlıqları qorumaq" siyasəti olub. XIX əsrdə xüsusilə Böyük Britaniya və Fransa həmin azlıqların (o cümlədən ermənilərin) hüquqlarının müdafiəsi ilə çıxış edirdi və bu siyasət 1978-ci ilin Berlin Konqresi zamanı rəsmi şəkildə formalaşmışdı. O konqres ki, orada Osmanlı İmperiyası ermənilərlə bağlı islahatlar aparacağına dair öhdəlik götürmüşdü (Berlin müqaviləsinin 61-ci maddəsi). Erməni siyasi fəallar isə beynəlxalq təzyiqləri öz haqlarını tələb etmək üçün vasitəyə çevirmişdilər. Onları Qərb mətbuatı dəstəkləmiş, Osmanlı və Rusiya imperiyalarında "ermənilərə qarşı zorakılıq" manşetlərini tirajlamışdı. Ümumən, Qərb dövlətləri Osmanlı və Rusiya imperiyalarını zəiflətmək üçün etnik və dini azlıqların problemlərindən geosiyasi vasitə kimi istifadə etmişdilər. Beləcə, XIX əsrin sonu – XX əsrin əvvəllərində "erməni məsələsi" siyasi-diplomatik alətə çevrilmiş, nəhayət 1915-ci ildə qondarma "erməni soyqırımı" "törədilmişdi".

Birinci Dünya müharibəsində iştirak edən Osmanlı rəhbərliyi daxildəki erməni amilinin dövləti arxadan vurduğunu görmüş, bu cür dözülməz təmayüllərə qarşı mübarizə aparmış, erməni qövmünün təmsilçilərini imperiyanın bir tərəfindən o biri tərəfinə köçürmək qərarına gəlmişdi. Hazırda Ermənistan, dünya erməniliyi və onun havadarları məhz həmin köçürmə siyasətini "erməni soyqırımı" adı ilə qələmə verirlər.

Qeyd edək ki, o dövrdə erməni kilsəsi anti-Osmanlı dirənişinin mərkəzində dayanmış, müxtəlif təxribat planlarının hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmişdi. Deməli, çar II Nikolay 1905-ci ildə Erməni Apostol Kilsəsi ilə bağlı haqqında söz açdığımız qərarından geri dönməyib dövlətə asi çıxmış erməni qruplaşmasını zərərsizləşdirməkdə qətiyyət nümayiş etdirsəydi, hazırkı qondarma "erməni soyqırmı"nın "gerçəkləşmə məkanı" Rusiya da ola bilər, beynəlxalq miqyasda Türkiyə ilə yanaşı, Rusiyanı da ittiham edilərdi...

Göründüyü kimi, XX əsrin əvvəllərində Qərb tərəfindən hərəkətə gətirilmiş "erməni kartı"nın yekun hədəflərində eynilik var idi. Söhbət Osmanlının və Rusiyanın timsalında iki imperiyanı çökdürmək məqsədindəki eynilikdən gedir. Birinci Dünya müharibəsindən sonra dünya bu iki dövlətin tənəzzülünü gördü. Lakin "planlar" yarımçıq qaldı. Atatürk Türkiyəsi ilə sovet Rusiyasının yaxınlaşması onların reallaşmasına maneçilik törətdi. Üstəlik, həm sovet Rusiyasının, həm də sabiq SSRİ-nin rəhbərliyi erməni qövmünü razı salmağa girişdi və bu, əzəli Azərbaycan torpaqlarından haylara böyük ərazi hədiyyələri hesabına edildi.

Sonda gələk bilavasitə indiki dövrə. Qəribə vəziyyət yaranıb. Rusiya prinsipcə, erməni təəssübündən geri qalmır, qondarma "soyqırımı" iddiasını təbliğ və təşviq edir. Görəsən, erməni məkrinin ayrı-ayrı epizodlarına şahidlik edən tarix bu qədərmi tez unudulur? Halbuki, L.Ter-Petrosyanın Paşinyana ittiham xüsusunda dilə gətirdikləri adi məsələ sayıla bilməz. Onda çox böyük ibrət payı var. Amma Rusiyada buna əhəmiyyət verilmir. Düşüncə Nikolu hakimiyyətdən uzaqlaşdırmaq yönümlüdür, məqsəd Ermənistandakı Qərb təsirini yenməkdir.

Erməni Apostol Kilsəsinin rolunu minimallaşdırmaq və heçə endirmək istəyən Qərbpərəst Paşinyan Ter-Petrosyan tərəfindən "xəyanətkar" və "Allahsız" adlandırılırsa, onun anti-kilsə ritorikası ilə II Nikolayın dini quruma qarşı mübarizəsi arasında eynilik motivləri axtarılırsa, deməli, kilsənin erməni milli identikliyinin təmsilçisi ehkamına münasibətdə ikitirəlik var. "1903-cü ildə Rusiya imperatoru II Nikolay Erməni Kilsəsinin əmlakının müsadirəsi və erməni məktəblərinin bağlanması haqqında qanun qəbul etdi. Bu, erməni xalqının bütün təbəqələri arasında etiraz və itaətsizlik dalğasına səbəb oldu. Nəticədə erməni millətçiliyinin formalaşması sürətləndi və 1905-ci ildə imperator bu qanunu ləğv etməyə məcbur oldu", - deyən Ermənistanın birinci prezidentinin sözünün canı var: əgər erməni xalqı Rusiya imperiyasının qüdrətli imperatorunu məğlub edə bilmişdisə, Nikolun eyni aqibətdən yaxa qurtarması mümkünsüzdür. Onu da nəzərə alaq ki, hazırda Nikolun hərəkəti ilə 1903-cü ildə II Nikolayın anti-kilsə ritorikasının məzmununda çox böyük oxşarlıq var. Ən böyük sual isə budur: Paşinyan anti-kilsə davranışı nəticəsində özünə qarşı formalaşmış etiraz dalğasını yenməyi və kilsəsiz erməni dövləti formulunu yaratmağı bacaracaqmı?

***Əvəz CAHANGİROĞLU***
***XQ***

---

# Dini libas geymiş revanşist

## *Paşinyanla qarşıdurmaya girən erməni kilsəsi mənəvi və ictimai legitimliyini itirməklə üz-üzədir*

**Nikol Paşinyan iqtidarı ilə erməni apostol kilsəsi arasında may ayının son günlərindən açıq fazaya keçən münaqişə getdikcə böyüyür. Deməki olar ki, hər gün bu istiqamətdə hökumətdə təmsil olunan şəxslər, habelə hakim "Mülki müqavilə" partiyasının deputatları və kilsə tərəfdarları açıqlamalar verirlər. Tərəflər arasında, necə deyərlər, söz dueli yaşanır.**

Dünən səhər N.Paşinyan "Facebook" sosial şəbəkəsindəki hesabında bu mövzuda etdiyi növbəti paylaşımında bütün ermənilərin katolikosu II Qaregini və onun müdafiəçilərini kəskin tənqid edib. Paşinyanın sözlərinə görə, onun II Qareginə ünvanlanmış tənqidlərini "Azərbaycan" və ya "Türkiyə izi" kimi təqdim etmək cəhdləri ikiüzlülüyün təzahürüdür: "Bəziləri erməni apostol müqəddəs kilsəsinin ikiüzlülərin və riyakarların əsarətindən azad edilməsi prosesində türk və ya azərbaycanlı izi görməyə çalışır.

Bu, ikiüzlülərin və riyakarların öz çirkinliklərini erməni ictimaiyyətindən gizlətmək üçün "türk" və ya "azərbaycanlı" arqumentindən istifadə etmələrinin ən bariz ifadəsidir. Bu üsuldan istifadə edənlər, o cümlədən xarici qüvvələr istənilən sağlam diskursu əngəlləyir, islahatı dayandırır və erməni apostol kilsəsini indiki kimi çıxılmaz vəziyyətdə saxlayır. Ermənistanın və erməni apostol kilsəsinin çiçəklənməsini istəməyən istənilən qüvvə üçün kilsəmizin müqəddəs yerlərini ləkələyən Ktriç Nersisyan və bu kimi şəxslər hədiyyədir. Bəziləri Nersisyanı müdafiə edir. Nəyi, kimi müdafiə edirsiniz? Yalan, saxtakarlıq, ləkələnmə. Siz bu yolla özünüzü müdafiə edirsiniz və heç bir şansınız yoxdur. Erməni apostol kilsəsi İsa Məsihə və erməni xalqına qaytarılacaq. Cəsur (?) Nersisyan dərhal taxt-tacı boşaltmalıdır".

Paşinyanın sözlərinə görə, çoxları onun yeni katolikosluğa namizədinin olmasına haqq qazandırmaq istəsə də, təəssüf ki, bu posta namizədi yoxdur: "Mənim katolikos üçün təsəvvürüm var. Katolikos Allaha inanan, fırıldaqçı olmayan, İsa Məsihin davamçısı olan, kilsəyə səmimi xidmət edən, ruhani pərdəsi altında gizlənməyən, gerçəkdən ruhani bir insan olmalıdır. Və bizim mömin və Allahdan qorxan bir katolikosumuz olacaq".

Nikolun paylaşımı bir tərəfdən Ermənistanda daxili siyasi mübarizənin dərinləşdiyini, digər tərəfdən isə kilsəyə qarşı açıq ideoloji hücum başladığını göstərir. Bu paylaşım bir daha göstərdi ki, erməni apostol kilsəsi təkcə dini yox, siyasi çəkişmələrin də mərkəzinə çevrilib. II Qaregin və ətrafındakı ruhani çevrənin son davranışları, əslində, kilsənin öz dini missiyasından uzaqlaşaraq siyasi oyunlara alət olduğunu ortaya qoyur. Paşinyanın səsləndirdiyi tənqidlərə cavab əvəzinə, kilsə nümayəndələri yenə də emosional və ittihamçı ritorikaya üstünlük verirlər. Ən diqqətçəkici məqam isə odur ki, kilsə öz daxilindəki korrupsiya, şəffaflıq problemi və nüfuz itkisindən diqqəti yayındırmaq üçün siyasi qalmaqallardan istifadə edir. Ktriç Nersisyan ətrafında yaranmış qalmaqal, kilsənin daxili problemlərinin və ruhanilərin əxlaqi zərbəyə uğradığının bariz nümunəsidir. Özünü xalqın "mənəvi dayağı" kimi təqdim edən bir qurumun siyasi partiyalarla və siyasətçilərlə eyni sırada dayanması onun iddiasını puça çıxarır.

*

Öz növbəsində II Qaregin də geri çəkilənə oxşamır və inadla müqavimət göstərir. İyunun 11-də gecə səfərdən qayıdan katolikosu "Zvartnots" beynəlxalq hava limanında yüzlərlə Ermənistan vətəndaşı qarşılayıb. Toplaşanlar II Qareginin Ermənistana qayıtmasını alqışlarla qarşılayıb və bununla da patriarxa öz dəstəklərini bildiriblər. Onu qarşılayanlar arasında Seyran Ohanyanın rəhbəri olduğu "Hayastan" fraksiyasının deputatları, "Hayakve" təşəbbüsünün üzvləri və digər müxalif siyasətçilər olub.



Katolikos tərəfdarları qarşısında çıxışında deyib: "Bilirəm ki, baş nazirin son günlər kilsəyə və onun nümayəndələrinə qarşı səsləndirdiyi bəyanatlara hiddətinizi bildirməyə gəlmisiniz. Həmin ifadələrin ümumi hiddətə səbəb olduğunu bilirik. İnanıram ki, Allahın lütfü və köməyi ilə sizinlə birlikdə bu sınaqdan təvazökarlıqla və emosionallıq olmadan çıxa biləcəyik. Öz inancınızda və kilsəyə sədaqətinizdə möhkəm olun".

Katolikos tərəfdarlarını yerlərində, necə deyərlər, möhkəm dayanmağa çağırıb: "Bizim çağırışımız bundan ibarətdir ki, çətin anlarda milli birliyi həyatımızda möhkəm və mətanətlə qoruyub saxlayın. İnanırıq ki, biz vahid səylə, gücümüzü birləşdirməklə bütün sınaqlara tab gətirəcək, çətinliklərin öhdəsindən gələcəyik". O, həmçinin qeyd edib ki, kilsənin nizamnaməsinə əsasən, kilsə və onunla bağlı məsələlər müvafiq qurumlar tərəfindən müzakirə olunur.

II Qaregin bununla taxtından ayrılmayacağının və müqavimət göstərəcəyinin anonsunu vermiş oldu. O, Paşinyan hökumətinin siyasətini əvvəldən də "erməni kimliyinə qarşı yönəlmiş təhlükə" kimi qiymətləndirərək, kilsənin tarixi missiyasını hər addımda xatırladırdı. Katolikos açıq şəkildə bəyan edirdi ki, kilsə xalqın mənəvi dayağı olaraq susqun qala bilməz. II Qareginin əvvəlki açıqlamaları, əslində, kilsənin siyasi meydanda daha fəal olacağının xəbərdarlığı idi. İndi isə onun "Zvartnots" hava limanında xalq tərəfindən qarşılanması kilsənin siyasi məkanda bir aktora çevrilmək iddiasının nümayişidir. Onun ritorikasında dini liderdən çox, siyasi tribunaya qalxmış müxalif fiqurun ritorikası sezilirdi. Katolikosun "baş nazirin ifadələrinə hiddətinizi bildirməyə gəlmisiniz" sözləri dini liderin insanları açıq şəkildə siyasi qarşıdurmaya səslədiyini göstərir. Din xadimi adlanan bu şəxs insanları təmkinli olmağa çağırsa da, əslində, bu çağırışlar arxasında siyasi səfərbər olunma niyyəti gizlənir. II Qaregin öz çıxışı ilə kilsənin təkcə mənəvi yox, həm də siyasi dirəniş mərkəzinə çevrilmək istədiyini təsdiqlədi. Xüsusilə "Hayastan" fraksiyası və müxalif siyasətçilərin onu qarşılaması kilsənin neytral mövqe nümayiş etdirmədiyini göstərir. Bu, açıq şəkildə dövlətin dünyəvilik prinsipinə meydan oxumaq və siyasi hakimiyyətlə paralel güc mərkəzi formalaşdırmaq cəhdidir. Katolikosun ritorikasında xalqı milli birliyə çağırmaq adı altında cəmiyyətin bir hissəsini hökumətə qarşı səfərbər etmək cəhdi görünür. Onun "çətin anlarda milli birliyi qoruyun" çağırışı, əslində, mövcud hökumətin milli maraqlara zidd fəaliyyət göstərdiyi iddiasına əsaslanır. Bu isə dini institutun öz səlahiyyətlərini aşaraq siyasi müdaxilə cəhdidir. Kilsənin nizamnaməsinə istinad edən II Qaregin, görünür, bu sənədi yalnız öz maraqlarına uyğun şəkildə interpretasiya edir. Nəticə etibarilə, kilsənin bu şəkildə siyasətə qarışması nə cəmiyyətin birliyinə, nə də dövlətin sabitliyinə xidmət edir – əksinə, daxili parçalanmanı daha da dərinləşdirir.

**Yaranmış durumu XQ-yə şərh edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev bildirdi ki,** Ermənistanda dövlətlə kilsə arasında gedən qarşıdurma, əslində, çoxdan yetişmiş bir davanın açıq fazasıdır. Onun sözlərinə görə, ancaq bu toqquşmanın mahiyyətini düzgün anlamaq üçün, kilsənin, sadəcə, "mənəvi mərkəz" yox, siyasi-ideoloji manipulyasiya maşını olduğunu qəbul etmək lazımdır: "Bu maşının tək hədəfi Ermənistan cəmiyyəti olmayıb. Onilliklərdir regiondakı bütün erməni nəsillərini revanşizmə, nifrətə və saxta müqəddəslik duyğusuna kodlayan struktur məhz erməni apostol kilsəsidir. Bu qurum təkcə dini ayinlər keçirməyib – təhsil sisteminə, diaspor strategiyasına və siyasi qərarların ideoloji əsaslandırılmasına birbaşa müdaxilə edib. Kilsə, Ermənistanda formalaşmış dövlətçilik modelinin kölgəsində, amma faktiki olaraq onun ən mühüm ruhani dayağı kimi çıxış edib. Xüsusilə 1988-ci ildən etibarən, Qarabağ məsələsinin "müqəddəs savaş" kimi təqdim olunmasında kilsənin rolu danılmazdır. Birinci Qarabağ müharibəsi zamanı, kilsə açıq şəkildə erməni silahlı qüvvələrini xeyir-dua ilə yola salır, Azərbaycan torpaqlarının işğalını "Tanrının iradəsi" kimi təqdim edirdi".



O.Mirzəyev bildirdi ki, Paşinyanın II Qaregini "taxtdan salmaq" cəhdi, sadəcə, bir dini rəhbərin dəyişdirilməsi deyil – bütöv bir düşüncə sisteminə qarşı siyasi hücumdur: "Amma bu hücum yalnız inzibati iradə ilə deyil, ideoloji alternativ təqdimetmə bacarığı ilə nəticə verə bilər. Əgər Paşinyan xalqın şüurunda kilsənin tutduğu yeri doldura bilməsə, kilsəyə qarşı bütün inzibati cəhdlər onun öz siyasi dayaqlarını zəiflədəcək və hətta katolikosun fiziki olaraq iqamətgahdan çıxarılması belə, real qələbə olmayacaq.

Çünki II Qaregini qoruyan təkcə onun dini statusu deyil. Onun arxasında kilsənin qurduğu tarixi miflər, diaspor dəstəyi və Qarabağ klanının siyasi kölgəsi dayanır. Bu klan illər boyu Ermənistanı idarə etmiş, xüsusilə Koçaryan dövründə kilsə ilə qarşılıqlı legitimlik mexanizmi quraraq biri xalqın inancını, digəri isə silahlı və iqtisadi dayaqları idarə etmişdi. Bu sinerji Ermənistanı uzun illər həm daxildə, həm də regionda populist, qisasçı və militarist bir kursa sürükləmişdi. İndi bu iki güc yenidən sinxronlaşır – məqsəd Paşinyanı zəiflətmək və onu "milli müqəddəslərə qarşı çıxan" fiqura çevirməkdir".

Ekspert dedi ki, əgər Paşinyan bu koordinasiyalı müqavimətə qarşı effektiv informasiya savaşı apara bilməzsə, bu qarşıdurma onun ictimai dəstəyini sarsıdacaq. Xalqın bir hissəsi bu prosesi dini dəyərlərə zorakı müdaxilə kimi qəbul edəcək və onun legitimliyi təhdid altına düşəcək: "Üstəlik, Qarabağ klanının təhlükəsizlik strukturlarında, maliyyə dairələrində və regionlarda qalan təsiri bu xaotik vəziyyəti Paşinyana qarşı fürsətə çevirə bilər. Təsadüfi deyil ki, son günlərdə kilsənin arxasında yenidən anti-hökumət ritorikası formalaşmağa başlayıb. Bu isə artıq yalnız dini çevrədə deyil, siyasi meydanda da yeni bir cəbhənin açıldığını göstərir. Lakin əgər Paşinyan bu qarşıdurmanı, sadəcə, daxili böhran kimi deyil, kilsənin cəmiyyət üzərindəki zərərli təsirinə qarşı real addım kimi dəyərləndirə bilsə, bu, Ermənistan daxilində müəyyən ideoloji dəyişikliklərə yol aça bilər. Bu dəyişikliklər Ermənistanın daxilində sekulyar dövlətçiliyin bərpası baxımından müəyyən əhəmiyyət daşısa da, region üçün yalnız o halda pozitiv nəticə verəcək ki, bu dəyişikliklər Ermənistanın xarici siyasətində revanşizmə son qoymaqla, sabitliyə və sülhə yönəlik real dönüş yaratsın".

***Səxavət HƏMİD***
***XQ***

# İrəvanın “başayaq” gerçəkliyi

## Hayların baş naziri hələ də xəyallar aləmində yaşayır

**Artıq birmənalı şəkildə demək olar ki, “daşlar ölkəsi” Hayastan müstəqil dövlət deyil. İndi Ermənistan hakimiyyəti özünü Avropaya, dünyaya demokratik, praqmatik və real ölkə kimi sırımağa çalışır. Son vaxtlar onun xariclə intensivləşən əlaqələrinə məhz bu prizmadan yanaşmaq daha doğru olar. Ola bilsin, İrəvan imicində yaratdığı bu “keyfiyyət dəyişikliyi” ilə nəyəsə nail olacağına ümid edir. Amma görünən odur ki, ölkəsini Qərbin alqı-satqı “hərracına” çıxaran Paşinyan iqtidarı indi həm xaricdən, ələlxüsus da daxildən genişmiqyaslı hücumlara məruz qalır. Praqmatik hay ekspertləri hesab edirlər ki, Paşinyan bununla ölkəni Rusiya ilə Qərb arasında döyüş meydanına çevirə bilər. Bəli, Ermənistan hakimiyyətinin illüziyaya qapıldığı göz qabağındadır.**



Hökumətin iclasında baş nazir Nikol Paşinyan növbəti dəfə çox gülməli, eyni zamanda, “proqram xarakterli” çıxış edib. “Biz məsələlərə “real Ermənistan” ideologiyası nöqteyi-nəzərindən baxanda görürük ki, bu gün ölkəmiz kifayət qədər yaxşı və perspektivli vəziyyətdədir”, – deyə Nikol Vovayeviç bildirib. Amma bu zaman onun hansı fakt və arqumentə əsaslandığı havadan asılı qalıb. Dəqiq deyə bilmərik, amma hayların baş nazirinin “real Ermənistan” mövzusundakı bitib-tükənməyən mülahizələri məlum film personajının Marsda həyatın olub-olmaması ilə bağlı “fəlsəfi fikirlərini” heyrətamiz şəkildə yamsılayır. Burada, sadəcə, Paşinyandan həmvətənlərinə teleskop paylamaq təklifini eşitmək qalır ki, bu zaman onlar baş nazirlərinin illüzionist təxəyyülünün bəhrəsini görə bilsinlər.

“Mənim qiymətləndirməm belədir: “cəhənnəm əzablarını” keçərək, ölkəmiz üçün imkanların açıldığı bir nöqtəyə gəldik. Tariximizin yaxın 100 ili ərzində dövlətin uzunömürlülüyünü təmin etmək üçün heç vaxt belə şansımız olmayıb”, – Paşinyan çıxışına belə davam edib.

*

Bu məqamda Nikolun nikbinliyi suallar doğurduğundan yaxın keçmişə zəruri ekskurs və ciddi siyasi şərh tələb olunur. Axı, reallığa “real Ermənistan” utopik ideologiyasından deyil, beynəlxalq hüquq, tarixi ədalət və əlahəzrət fakt nöqteyi-nəzərindən baxmaq lazımdır. Reallıqda isə Paşinyanın “cəhənnəm əzabları” adlandırdığı hadisələr Ermənistan rəhbərliyinin 1980-ci illərin sonlarından bəri həyata keçirdiyi düşünülmüş işğalçılıq siyasətinin nəticələridir. Məhz Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini işğal edərək silahlı münaqişəyə səbəb oldu. Təcavüz nəticəsində yüz minlərlə azərbaycanlı öz doğma yurdlarından zorla qovularaq məcburi köçkünə çevrildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndidəki 366-cı motoatıcı alayının dəstəyi ilə XX əsrin ən qanlı cinayətlərindən birini – Xocalı soyqırımını törətdi. Azərbaycanın Xocalı şəhərinin 613-dən çox dinc sakini, o cümlədən 106 qadın və 63 uşaq vəhşicəsinə qətlə yetirildi. Bəli, biz Hayastanın bu “şanlı hərb salnaməsini” rəsmi İrəvanın yadına tez-tez salmalıyıq ki, illüziyalar aləminə baş vurmasın. Məgər Xocalı soyqırımı düşünülmüş etnik təmizləmə aktı deyildi? Dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Bu faktı Ermənistanın üçüncü prezidenti, hərbi cinayətkar Serj Sarkisyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində dedikləri də təsdiqləyir: “Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, ermənilər dinc əhaliyə əl qaldırmayacaqlar. Lakin biz bu stereotipi qıra bildik...”.

Biz bütün bunlara səbirlə dözdük və uyğun məqamı gözlədik. 2020-ci ilin payızında Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrinin “məğlubedilməzlik” mifini darmadağın edərək, işğalçıları 44 gün ərzində Azərbaycan torpaqlarından çıxardı. 2023-cü ilin sentyabrında isə Azərbaycan Qarabağ bölgəsində dövlətimizin suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən birgünlük parlaq antiterror əməliyyatı keçirdi. Qaytarılan qürurumuzun rəmzi olaraq Qarabağın bütün şəhər və kəndləri üzərində Azərbaycan bayrağı qaldırıldı: “Qarabağ Azərbaycandır!”

Beləliklə, qeyd etdiyimiz kimi, Ermənistanın, guya, “çəkdiyi cəhənnəm əzabları” kənardan gələn cəza deyil, özünün seçdiyi təcavüz, işğal və beynəlxalq normaları pozmasının məntiqi nəticəsidir. Bu nəticə indi “real Ermənistandan” dəm vuran Paşinyanı istefaya sürükləyən yeni reallıqla barışmağa məcbur edən sübutdur.

*

Əgər Ermənistan, həqiqətən də, davamlı sülh və dinc gələcək istəyirsə, tövbədən başlamalıdır. Amma təəssüf ki, İrəvanda mənəvi məsuliyyəti siyasi ritorika ilə əvəz edərək, öz günahlarını “xarici təhdidlər”in üzərinə ataraq, “real Ermənistan” xülyası ilə ideoloji illüziyalarla yaşamağa davam edirlər.

Paşinyanın çıxışındakı bu tezis isə xüsusi diqqətə “layiqdir”: “Mən diaspordan olan soydaşlarımızın ruh yüksəkliyini və qətiyyətini vurğulamaq, buna görə onlara minnətdarlığımı bildirmək istərdim. Biz Ermənistan–diaspor qarşılıqlı əlaqəsinin düsturlarından danışarkən məhz bu cür fəaliyyətləri nəzərdə tuturuq ki, onlar çox konkret və məqsədyönlüdür. Onun strateji mahiyyəti ilə bağlı heç bir müzakirə aparıla bilməz”.

Bəli, Şərq–Qərb, Şimal–Cənub “məngənəsinə” salınan Ermənistan hakimiyyəti bunun hansı fəsadlara aparıb çıxaracağının fərqindədir və bu səbəbdən diaspora üz tutur. Yeddi il bundan əvvəl onu hakimiyyətə gətirənlərə “sadiqliyini” nümayiş etdirmək üçün fürsət axtaran N.Paşinyan daxili və xarici təzyiqlərə, üstünə yeriyən birləşmiş müxalifət ordusunun hücumlarına baxmayaraq, hələ də hakimiyyətdə qalmasına görə, əlbəttə ki, məhz “kollektiv Qərb”ə borcludur. Hər şeydən göründüyü kimi, həmin dəstəkçilərin Nikol Paşinyanla bağlı “ssenariləri” hələ bitməyib.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,
Milli Məclisin deputatı,
politoloq**

– İndiki şəraitdə Ermənistana təhlükəsizliklə bağlı heç kim təminat verə bilməz. Çünki “kollektiv Qərb”in səfirlərdən və müşahidəçilərdən başqa İrəvanda mövcudluğundan danışmaq olmaz. Onlar bu ölkədə heç bir kommunikasiyaya malik deyillər. Amma Ermənistanın sərhədlərini rus hərbçiləri qoruyurlar. Buna görə Qərbin İrəvana nəsə verəcəyini və onun Bakı ilə ayaqlaşa biləcəyini söyləmək absurddur. Bu, mümkün deyil. Onların edə biləcəkləri yeganə şey Paşinyana verəcəkləri siyasi dəstəkdir. Bəlkə müəyyən miqdarda maliyyə yardımı da göstərə bilərlər. Əsas məqsəd Rusiyaya arxa çevirmiş Ermənistan hakimiyyətini bu səbəbdən keçirdiyi qorxu hissindən azad etməkdir. “Kollektiv Qərb”in bu xarakterli dəstəyi İrəvanı Rusiyanın təsir dairəsindən çıxarmağa yönəlib. Bu zaman Ermənistanın Azərbaycana qarşı nəsə etmək imkanları sıfıra bərabərdir.

Paşinyan iqtidarının “qibləsini” tez-tez dəyişməsində təəccüblü heç nə yoxdur. Bunun Azərbaycan üçün təhlükəyə səbəb olmayacağı birmənalıdır. NATO üzvü və Aİ üzvlüyünə namizəd Türkiyə bizim strateji müttəfiqimiz, Şimali Atlantika alyansına daxil olmaq arzusunu bəyan edən, Aİ-yə hazırlaşan Gürcüstan isə müttəfiqimizdir. Ən azı buna görə Azərbaycan üçün hər hansı problem yarana bilməz. Ermənistanın “iki stulda əyləşməsi” bizi narahat etməməlidir. Soyuqqanlı olmalıyıq. Amma ermənipərəst ölkələrin dəstəyindən şirniklənən rəsmi İrəvan sülh danışıqlarında sağlam mövqedən yayınacaqsa, onu başa salmağa hər cür imkanımız var. Əslində, İrəvan, Bakının müdaxiləsi olmadan belə, Şimal və Cənub qonşularından hər an tutarlı “şapalaq” yeyə bilər.

# Ermənistanın həqiqətdən uzaq, utopik çağırışları

**Cənubi Qafqaz tarix boyu imperiya və xalqların taleyinə təsir edən kəsişmə nöqtəsi olub. Bu strateji coğrafiya müasir dövrdə də geosiyasi baxımdan önəm daşıyır, regional və beynəlxalq güclərin maraq dairəsindədir. Bu baxımdan, Azərbaycan və Ermənistanın regionda rolu, onların xarici siyasət kursları həm regional sabitliyin, həm də beynəlxalq təhlükəsizliyin formalaşmasında həlledici amillərdir.**



Son dövrlər Ermənistanın xarici siyasətində müşahidə olunan aktivləşmə, xüsusilə Fransa və Hindistanla strateji əlaqələrin güclənməsi, ölkənin beynəlxalq arenada mövqeyini möhkəmləndirməyə və regional tranzit mərkəzi kimi çıxış etməyə çalışması diqqət çəkir. Bu kontekstdə, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın beynəlxalq “Raisina Mediterranean” forumundakı çıxışı Hayastanın ambisiyalarını açıq şəkildə ortaya qoyur. Ermənistan “Dünyanın kəsişməsi” layihəsi ilə Cənubi Qafqazda iqtisadi və nəqliyyat infrastrukturunu inkişaf etdirərək, Hindistanla Avropa arasında yeni kommunikasiya kanalları yaratmaq istəyir. Bu təşəbbüs yalnız iqtisadi layihə kimi deyil, həm də Ermənistanın regional siyasi təsirinin artırılması və təhlükəsizlik zəncirinin bir halqası kimi qiymətləndirilir. Nazir konfransda deyib: “Fransa ilə Hindistan arasında əlaqə yaratmaq istəyirsinizsə, bu yollardan biri dənizdir. Təəssüf ki, bu, heç də həmişə sürətli olmur və son zamanlar həm də təhlükəsiz deyil. Bundan əlavə, quru yolları da var. Burada Ermənistan mühüm mövqe tutur. Ermənistan Avropa ilə Hindistan arasında – Cənubi Qafqazda yerləşir. Ortaq əlaqələrin qurulması üçün, bu, çox əhəmiyyətlidir. İrəvan kommunikasiya proqramlarını təşviq edir və infrastruktura “böyük məbləğdə” sərmayə qoyur”.

Çıxışında A.Mirzoyan qeyd edib ki, Ermənistan həm Fransa, həm də Hindistanla strateji tərəfdaşlıq əlaqələrini inkişaf etdirir: “Biz bundan çox şadıq”. Nazir Hayastanın qonşularla münasibətlərini yaxşılaşdırmaq və sərhədləri açmaq istəyini də önə çəkib. O, xüsusilə İran və Gürcüstanla münasibətlərin yaxşı, Türkiyə və Azərbaycanla isə dialoqa açıq olduqlarını bildirib. XİN başçısı Ermənistan hökumətinin təşəbbüsü ilə həyata keçirilən “Dünyanın kəsişməsi” layihəsini xatırladıb: “Biz Ermənistan ətrafında sülh və əmin-amanlıq mühiti yaratmağa çalışırıq ki, təkcə Ermənistan, Azərbaycan, Türkiyə, Gürcüstan və İran deyil, həm də daha geniş region bundan faydalana bilsin”.

Bu açıqlamalar ilk baxışdan Ermənistanın beynəlxalq əlaqələrdə daha aktiv və balanslı mövqe tutmaq, həmçinin qonşularla dialoqu inkişaf etdirmək istəyini göstərir. Amma beynəlxalq diplomatiya səhnəsində atılan bu addımların fonunda regionda hərbi gərginliyin yüksəlməsi və İrəvanın silahlanmanı sürətləndirməsi ciddi narahatlıq doğurur.

Ermənistanın xarici tərəfdaşlarından aldığı silah-sursat, hərbi texnika və sərmayələr bölgədə sülh prosesinə zərbə vurur, revanşist əhval-ruhiyyəni artırır. Bu isə yalnız Azərbaycan və Türkiyədə deyil, bütövlükdə regionda təhlükəsizlik mühitinin pisləşməsinə səbəb olur. Silahlanma və hərbi eskalasiya dialoq və qarşılıqlı etimad mühitinə zərbə vura bilər.

*

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən politoloq Aydın Quliyev** Ermənistanın revanşist dairələrində itirilmiş torpaqların hərbi yolla geri alınması barədə ümidlərin canlı qalması, gənc nəslin siyasi təsir altına düşməsi, yeni münaqişə risklərini gündəmə gətirir: “Bu, həm Ermənistan cəmiyyətində, həm də regionda dərin narahatlıq yaradır. İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda müşahidə edilən bəzi hərbi və sosial problemlərə baxmayaraq, revanşist ritorikanın artması və silahlanmanın davam etməsi, bölgədə yeni hərbi qarşıdurma ssenarilərini gündəmə gətirir. Azərbaycan isə sülhə açıq olduğunu və danışıqlara hazır olduğunu dəfələrlə bəyan edib. Prezident İlham Əliyevin müharibədən uzaq, dialoq və əməkdaşlıq mövqeyi Azərbaycanın beynəlxalq ictimaiyyətlə, qonşu dövlətlərlə, o cümlədən Ermənistanla münasibətlərində prioritet olaraq qalır. Lakin bu sülh niyyəti, Ermənistanın hərbi gücünü artırmaq istiqamətində atdığı addımlar və revanşist ritorikanın yüksəlməsi ilə çətin vəziyyətə düşür. Azərbaycanın öz milli təhlükəsizliyini təmin etmək üçün hərbi hazırlıqlarını



gücləndirməsi, regionda yeni geosiyasi reallığın ortaya çıxdığını göstərir”.

A.Quliyev hesab edir ki, Ermənistanın xarici güclərlə – xüsusilə, Fransa və Hindistanla silah ticarəti və hərbi əməkdaşlıq səyləri regionda balansın pozulmasına səbəb olur: “Bu ölkələrin Ermənistanın hərbi gücünü artırmaqda maraqlı olmaları, yalnız regional deyil, qlobal geosiyasi maraqların da ifadəsidir. Fransa kimi Avropa İttifaqının aparıcı üzvünün Ermənistanı silahlandırması, Avropa siyasətində gərginliyi artırır və bəzən regionda mövcud sülh proseslərinə zərər verir. Bu proseslərin fonunda, sülhə aparan yolun qarşısında duran əsas maneələrdən biri də Ermənistanın öz daxilində revanşist ideologiyanın dərin kök atmasıdır. Bu ideologiya yalnız siyasi elitada deyil, geniş ictimaiyyətdə də hələ qüvvədədir və ölkənin gələcək siyasətinə ciddi təsir göstərir.

İtirilmiş ərazilərin hərbi yolla geri alınması arzusu, diplomatik sülh prosesinin real imkanlarını kölgədə qoyur və regionda dayanıqlı sabitliyin yaranmasına mane olur. Dayanıqlı sülhə nail olmaq üçün yalnız silahlanmanı azaltmaq yetərli deyil. Qarşılıqlı etimadın bərpası, siyasi iradənin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın inkişafı və insan hüquqlarının qorunması kimi daha geniş və çoxşaxəli tədbirlər həyata keçirilməlidir. Region ölkələri arasında dialoqun davamlı olması, beynəlxalq vasitəçilərin fəal iştirakı və xarici güclərin regionun daxili işlərinə müdaxilədən çəkinməsi sülhün təməlini təşkil edir”.

Ermənistanın Fransa ilə Hindistan arasında nəqliyyat bağlılığı qurmaq istəyinə toxunan politoloq bunun daha çox siyasi bəyanat və ya gələcəyə yönəlik plan kimi səsləndiyini, amma praktikada həyata keçirməsini çətin layihə adlandırdı: “Çünki Ermənistanın mövcud nəqliyyat infrastrukturu çox ciddi problemlərlə üzləşir və bir çox hissələri artıq istifadəyə yararsız hala gəlib. Həmçinin, bəzi ərazilərdən keçən dəmir yolu xətləri təmir edilə bilmədiyi üçün, onların bərpa edilməsi və yenidən istifadəyə verilməsi çox ciddi maddi resurs tələb edir. Ermənistanın bu növ əlaqələr qurması üçün ən azı iqtisadi şəraitin möhkəmlənməsi və beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq lazım olardı, amma indiki vəziyyətdə bunu həyata keçirmək üçün ciddi maddi maneələr mövcuddur”.

Nəticə etibarilə, Ermənistanın xarici siyasətdə fəallaşması, regional inteqrasiya istiqamətində təşəbbüsləri, potensial olaraq, müsbət dəyişikliklərə zəmin yarada bilər. Fəqət, bu proses yalnız revanşist siyasətdən uzaqlaşıb, dialoq və əməkdaşlıq ruhu ilə hərəkət edildikdə real ola bilər. Regionda davamlı sülh və sabitliyin təmin olunması üçün bütün tərəflərin məsuliyyətli və konstruktiv davranışı zəruridir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Qurtuluş: Yeni, güclü Azərbaycan strategiyası



*I məqalə*

## Xaosdan dünyaya müdrik baxış

1991-ci ildə Azərbaycan müstəqilliyini bəyan etdikdən sonra dünya siyasi xəritəsində "Azərbaycan Respublikası" siyasi-coğrafi ünvanı parladı. Qədim dövlətçilik ənənəsi olan azərbaycanlılar anlayırdılar ki, bu, tarixi hadisədir, lakin yetərli deyil. Çünki müstəqilliyi elan edilmiş ölkədə güclü müstəqil dövlət qurmaq ayrı bir prosesdir. 1991-ci ildən başlayaraq 1993-cü ilin iyun ayına qədər, təəssüf ki, real güclü dövlət qurmaq xəttimiz uğurlu olmadı. Bunun səbəbləri haqqında çox müxtəlif aspektlərdə çox yazılıb və danışılıb. Qısa onu vurğulayaq ki, keçən əsrin 90-cı illərinin geosiyasi təlatümləri, böyük güclərin nüfuz uğrunda amansız mübarizələri, havadarlarının təhriki ilə Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti və daxildə səriştəsiz qrupların hakimiyyətə gəlişi ölkə üçün son dərəcə təhlükəli risklər yaratmışdı. 1993-cü ilin ortalarında Azərbaycan faktiki olaraq xaos içində idi.

Belə bir vəziyyətdə dövlətçiliyi qədim olan xalq öz qəti seçimini etməli idi. Xaos içində olan Azərbaycan xalqı müdrik seçim etdi: böyük dövlət xadimi və müdrik siyasi lideri Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etdi! Xalqın bu qərarı Azərbaycan Respublikasının müstəqil dövlət kimi taleyini dəyişdi, onun həqiqi mənada güclü dövlət olması üçün yol açdı! Ancaq bu xoş niyyəti gerçəkləşdirmək lazım idi. Bunun üçün xalqla yanaşı, liderin müdrikliyi zəruri idi. Müasir müstəqil güclü Azərbaycan dövlətinin qurulmasının Heydər Əliyev epoxası belə başladı.

Burada öncə, Heydər Əliyev liderliyi üçün də əhəmiyyətli olan bir nəzəri məqamı vurğulayaq.

## "Liderlik oxu"

Henri Kissincer bu anlayışı daxil edir və uğurlu siyasi strategiyaları onun əsasında təsnifləşdirir. "Liderlik oxu" anlayışı liderliyin ölkənin ənənəsi fonunda özünəməxsusluğu ilə bağlıdır. H.Kissincer yazır ki, istənilən cəmiyyətdə (siyasi sistemdən asılı olmayaraq) yaddaşı formalaşdıran keçmişlə inkişafı ruhlandıran gələcəyə baxış arasında "daimi transformasiyalar" baş verir. Sadə deyilsə, hər bir toplum bu iki "sərhəd" daxilində daimi hərəkətdə olur – birindən digərinə keçir.

H.Kissincer fikirlərinə davam edərək vurğulayır ki, cəmiyyət bu yolda lidersiz gedə bilməz. Lider irəliyə hərəkət etmək yolunu təklif etməli, kollektiv səviyyədə inkişaf etmənin kursunu müəyyənləşdirməlidir. Liderin fəaliyyəti bu baxımdan sifarişi ölkənin, tarixin, dövlətçilik ənənəsinin özəlliklərindən gələn "liderlik oxu" üzrə reallaşır.

Burada həllini tələb edən maraqlı məsələ meydana gəlir. Lider həm ənənədən çıxış etməlidir (yaddaş), həm də gələcəyi düzgün görməlidir (təhlil+düzgün proqnoz). Deməli, uğurlu strategiya bir tərəfdən özəl xarakterlidir, digər tərəfdən isə hər tarixi dönəmdə liderin gələcəyi "görmək qüdrəti" ilə sıx bağlıdır.

Bu nəzəri təsəvvür prizmasında ulu öndər Heydər Əliyevin qurtuluşdan quruculuğa keçidi təmin edən strateji kursuna baxaq.

## Qurtuluşdan quruculuğa

XX əsrin son onilliyinin Avrasiya təcrübəsi göstərdi ki, geosiyasi xaosun hökm sürdüyü şərtlər daxilində müstəqil dövlət qurmaq çoxistiqamətli fəaliyyətdə xüsusi qabiliyyət tələb edir. Bu zaman uğurlu dövlət quruculuğu strategiyasını hazırlamaq vacib və məsuliyyətli bir vəzifə kimi qarşıda dururdu. Belə bir tələb istisnasız olaraq müstəqilliyini qazanmış keçmiş sovet respublikalarının hər biri üçün vardı. Burada əsas çətinlik onunla bağlı idi ki, həmin dönəmdə proseslərin mürəkkəbliyi və ziddiyyətliliyi hadisələri canlı izləyən insanlar üçün situasiyanı dolaşıq etmişdi. Çıxış yolu müəyyən etmək asan məsələ deyildi.

Hətta Henri Kissincer kimi yüksək səviyyəli strateq yalnız XX əsrin üçüncü onilliyində o dönəmi də əhatə edən və siyasi mahiyyəti olan nəzəri ümumiləşdirmələr apara bilmişdi. Böyük diplomat 2022-ci ildə qələmə aldığı və "altı dünya strategiyası" kimi nəzəri ümumiləşdirmə apardığı tədqiqatı ortaya qoydu. Həmin araşdırmada hər bir ölkənin tarixi ənənəsi əsasında müasir mərhələdə qarşılaşdığı problemlər fonunda uğurlu strategiya müəyyən edə biləcəyi tezisini irəli sürdü.

Bu zaman, hətta güclü olmayan və çoxlu problemlər yaşayan ölkələrdə belə, müdrik liderin sayəsində dünya miqyasına təsiri ola bilən strategiya hazırlamaq mümkündür. Nümunə kimi Misirdə Ənvər Sədatı, Sinqapurda Li Kuan Yunu H.Kissincer göstərmişdir. Hər iki lider müdrik strateji kursları əsasında ölkələrini ciddi problemlərin cəngindən xilas edərək, dünya geosiyasi səviyyəsində təsiri olan fəaliyyət göstərə bilmişlər. Bu tezisin əsaslı olduğunu yuxarıda vurğuladığımız "liderlik oxu" anlayışı təsdiq edir.

Bizim üçün həmin kontekstdə əhəmiyyətli olan faktor ondan ibarətdir ki, Heydər Əliyev bütün Avrasiya üçün nümunə ola biləcək strateji xətt hazırladı. Bunu Ümummilli lider Azərbaycanda mövcud olan "liderlik oxu" üzrə edə bildi. Yəni Heydər Əliyev tariximizdən gələn dövlətçilik ənənəsi ilə (yaddaş) müasir dövrün tələblərindən yaranan çağırışların vəhdətində dövlət quruculuğunun uğurlu strategiyasına düzgün baxışları mükəmməl işləyən özünütəşkiledən sistemdə birləşdirdi. Bu fəaliyyət bütövlükdə qurtuluşdan quruculuğa keçidi təmin etdi.

Qurtuluşun rəsmi tarixi 1993-cü il 15 iyundan başlayır. Heydər Əliyev xalqın dəvəti ilə hakmiyyətə yenidən gəlməsi ilə dövlət quruculuğu prosesinə yeni ruh verdi. Öncə cəmiyyət psixoloji travmalardan qurtularaq vahid məqsəd ətrafında birləşdi. Bunu azərbaycançılıq və multikulturalizm təmin etdi. Özünü toparlamış cəmiyyət tədricən dövlət quruculuğu kursunda aktiv iştirak etməyə başladı. Liderin irəli sürdüyü proqramları dəstəklədi, ölkənin təhlükəsizliyi ilə bağlı meydana çıxan risklərin aradan qaldırılmasında Ulu öndərə ciddi yardım göstərdi. Bunun bariz nümunəsi 1994-cü il və 1995-ci ildə dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında cəmiyyətin fəallığı ilə bağlıdır.

Bunlara paralel olaraq qurtuluş missiyası ölkənin sosial-iqtisadi və siyasi institutlaşmasının inkişafı prosesi aparıldı. Ulu öndər "Əsrin müqaviləsi" ilə həmin gedişatın iqtisadi, geosiyasi əsasını yaratdı və yeni Konstitusiya qəbul etməklə qurtuluşun hüquqi "dizaynını" müəyyən etdi. Bu iki fakt qurtuluş prosesinin mühüm dayaqlarını təşkil edirlər. Onlardan birincisinin siyasi ifadəsi enerji strategiyasıdır, digəri isə siyasi-hüquqi islahatlar kursudur.

Heydər Əliyevin xilaskar lider obrazı, əlbəttə, çox zəngindir. Vurğuladığımız məqamlar onun ən ümumi xarakteristikalarına aid ola bilər. Bu səviyyədə Ümummilli liderin bir dahiyanə addımı da mütləq vurğulanmalıdır. Həmin məqam Heydər Əliyevin milli ideyanı qurtuluşdan quruculuğa keçidin əsas işlək mexanizmi statusuna yüksəltməsi ilə bağlıdır.

## Milli ideya və qurtuluşdan quruculuğa keçid

Heydər Əliyevin liderlik nümunəsində bu, çox mühüm faktordur. Çünki milli ideya özlüyündə çoxistiqamətli funksional potensialı olan fenomendir. O, özşüurla yanaşı, sosial-mədəni mühitlə də bağlıdır. Milli ideya həm motivəedici, həm də istiqamətverici funksiyaları daşıyır. Bundan başqa, dövlətçilik aspektində milli ideya müstəqil siyasi kurs yeritməyin başlıca təminedici faktoru kimi təsəvvür edilə bilər. Xüsusilə, müasir dövrün tələbləri fonunda milli ideya dövlətin müstəqil və güclü olmasının sivil mexanizmi olaraq qəbul edilir. Bir sözlə, milli ideya düzgün müəyyən ediləndə siyasi, hüquqi, geosiyasi, ideoloji olaraq müstəqil dövlətin mövcudluğu və inkişafının əsas göstəricisi kimi xüsusi rol oynayır. Ancaq məhz milli ideyanı bu statusa yüksəldə bilən konsepsiya müəyyən edilməlidir. Onu Heydər Əliyev məharətlə bacardı! Bu tezisin doğruluğunun sübutu Azərbaycanın uğurla qurtuluş mərhələsindən quruculuq mərhələsinə keçməsi ilə əlaqəlidir. Bununla Heydər Əliyev faktiki olaraq strateji xarakterli iki məsələni də həll etmişdir.

Birincisi, qurtuluşla quruculuq arasında siyasi varislik prinsipi çərçivəsində siyasi, məntiqi və praktiki bağlantını təmin etmənin ümumi modelini vermişdir.

İkincisi, qarşıda ola biləcək istənilən mürəkkəb geosiyasi situasiyada Azərbaycanın müstəqil siyasət yeritməsinin nəzəri, ideoloji və praktiki diplomatik bazasını yaratmışdır.

## Quruculuqda siyasi varislik

Özlüyündə hər hansı dövlətin, ölkənin və cəmiyyətin problemlərdən qurtuluşu məsələni tam həll etmir. Qurtuluş elə məzmun və istiqamətdə olmalıdır ki, ondan sonra uğurlu quruculuğu davamlı olaraq həyata keçirmək mümkün olsun. Bu isə kifayət qədər rasional istiqamət müəyyən etməyi tələb edir. Azərbaycan üçün keçən əsrin 90-cı illərində qurtuluşdan quruculuğa keçidin məntiqi və siyasi-ideoloji əsasını siyasi varislik prinsipi təşkil etdi.

Siyasi varislik bu kontekstdə dövlətçiliyi möhkəmləndirməklə yanaşı, onu müasir demokratiklik və hüquqiliyin üstünlük təşkil etdiyi modelə tam uyğunlaşdırmağı ehtiva etməli idi. Siyasi varisliyin bu funksiyanı yerinə yetirə bilməsində milli ideyanın "ərazi bütövlüyünün bərpası" məzmununda müəyyən edilməsi həlledici rol oynadı. Bununla Ulu öndər həm cəmiyyətin vahid məqsədə doğru hədəflənməsinə, həm də müstəqil dövlətin siyasi-hüquqi institutlarını vahid milli məqsədə xidmətə yönəltdi. Azərbaycanın bütün dövlət sistemi ərazi bütövlüyünün bərpası üçün işlədi. Ordu quruculuğu, iqtisadi islahatlar, müxtəlif layihələr, enerji strategiyası həmin kontekstdə davamlı olaraq reallaşdırıldı.

Ulu öndərin bu xətti ölkədə tədricən, lakin dönməz olaraq qurtuluşun bazası əsasında müstəqil dövlət və vətəndaş cəmiyyəti quruculuğunu həyata keçirməyə geniş imkanlar yaratdı. Hakimiyyətin bütün qollarında bir-biri ilə sıx bağlılığı olan islahatlar və yeniləşmələr həyata keçirildi. Quruculuqda siyasi, iqtisadi, energetik, mədəni, mənəvi və ideoloji aspektlərin mükəmməl qarşılıqlı əlaqəsi təmin edildi. Artıq XXI əsrin başlanğıcına Azərbaycan Respublikası dinamik, dayanıqlı və sistemli olaraq inkişaf edərək qədəm qoydu. Bununla Heydər Əliyev bir neçə dövlət quruculuğu prinsipini realpolitika əsasında məharətlə qarşılıqlı əlaqədə tətbiq etməklə müasir müstəqil demokratik Azərbaycan Respublikasını qurdu. Azərbaycan özü qurtuluşdan quruculuğa uğurlu keçid edə bildi!

Tarixi, siyasi və geosiyasi baxımdan bu, bütövlükdə dövlətçilikdə məruz qaldığımız böhranlı və riskli durumdan davamlı və müasir inkişaf yoluna çıxmaq demək idi. Bu, geniş anlamda quruculuq qurtuluşu tamamladı. Eyni zamanda, yeni mərhələdə inkişaf üçün geniş perspektivlər yaratdı.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Qərbi Azərbaycana Qayıdış hərəkatı**

# Qərbi Azərbaycana qayıdışın hüquqi əsasları

**(əvvəli 1-ci səhifədə)**

İndiki Ermənistan ərazisi Azərbaycan xalqının tarixi və əzəli torpaqlarıdır. Qərbi Azərbaycanda – Ermənistan ərazisində 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə ermənilərin sistemli və total şəkildə həyata keçirdikləri etnik təmizləmə nəticəsində azərbaycanlılar həmin torpaqlardan zorla köçürülüblər. Eyni zamanda, Qərbi Azərbaycan ərazisində yerləşən tarixi keçmişimizə, abidələrimizə qarşı vandalizm aktları törədilib. Ermənistan mədəni-dini abidələrimizi özününküləşdirib, dəyişdirib, bir çoxunu da məhv edib.

Konsepsiyada nəzərdə tutulduğu kimi, QAİ-nin məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmağa, hüquqlarının beynəlxalq müstəvidə bərpasına yönəlib. Eyni zamanda, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması da qarşıda duran vacib vəzifələrdən sayılır. İcmanın əsas məqsədi tarixi torpaqlarından deportasiya edilmiş, qovulmuş insanların öz yurdlarına qayıtmaq hüququnun beynəlxalq müstəvidə tanınmasıdır. Bu, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər beynəlxalq aktlarda təsbit olunmuş insanların geriyə qayıtmaq hüququna əsaslanır.



*

Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq soydaşlarımızın dədə-baba torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etməli, tarixi Azərbaycan torpaqlarında doğulub yaşamış, etnik təmizləməyə, soyqırımına, deportasiyalara məruz qalmış minlərlə soydaşımızın itirilmiş hüquqlarını bərpa etməlidir. Hayastan, həmçinin dədə-baba torpaqlarına qayıdacaq azərbaycanlıların mülkiyyət hüquqlarını bərpa etməli, onların evlərini, icma torpaqlarını özlərinə qaytarmalıdır. İcmanın əsas hədəfi Qərbi Azərbaycandan olan soydaşlarımızın təşkilatlanmış şəkildə özlərinin pozulmuş hüquqlarını müdafiə və bərpası istiqamətində vacib addımlar atılmasına təşviq etməkdir.

Qərbi Azərbaycana qayıdış dövlət siyasətində mühüm yer tutur. Məhz bu səbəbdən Qərbi Azərbaycandan qovulmuş bütün azərbaycanlıların öz yurdlarına qayıtmaq hüququnu bərpa etmək üçün qəbul edilən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası böyük əhəmiyyətə malikdir. Bu sənəd soydaşlarımızın dinc yolla, təhlükəsiz və ləyaqətli şəkildə yurdlarına qayıtmasını şərtləndirir. Prezident İlham Əliyevin bu məsələyə göstərdiyi xüsusi diqqət və qayğı ayrıca qeyd olunmalıdır. Dövlətimizin başçısının vurğuladığı kimi, Qərbi Azərbaycan İcmasının beynəlxalq hüquqa uyğun dinc təşəbbüsləri təqdirəlayiqdir və dünya ictimaiyyəti tərəfindən dəstəklənir. Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın doğma torpaqlarına dinc və mərhələli şəkildə qayıdışı BMT Nizamnaməsi və digər beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirilməlidir.

Onu da qeyd edək ki, Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpası ilə bağlı maarifləndirməni gücləndirmək, bu barədə həqiqətlərin daha geniş miqyasda yayılmasını təmin etmək məqsədilə ölkəmizin müxtəlif bölgələrində elmi-praktiki konfranslar, görüşlər, mədəni tədbirlər təşkil edilir, icmanın təşkilatlanması üzrə önəmli addımlar atılır. Yüz minlərlə soydaşımızın öz dədə-baba torpaqlarından zorla çıxarılması, kütləvi qətl və qırğınlara məruz qalması ilə bağlı məlumatların beynəlxalq ictimaiyyətə çatdırılması üçün konkret işlər görülür. Müxtəlif görüşlər, məlumatlandırma sessiyaları, beynəlxalq təşkilatlarla əlaqələr qurulur, xarici təsisatlara müraciətlər edilir, bir sıra ölkələrdə tədbirlər keçirilir.

*

Əlbəttə, Qərbi Azərbaycana qayıdışla bağlı ölkədən kənarda keçirilən tədbirlər tarixi həqiqətlərin təbliği baxımından böyük əhəmiyyət kəsb edir. Bu baxımdan mayın 21-də Türkiyənin paytaxtı Ankara şəhərində baş tutan "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" beynəlxalq konfrans xüsusi əhəmiyyət kəsb edirdi. Bu, Qərbi Azərbaycan həqiqətlərinin və soydaşlarımızın qayıdış hüququnun Türkiyə ictimaiyyətinə çatdırılması baxımından önəmlidir.




Belə tədbirlərin digər ölkələrdə də müntəzəm olaraq keçirilməsi planlaşdırılır. Artıq Avropanın bəzi ölkələrində Qərbi Azərbaycan İcmasının nümayəndəliyi açılıb və fəaliyyət göstərir. QAİ-nin fəaliyyəti azərbaycanlıların tarixi torpaqlarına bağlılığını bir daha gücləndirir. Onu da vurğulamaq lazımdır ki, Qayıdış Konsepsiyasının bütün prinsipləri müvafiq platformalarda gündəmə gətirilir.

Ölkəmizin Qərbi Azərbaycan məsələsi üzrə apardığı mübarizə yalnız bir ərazi məsələsi deyil, bir millətin öz kimliyini qorumağa və haqq-ədaləti bərpa etməyə yönəlmiş addımıdır. Bu ideologiya daha geniş şəkildə təbliğ olunmalı, xalq bütövlükdə bu mübarizəyə qoşulmalı və qələbə ideologiyamızı formalaşdırmalıyıq. Böyük Qayıdışın ayrılmaz tərkib hissəsi olan Qərbi Azərbaycan uğrunda mübarizə həm də milli birliyin nümayişinə çevrilməlidir.

*Azər MUSTAFAYEV*

# Milli Qurtuluş Günü gerçək müstəqilliyimizin başlanğıcı oldu

**Hər bir əlamətdar gün, bayram hesabat xarakteri daşımaqla yanaşı, həmin tarixin ölkənin, xalqın taleyində hansı rola malik olduğunu təhlil etmək, indiki və gələcək nəsillərə çatdırmaq üçün geniş imkanlar yaradır. Məsələyə bu kontekstdən yanaşdıqda əminliklə söyləmək olar ki, Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılan 15 İyun 1993-cü ilin ölkəmizin bu günü və gələcəyi üçün əhəmiyyəti misilsizdir. "Konstitusiya və Suverenlik İli"ndə 15 İyun – Milli Qurtuluş Gününü tamamilə fərqli bir ovqatda, sonsuz qürur və iftixar hissi ilə qeyd edirik. Bu baxımdan ki, hazırda Azərbaycan dövləti xalqımızın milli maraqlarını rəhbər tutaraq, yaratdığı yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, qüdrətli Azərbaycan dövləti Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.**

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasıdır ki, 2025-ci il bu ali sənədin qəbul edilməsinin 30 və Vətən müharibəsində Qələbəmizin 5 ilinin tamam olması ilə tarixə yazılır. Hər iki əlamətdar hadisə 15 iyun 1993-cü ildən başlanan yolun təqdimatlarıdır.

### Gerçək müstəqilliyimizin başlanğıc günü

Bu gün böyük sevinclə, sonsuz qürur hissi ilə müstəqilliyimizin başlanğıc tarixi olan 15 İyun – Milli Qurtuluş Gününün 32 illiyini qeyd edirik. Zamanın hökmü ilə ötən əsrin 90-cı illərinin əvvəlində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşdı. AXC-Müsavat cütlüyü bir illik iqtidarı dövründə yalnız hakimiyyətini saxlamağı düşünərək ölkəmizə faciə gətirmiş, günahsız insanların həlak olmasına səbəb olmuşdu. Dövlət əmlakının talan edilməsi xalqı acınacaqlı duruma salmışdı. Dövlət idarəetməsində heç bir təcrübəsi olmayan şəxslərin vəzifəyə gətirilməsi suverenliyimizə təhdid yaratmışdı. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın mənganəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu Azərbaycan dövlətinin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Heç də təsadüfi deyil ki, Ümummilli liderin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına qazandığı müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələ kimi qiymətləndirilir.

### Xilaskarlıq missiyası

Dahi rəhbər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən, ilk növbədə, onun xilaskarlıq missiyası göz önünə gəlir. Məhz bu səbəbdən 1993-cü il 15 iyun tarixi Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Ulu öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi.

XX əsrin sonu həqiqətən də Azərbaycan dövlətinin, xalqının həyatında taleyüklü bir dövr idi. Tarixin bu mərhələsində baş verən hadisələr Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. Həm o dövrün çətinliklərini, həm vətəndaş qarşıdurmasını, həm də bütün dövrlərdə ölkəmizə diqqət və marağın artmasına səbəb olan coğrafi mövqeyimizi nəzərə alsaq, belə bir çıxılmaz vəziyyət düşən ölkənin lideri olmağın nə qədər böyük məsuliyyət, ən əsası siyasi bacarıq və təcrübə tələb etdiyini təsəvvür etmək çətin deyildi. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində çox nadir hallarda rast gəlinən unikal hadisədir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. Onun dövlətinə, xalqına bağlılığı ilə yanaşı, Azərbaycanı daim zirvələrdə görmək istəyi atdığı hər bir addımda özünü aydın şəkildə nümayiş etdirirdi. Əsas amal, məqsəd Azərbaycanın dünyaya Günəş kimi doğması idi ki, Ümummilli liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bu arzu, bu istək qısa zamanda reallığa çevrildi. Azərbaycanın qısa zamanda sabitlik diyarı kimi nüfuz qazanması malik olduğu təbii resurslardan səmərəli istifadəsinə geniş imkanlar yaratdı. Halbuki 1991-1993-cü illərdə iqtisadi əlaqələrin qurulmasından, ölkə iqtisadiyyatına sərmayələrin yatırılmasından danışmaq mümkünsüz idi. Çünki ölkədə ictimai-siyasi vəziyyət olduqca ağır idi. İqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər hər zaman ilk olaraq ölkədə sabitliyə, demokratik inkişafa diqqət yetirirlər. Ulu öndər Heydər Əliyevi digər dövlət xadimlərindən və siyasi liderlərdən fərqləndirən onun dərin biliyində, qətiyyətində, işgüzarlığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Azərbaycanı qorumaq, saxlamaq, dövlətçiliyimizi möhkəmləndirmək və inkişaf etdirmək yolları hamar olmasa da ümummilli lider Heydər Əliyev dərin zəkası ilə bütün çətinliklərə sinə gərmək əzmində olduğunu nümayiş etdirdi. Azərbaycanın inkişaf yolu 15 İyun- Milli Qurtuluş Gününə aparan 9 iyun 1993-cü ildən başlandı. Uğurla davam edən Azərbaycanın müstəqilliyinin Heydər Əliyev dövrü dövlətçilik tariximizə xilaskarlıq missiyası kimi yazıldı.



### Müstəqil dövlətin lideri

İstər çağdaş Azərbaycan tarixində, istərsə də xalqımızın yaddaşında ümummilli lider Heydər Əliyev müstəqil və suveren dövlətin lideri, xarizmatik siyasət dahisi, əsl vətəndaş kimi özünəməxsus yer tutub. Bu çətin məqamda xalqı ilə birlikdə olduğunu bəyan edən ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya gəlişi, qardaş qırğınının qarşısını almaq istiqamətində göstərdiyi səylər Onda olan Vətən, xalq sevgisinin aydın ifadəsi idi. Ümummilli lider iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Ulu öndər yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Dövlət başçısı İlham Əliyev çıxışlarında daim müstəqillik tariximizin Heydər Əliyev dövrünün reallıqlarını əsaslı şəkildə qeyd edərək bu çağırışı edir ki, o dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq. Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi: "Biz bu tarixi bilməliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində quracağıq, necə ki, bu vaxta qədər qurmuşuq. 1993-2003-cü illər həlledici illər olmuşdur."

### Dövlətçiliyin əsasının qoyulduğu illər

1993-2003-cü illərdə dövlətçiliyin əsasları qoyuldu. Milli Konstitusiyamız qəbul olundu. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Azərbaycan beynəlxalq təcriddən çıxdı. Azərbaycan hörmətə layiq olan ölkə kimi tanınmağa başladı. Böyük investisiyalar cəlb edildi. Ordu quruculuğuna start verildi. Kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atıldı. O kadrlar ki, bu gün də ölkəmizin müxtəlif sahələrinin inkişafına öz töhfələrini verirlər.

İllər biri-birini əvəzlədikcə 15 iyun 1993-cü il tarixinin önəmi daha aydın dərk olunur. Qurtuluşdan başlanan yol bu gün tam müstəqil və suveren Azərbaycanın daha yüksək zirvələri fəth etməsini şərtləndirir. Qurtuluş Azərbaycanın bugünkü reallıqlarına yol açdı. 1993-2003-cü illər çağdaş tariximizdə sabitlik, inkişaf dövrü, 2003-cü ildən sonrakı dövr isə böyük yolun davamı kimi yer tutur. Böyük şəxsiyyət Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasət nəticəsində müstəqil Azərbaycan xaos, anarxiya, özbaşınalıq və iqtisadi böhrandan xilas oldu, sabitlik, inkişaf dövrünə qədəm qoydu. Ulu öndər Heydər Əliyev bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Uğurlu gələcəyə hesablanmış siyasət Azərbaycanı qısa müddətdə sabitlik diyarına çevirdi. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də işğalçı Ermənistanla atəşkəs sazişinin imzalanması ölkəmizdə sabitliyin daha da möhkəmlənməsini, eyni zamanda, digər sahələrdə uğurlu addımların atılmasını təmin etdi.

### Ulu öndərin yeni neft strategiyası

Məhz həmin ilin sentyabrın 20-də dünyanın aparıcı transmilli şirkətləri ilə tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Bu saziş ölkəmizin iqtisadi imkanlarını artırmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirdi. Çoxlarına əfsanə kimi görünən Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələri 2006–2007-ci illərdə reallığa çevrildi. Regional çərçivədə qurulan əməkdaşlıq illər keçdikcə beynəlxalq miqyas aldı. Azərbaycan regional inkişafın aparısı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi. Onu da qeyd edək ki, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq 1999-cu ildə Dövlət Neft Fondu yaradıldı. Məqsəd neft gəlirlərinin idarə edilməsində şəffaflıq prinsipinin qorunması, ölkənin hərtərəfli inkişafına xidmət edən sosial-iqtisadi layihələrin uğurlu icrası idi. Ulu öndər bildirirdi ki, neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Hazırda Dövlət Neft Fondunun bu ilin 31 mart tarixinə olan məlumata əsasən aktivlərinin həcmi 62 milyard dollardan artıqdır. Neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsində neft gəlirlərinin xərclənməsində şəffaflıq kriteriyalarının yüksək səviyyədə qorunması mühüm rol oynayır. Ölkəmizin iqtisadi imkanlarının artması əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımların atılmasına yol açdı.

Göründüyü kimi, dahi şəxsiyyətin ölkə iqtisadiyyatının inkişafında neft amilinə böyük dəyər verməsi bu günümüzə və gələcəyimizə hesablanmış inkişaf konsepsiyasının əsas tərkib hissələrindən biridir. Məhz bu mühüm amilə söykənərək dövlətimizin başçısı İlham Əliyev bildirir ki, neftlə zəngin çox ölkələr var. Amma heç də onların hamısında bu resurslar inkişafa, tərəqqiyə xidmət etmir. Əhali arasında təbəqələşmə prosesi sürətli hal alır. Amma Azərbaycanın öz neft strategiyasını, inkişaf konsepsiyasını dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun müəyyənləşdirməsi bu kimi problemləri yaşamamasını şərtləndirdi. Neft gəlirlərinin ədalət prinsipinə uyğun olaraq bölgüsünün həyata keçirilməsi ölkəmizdə uğurlu sosial siyasətə geniş imkanlar açdı.

Ümummilli lider, eyni zamanda, bildirirdi ki, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə etməklə yanaşı, həm də islahatlar aparmaq, bazar iqtisadiyyatı yolu ilə getmək, insanlara sərbəstlik vermək, torpağı kəndlilərə vermək, onları torpağın sahibi etmək, mülkiyyət formasını dəyişmək lazımdır. Ulu öndər Heydər Əliyevin 1993-cü ildən başladığı islahatlar dahi rəhbərin hakimiyyətinin birinci dövründə gördüyü işlərin davamı idi. Məhz o dövrdə həyata keçirilən islahatlara əsaslanaraq bildirilirdi ki, yaradılmış iqtisadi potensial böyük sərvətimizdir. Bu sərvət Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir.

### Azərbaycan dünyaya Günəş kimi doğdu

Ümummilli lider Heydər Əliyev hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş İttifaqın ən qabaqcıl respublikalarından birinə çevirdiyi kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra xilaskarlıq missiyasını uğurla gerçəkləşdirməklə onun şah əsəri kimi dəyərləndirilən Azərbaycanı zirvələrə qaldırdı, Günəş kimi dünyaya doğmasını təmin etdi, ən əsası xalqımızın öz tarixi torpaqlarına qovuşması, tarixi ədalətin bərpası, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması üçün möhkəm baza yaratdı.

Ərazi bütövlüyümüzün və suverenliyimizin qarantı olan ordu quruculuğu sahəsində görülən işlərin, yaradılan möhkəm təməlin nəticəsidir ki, Silahlı Qüvvələrimiz bu gün dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb. 44 günlük İkinci Qarabağ müharibəsi, eyni zamanda, bir günlük lokal antiterror tədbirləri Azərbaycan Ordusunun gücünün, qüdrətinin dünyaya təqdimatı oldu. Azərbaycanın tarixi Zəfərini şərtləndirən amillər sırasında yer alan diplomatik mübarizədə də Ümummilli liderin düşünülmüş siyasəti öz sözünü dedi. İstər döyüş meydanında, istərsə də diplomatik cəbhədə üstünlüyü ələ alan Azərbaycan Heydər Əliyev siyasətinin uğurlarını dünyaya təqdim etdi. Ümummilli lider hakimiyyətə qayıdışının ilk günündən bu çağırışı etdi ki, müstəqilliyimizi və suverenliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıdan bir amal-azərbaycançılıq ideologiyası ətrafında sıx birlik, həmrəylik tələb olunur. Azərbaycanın diplomatik uğurlarında diasporumuzun rolu da inkaredilməzdir. Ulu öndər Heydər Əliyev bir dövlətin xaricdəki varlığının təsdiqi kimi Azərbaycan diasporunun birliyini, həmrəyliyini vacib amil kimi önə çəkirdi. Məhz onun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultaydan əvvəl Ümummilli liderin çağırışına uyğun olaraq dünyanın müxtəlif ölkələrində Azərbaycan cəmiyyətləri, mərkəzləri yaradıldı. Onların vahid mərkəzdən idarə olunmasına xidmət edən Dünya Azərbaycanlılarının I Qurultayı soydaşlarımızın bir araya gəlməsinə geniş yol açdı. Artıq 2001-ci ildən başlayaraq hər 5 ildən bir Dünya Azərbaycanlılarının qurultayları keçirilir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyi, həmrəyliyi fonunda həmin ölkələrdə cərəyan edən proseslərə təsir imkanları artır.

### Müzəffər xalq əbədi yaşayacaq

Bu gün qürurla tarixi Zəfərimizdən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından bəhs edərkən onun yaratdığı reallıqlar fonunda 2022-ci ildə Qarabağın tacı Şuşanın 30 ildən sonra dünya azərbaycanlılarını bir araya gətirərək Zəfər Qurultayına şahidlik etməsini xatırlamaya bilmərik. Prezident İlham Əliyev həmin qurultaydakı çıxışında bildirdi ki, buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Dövlətimizin başçısı onu da qeyd etmişdir ki, bu gün alnımız açıqdır, üzümüz gülür, başımız dikdir və həmişə belə olacaq. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

### Zamanın tələbi ilə yaradılan Yeni Azərbaycan Partiyası

Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edərkən milyonların partiyası kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Xalqın böyük əksəriyyətinin istəyini özündə əks etdirən 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə müraciəti, həmçinin dahi şəxsiyyətin bu müraciətə cavabı xalqın ümidinin yalnız ümummilli liderə olduğunu, ulu öndərin isə xalq, dövlət sevgisinin aydın mənzərəsini yaratdı. Zamanın tələbi, xalqın istəyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının çox keçmədən, yəni siyasət meydanına atılmasından 7 ay sonra iqtidar partiyası kimi fəaliyyət göstərməsi xalqın ulu öndər Heydər Əliyevə sevgisini, Yeni Azərbaycan Partiyasına inamını bir daha ortaya qoydu. Çox qısa zamanda xalqın partiyası adını qazanan Yeni Azərbaycan Partiyası daim tutduğu yola sadiqliyi ilə nüfuzunu artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirir. Partiya ilk gündən öz adını qələbələr partiyası kimi də tarixə yazdı. Ölkədə keçirilən seçki proseslərində partiyanın qələbələri xalqın YAP-ın gələcəyinə, həyata keçirilən siyasətə inamına işıq salır. Bu gün hansı sahədən bəhs etsək uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizdən sonra həmin istiqamətdə baş verən dəyişikliklərdən, təkmilləşdmədən danışmamaq mümkün deyil. Bu baxımdan Yeni Azərbaycan Partiyası da şanlı Qələbəmizin reallıqları əsasında 2021-ci ildə VII qurultayını keçirdi. Zəfər qurultayında dövlətimizin başçısı İlham Əliyev partiyanın qarşısında dayanan vəzifələri açıqladı. Qurultaydakı çıxışında "Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi" söyləyən Prezident İlham Əliyev onu da xüsusi qeyd etdi ki, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq. Həmin Qurultayda formalaşan yeni tərkib, qəbul olunan yeni Nizamnamə, eyni zamanda, 2021-ci ilin sonunda təsdiqlənən "Biz birlikdə güclüyük!" devizi altında yeni Proqram partiyanın yeni dövrdə qarşıya qoyduğu vəzifələrin uğurlu icrasını təmin edir.

**(ardı var)**

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

**Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli liderimiz Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun 35 illik rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir.**

# Azərbaycanı ümumi tərəqqi yoluna çıxarmış qurucu lider



Ulu öndər respublikaya rəhbərlik etdiyi dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Xalqımızın böyük oğlu Heydər Əliyev bütün Türk dünyasının da sevimlisi, türkdilli xalqların fəxr etdiyi nadir tarixi simadır.

Müstəqil dövlətimizin banisi Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla Ulu öndər xalqımızın mötəbər və təminatlı gələcəyinə böyük yol açmışdır. Azərbaycan 56 ildir ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Dünyanın tərəqqipərvər insanları və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar.

Azərbaycan müstəqilliyin ilk addımında naşı siyasi qüvvələrin məsuliyyətsizliyi və xəyanətkarlığı səbəbindən məhv olmaq təhlükəsi ilə üzləşəndə Ümummilli lider öz xaqının harayına yetişərək onun xilaskarına çevrildi. 1993-cü ilin böhranlı yayında – Vətənin dar günündə – ölkənin ictimai-siyasi həyatında baş verən çaxnaşma, hakimiyyət uğrunda gedən mübarizə, cəbhədəki acınacaqlı məğlubiyyətlər, vətəndaş qarşıdurması zamanı xalqımız öz böyük oğlunu hakimiyyətə dəvət etdi.

O zaman Heydər Əliyev deyirdi: "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram". Yaxın kecmişə nəzər salsaq görərik ki, 1988-1993-cü illərdə cəbhədəki məğlubiyyətlər, Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, anarxiya, xaos, vətəndaş müharibəsi və s. ölkədə gərgin vəziyyət yaratmışdı. Belə bir təhlükəli məqamda xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü ilin 15 iyunu Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı və xalq bu günü hər il Milli Qurtuluş Günü kimi bayram edir.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəni tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna yüksəltmişdir. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir.

Ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqil Azərbaycan iqtisadiyyatına, elminə, təhsilinə, səhiyyəsinə və mədəniyyətinə də yeni nəfəs gətirdi. Demək olar ki, cəmiyyətin bütün sferalarında inqilabi dəyişikliklər baş verdi. Təhsil və elm ocaqları Heydər Əliyevin qayğısı sayəsində öz əvvəlki şöhrətini bərpa etdi. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində vətəndaş müharibəsi dayandırıldı, Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində torpaqlarımızın işğalının davam etməsinə son qoyuldu və atəşkəs əldə olundu.

Qısa bir zamanda Ulu öndərin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş təmin edildi. Siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı. Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ilin noyabrında müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı. İqtisadi islahatların həyata keçirilməsi geniş vüsət aldı və "Əsrin müqaviləsi" adını almış nəhəng neft müqaviləsi imzalandı, dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi.

Bütün bu sadalananlar məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün oldu. Bu dahi şəxsiyyət tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, onların arasında mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi İpək Yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirdi və bütün dünya dövlətlərinin inkişafına öz mühüm töhfəsini verdi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın yeni neft strategiyası həyata keçirilməyə başlandı və ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcmi ilbəil artdı. Keçmiş sovet respublikaları arasında Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyük miqyaslı saziş imzaladı və Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

Avropa və Asiya qitəsinin arasında yerləşən Azərbaycan tarixən Qərblə Şərq, Cənubla Şimal arasında "körpü" funksiyası daşıyıb. Tarixi İpək Yolunun bərpasına həsr edilən və Bakıda böyük təntənə ilə keçirilən beynəlxalq konfrans respublikamızın yenidən iki qitəni birləşdirən qovşağa çevrilməkdə olduğunu nümayiş etdirdi. İpək Yolunun üstündə yerləşən 33 ölkənin, 8 beynəlxalq təşkilatın nümayəndələri ölkəmizin paytaxtına toplaşmaqla Azərbaycanın beynəlxalq nüfuzunu bütün dünyada bir daha təsdiq etdilər.

Uzun illərin təcrübəsi sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar öz milli sərvətlərinə sahib olmaq imkanı qazanırlar. Qeyd etmək lazımdır ki, dünyada neftlə zəngin olan ölkələr çoxdur. Lakin həmin sərvətlərdən bütün dövlətlər heç də öz xalqlarının rifahı üçün lazımi səviyyədə istifadə edə bilmirlər. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində həmin sərvətlər xalqımızın rifah halının yaxşılaşmasına yönəldildi. Onun rəhbərliyi ilə hazırlanan və dünyanın nəhəng şirkətləri ilə birgə imzalanan "Əsrin müqaviləsi" yeni neft strategiyamızın şanlı səhifələrini acdı.

Məhz bu müqavilə Azərabaycan iqtisadiyyatının inkişafının təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsi və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi, xarici investisiyanın ölkəmizə axınını sürətləndirdi və Azərbaycanda yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi.

1993-cü ilin ikinci yarısından etibarən ümummilli liderimiz Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü daxili və xarici siyasət nəticəsində 1995-ci ildə Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi, sosial-iqtisadi problemlərin həlli, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən işlər ön plana çəkildi. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başladı və iqtisadiyyatın ayrı-ayrı sahələrində ciddi irəliləyiş əldə olundu. Görülən məqsədyönlü və uzaq perspektivlərə tuşlanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alındı.

Bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək lazımdır. Bu baxımdan da Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ulu öndər respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə istərsə ümumi inkişafın elm və təhsildən asılı olduğunu dönmədən qeyd edirdi. Heydər Əliyev göstərirdi: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir". Daha sonra Heydər Əliyev göstərirdi ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə, çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Ümummilli lider hələ Sovetlər dönəmində respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədi ilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara hər cür qayğı göstərirdi. Keçən əsrin 70-80-ci illərində yeni elm sahələrinin, elmi istiqamətlərin yaranması Respublikamızda elmin inkişafına çox müsbət təsir göstərmişdi. Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və bilavasitə iştirakı ilə kimya, neft emalı və neft-kimya, astronomiya, kosmik tədqiqatlar, biokimya, biofizika, biotexnologiya kimi sahələr inkişaf etdirilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda onlarla nəhəng sənaye kompleksi – neft emalı, neft-kimya, maşınqayırma, cihazqayırma müəssisələri yaradıldı ki, bunlar da Respublikada elmin sürətli inkişafını təmin etdi.

1970–1982-ci illərdə geniş vüsət alan tikinti quruculuq işləri yüksək ixtisaslı mütəxəssislərlə təmin etmək üçün Azərbaycan Memarlıq və İnşaat İnstitutu, Gəncə Pedaqoji İnstitutu, Azərbaycan Pedaqoji Rus dili İnstitutu, Tusi adına Azərbaycan Pedaqoji İnstitutu, Hərbi Məktəblər açılmışdır. Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1969-cu ildən başlayaraq hər il 800–900 nəfər olmaqla 15 mindən çox gənc SSRİ-nin ən aparıcı ali təhsil ocaqlarında təhsil almağa göndərilmişdir.

Təhsil ölkədə elmin inkişafında əsas rol oynayır. Elm isə innovasiya texnologiyaların əsasını təşkil edir. Yeni texnologiya, innovasiya isə istehsalın inkişafının əsasını təşkil edir. Məhz buna görə Ulu öndər göstərdi ki, təhsil strateji sahədir, millətin gələcəyi bundan asılıdır. Ulu öndərin hakimiyyətə qayıdışı ölkəmizdə ümumi tənəzzülə son qoyduğu kimi, elm və təhsil sistemimizi də yeni inkişaf yoluna çıxardı.

Prezident Heydər Əliyev müstəqillik illərində ölkəmizdə elm və təhsilin inkişafına xüsusi diqqət yetirdi. Azərbaycanda 90-cı illərin əvvəllərində başqa sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də tənəzzül baş verdi. Təhsildən, elmdən yayınma halları, təhülkəli meyillər özünü göstərdi. Müəllimlərin bir hissəsi kiçik ticarət dalınca qaçmaq, elm adamlarının xaricə axını baş verdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri misilsizdir. O, Elmlər Akademiyasına, bütövlükdə Azərbaycan elminə, ziyalılara, elm adamlarına həmişə yüksək qiymət vermiş, diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin ikinci dəfə Azərbaycana qayıdışından sonra elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərdi. Heydər Əliyev 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla keçirdiyi görüş ölkə rəhbərinin alimlərə olan böyük ehtiram və qayğı idi.



Ulu öndər həmin görüşdə demişdir: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacayıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir".

Ümummilli lider bütün ictimai-siyasi fəaliyyəti boyunca tarixə, ədəbiyyata, mədəniyyətə, elm adamlarına, ziyalılara yüksək qiymət və əhəmiyyət vermiş, onların xalqın mənəvi həyatında oynadığı rolu layiqincə dəyərləndirirdi. Həmin dövrdə Azərbaycan tarixinə, mədəniyyətinə dair elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı, bir sıra əsərlərə dövlət mükafatları verildi. Təhsil ocaqlarının yubileyləri keçirildi.

2002-ci il iyun ayının 13-də ulu öndər Heydər Əliyev çalışdığım İqtisad Universitetinin 70 illik yubileyində iştirak edirdi. Prezident geniş nitq söyləyərək kollektiv qarşısında vəzifələr qoydu: təhsilin keyfiyyətini yaxşılaşdırmaq, yeni dərsliklər yazmaq, bazar iqtisadiyyatının müasir problemlərini araşdırmaq və s. Bu vəzifələri rəhbər tutaraq böyük işlər həyata keçirməyə başladı. Həmin dövrdə İqtisad Universitetində 15 fakültə, 50 kafedra, o cümlədən 27 ixtisas kafedrası, 2 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərirdi. Universitetdə 11030 nəfər tələbə (bakalavr), 576 nəfər magistr təhsil alırdı. Onların təhsili ilə 54 elmlər doktoru-professor, 287 nəfər elmlər namizədi-dosent məşğul idi.

Yubiley münasibəti ilə Ulu öndər kollektiv əməkdaşlarını mükafatlandırdı. Mən isə elmin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" yüksək ada layiq görüldüm. Həmin dövrdə mən Ulu öndərin tapşırığı ilə universitetdə elmi işlər üzrə prorektor vəzifəsini yerinə yetirirdim. Heydər Əliyevin elm və təhsil adamlarına qayğısını daim anıram və iftixar hissi ilə yad edirəm.

İqtisad Universitetinin artıq 95 illik yubileyi yaxınlaşır. Bu illər ərzində böyük uğurlar qazanılıb. Bakalavr və Magistraturada 20.000-dən çox gənc təhsil alır. Onların təhsili ilə 75 nəfər elmlər doktoru, 66 nəfər professor, 447 elmlər namizədi (fəlsəfə doktoru) 324 nəfər dosent məşğul olur. Təhsil azərbaycan, türk, rus və ingilis dilində aparılır. Universitetdə magistratura, doktorantura və dissertasiya şurası fəaliyyət göstərir. Bu sahədə son illərdə böyük uğurlar əldə edilib.

Artıq universitet dünyada tanınır. 2025-ci ildə dünyanın 200 ölkəsindən olan 32 min universitetin reytinqi müəyyən edilərkən İqtisad Universiteti (UNEC) Azərbaycanda 1 yerə, dünyada isə 2840-cı yerə layiq görülmüşdür.

Azərbaycan XX əsrin sonunda xalqımızın böyük oğlu Heydər Əliyevin gərgin əməyi, məntiqi siyasi gedişləri və inkişaf strategiyası nəticəsində qan-qadadan uzaq, sabitliyin və əmin-amanlığın hökm sürdüyü bir ölkəyə çevrilirdi. Gündən-günə artan neft gəlirləri, xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini dəyişdi, Azərbaycanı regionun lider dövlətinə çevirdi.

Bu siyasi kursun ardıcıl olaraq həyata keçirilməsi və daha da inkişaf etdirilməsi möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır.

Ölkənin qeyri-neft sektorunun inkişafı da İlham Əliyevin davam etdirdiyi iqtisadi strategiyanın önəmli bir yönüdür. Azərbaycan rəhbəri çalışır ki, ölkə iqtisadiyyatı neft amilindən asılı olmasın. Buna görə də qeyri-neft sektorunun inkişafı istiqamətində ciddi addımlar atılır. Hazırda qlobal iqtisadi inkişafın gələcəyini müəyyənləşdirən texnologiyaların mənimsənilməsi dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzindədir. Ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunların sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır.

Hazırda respublikamız dünya birliyi və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən dinamik inkişaf edən iqtisadiyyata və mühüm geostrateji mövqeyə malik olan, qlobal enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayan bir dövlət maşınqayırması, neftkimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, aqrar sektor və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsi, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsi, xarici ticarət dövriyyəsi həcminin artırılması prosesi davam edir.

Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi ilbəil artmaqdadır. Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almağa başlamışdır. Ölkə başçının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır. Əldə olunan iqtisadi artım isə ilk növbədə, Azərbaycan vətəndaşlarının maddi rifah halının yüksəldilməsinə, ölkədə yoxsulluğun azaldılmasına, sahibkarlığın və regionların hərtərəfli inkişafına yönəldilmişdir.

Ulu öndər Heydər Əliyevin şəxsiyyətinə və sənətinə çox yüksək qiymət verdiyi dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəyli yazırdı: "Bəşər tarixində elə şəxslər var ki, onlar tək özləri üçün yox, bütün xalqın, bəlkə də bütün bəşəriyyətin xoşbəxtliyi və çiçəklənməsi naminə həyata gəliblər." Bu sözləri tam cəsarətlə ulu öndərimiz Heydər Əliyev haqqında da demək olar.

Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük şəxsiyyət– dünya şöhrətli siyasət və dövlət xadimi, fenomen rəhbər, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi ötən illərdə xalqımızın qəlbində əbədiləşmiş, ideya və əməlləri isə ölkəmizi işıqlı gələcəyə aparır.

***Arif ŞƏKƏRƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,***
***Əməkdar elm xadimi***



# Çağdaş tariximizin ümummilli xilas günü

**(əvvəli 1-ci səhifədə)**

Son illərdə baş verən hadisələr, ölkənin inkişaf xətti, ən çətin problemlərin həlli açarının tapılması bir daha təsdiqlədi ki, xalqın təkidli tələbləri ilə Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı məhz Azərbaycanı xilas etdi. Çünki, AXC–Müsavat iqtidarının səriştəsizliyi, vəzifə kürsüləri uğrunda didişmələri, daxili və xarici siyasətdə buraxılan kobud səhvlər hələ 1993-cü ilin əvvəllərində ölkəni siyasi böhran, hakimiyyət böhranı həddinə gətirib çıxarmışdı.

Əslində, 1992-ci ilin may ayında silah gücünə hakimiyyətə gələn AXC-Müsavat cütlüyünün diletantlığı və siyasi naşılığı heç bir neçə ay keçməmiş özünü büruzə verməyə başladı.

Respublikamızdakı ictimai-siyasi vəziyyətə lazımınca nəzarət edə bilməmələri və bilavasitə onların günahı ucbatından cəbhədə baş verən uğursuzluqlar xalqın onlara qarşı olan inamını günü-gündən azaldırdı.

Bəla orasında idi ki, bu niyyətlərini həyata keçirmək üçün xarici ölkələrin bəzi orqanları o vaxtkı hakimiyyətin yetişdirdiyi “kadrlardan” – Əlikram Hümbətovdan, Rəhim Qazıyevdən, Surət Hüseynovdan və bu kimi adamlardan çox məharətlə istifadə edirdilər. Üstəlik, “bəylərin” 1992-ci ilin may ayında devirdikləri Ayaz Mütəllibov hakimiyyətinin liderləri də Rusiyanın məxfi orqanlarının yaxından köməkliyi ilə respublikamızın bir suveren dövlət kimi ləğv edilməsi üçün bütün səylərini birləşdirmişdilər. Cənub qonşumuzun müxtəlif orqanları da bu işlərdə xüsusi fəallıq göstərirdilər.

Bəs, onlar nə istəyirdilər? Əsas məqsəd Azərbaycanı müəyyən inzibati ərazilərə bölüb, federativ dövlət yaratmaq və onun müstəqilliyini əlindən almaq idi. Həmin qüvvələrin xarici ölkə havadarları ilə birgə hazırladıqları məkrli plana əsasən Azərbaycanın qərbində Gəncə, şimalında Quba, mərkəzində Şirvan quberniyaları yaradılmalı, cənub-qərbində Kürdüstan Respublikası, şimal-qərbində (Şəki-Zaqatala zonasında) Avar Respublikası, şimalında Ləzgistan Respublikası və cənubunda Talış-Muğan Respublikası elan olunmalıydı. 1993-ilin aprel-may aylarında bu planın həyata keçirilməsinə başlanmışdı və artıq bəzi regionlarda hakimiyyətsizlik hökm sürürdü. İyunun əvvəllərində başlayan Gəncə hadisələri bu prosesi daha da sürətləndirdi.

Faciələrin miqyasına, münaqişələrin mürəkkəbliyinə görə 1993-cü il Azərbaycan dövləti üçün ən ağır dövr idi. Bütün bunlar xalqımızın tarixində böyük faciə idi. Ən böyük faciə isə belə adamların hakimiyyətdə olması, lakin hakimiyyətdən baş çıxarmaması idi. Ölkədə özbaşınalıq, lidersizlik və dəhşətli bir hərc-mərclik hökm sürməkdə idi. Həmin dəhşətli hadisələr bir daha göstərdi ki, müdriklər duran yerdə hakimiyyəti nadanlara vermək özü də cinayətdir. Bu, bir hakimiyyət kürsüsü xatirinə bir ölkəni, bir milləti fəlakətə sürükləməyə bərabərdir.

Ulu öndər Heydər Əliyev bütün ömrünü siyasi işdə, vəzifə pillələrində keçirmiş, SSRİ kimi dünyanın nəhəng imperiyasının rəhbərlərindən biri olmuşdu. Odur ki, onun Bakıya dəvət olunması təsadüfi ola bilməzdi. Əslində, məqsəd Azərbaycan dövlətçiliyini xilas etmək yükünü onun çiyinlərinə qoymaqdan ibarət idi. Təbii ki, bütün bunlar Heydər Əliyevə bəlli idi və o, qiyamçılarla, ölkənin yaxın, uzaq düşmənləri ilə özünəməxsus bir üsulla mübarizəyə atıldı.

Tarixi reallıq onu təsdiq edir ki, Heydər Əliyevin hakimiyyətə gəlişini nə sabiq prezident və onun komandası, nə sabiq spiker və onun komandası, nə sabiq baş nazir və onun komandası, nə də o dövrdə hökm sahibi olan sabiq daxili işlər naziri İsgəndər Həmidov və onun “boz qurd”ları, nə də yalnız şəxsi mənafelərə qulluq edən deputatlar həll etmirdilər. Bu taleyüklü məsələni xalq həll edirdi. Xalq isə deyirdi: “Heydər baba, qurtar Azərbaycanı bu bəladan!”

Heydər Əliyev şəxsiyyətinə olub-keçənləri və gələcəyi təhlil etmək bacarığı, hər hansı problemin həlli zamanı onlarca variantı saf-çürük edərək düzgün nəticə çıxarması xarakterikdir. O səbəbdəndir ki, bu dahi şəxsiyyət əvvəlcə Gəncəyə gedib oradakı vəziyyətlə yerində tanış olduqdan sonra vətəndaş qarşıdurmasını böyük məharətlə və uzaqgörənliklə aradan qaldırdı. Sonra isə müdrikcəsinə və siyasi ustalıqla o vaxt Azərbaycanda mövcud olan başıpozuq silahlı dəstələrin tərksilah olunmasına nail oldu. Müstəqilliyimiz üçün çox təhlükəli olan separatçılıq meyillərini aradan qaldırdı və qondarma Talış-Muğan Respublikasının başında duranları zərərsizləşdirdi.

Heydər Əliyev zəngin idarəetmə və dövlətçilik təcrübəsinə arxalanaraq hər şeydən əvvəl ölkədə özbaşınalığa son qoydu, müstəqilliyimizin möhkəmləndirilməsinə, haqq-ədalətin bərpasına, xalqın öləziyən ruhunun özünə qayıtmasına, müharibədə atəşkəsə nail oldu. Özünün uğurlu siyasəti ilə vətəndaş müharibəsinin və etnik parçalanmaların qarşısını aldı, dünya dövlətlərinin haqq işimizi dəstəkləməsinə səbəb oldu. Hakimiyyətə yenidən qayıdışı ilə Milli Qurtuluşumuzun əsasını qoydu. 1993-cü ilin 15 iyun günü Azərbaycan tarixinə Qurtuluş günü kimi daxil oldu.

Prezident Heydər Əliyevin qədirbilən xalqımız və tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalayıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Sözün əsl mənasında, Qurtuluş deməkdir. Əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik şəxsiyyəti, təcrübəli və iradəli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik.

Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışında tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya böyük siyasətə qayıdışı şərəfli xilaskar missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir.

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı - genefondumuzu xilas etdi...

1993-cü ilin 15 iyununda gənc və kövrək, ancaq gerçək müstəqillik tariximizin əsası qoyulmuşdur. Bu baxımdan 15 iyun 1993-cü il Azərbaycan tarixində böyük tarixə bərabər gün kimi səciyyələndirilməlidir. Milli Qurtuluş Günü kimi qeyd etdiyimiz 15 iyun Milli Məclisin qərarı ilə 1997-ci il iyunun 27-də rəsmiləşdirildi.

Həmin tarixi qərarda deyilir: “Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qaytarılması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında “ömrümün qalan hissəsini də xalqıma qurban verirəm” deyib meydana atılan böyük ürəkli vətən oğlunun öz xalqı, öz vətəni qarşısında misilsiz fədakarlığı idi”.

Görkəmli alman dövlət başçısı kansler O.Bismark demişdir: “Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq öncə şəxsiyyət ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır”. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, xalqımızın təkidi, tələbi və xahişi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev müdrikcəsinə və uzaqgörənliklə Azərbaycanı məhz belə bir birliyə nail olmaqla labüd məhvdən xilas etdi, müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunub saxlanmasına real zəmin yaratdı.

Bu illərdə Heydər Əliyevin gərgin işi, zəhməti nəticəsində Azərbaycan dövləti bir çox beynəlxalq təşkilatlara üzv olub, onlarla əməkdaşlıq edir. Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycan bölgədə iqtisadi tərəqqiyə imkan verən addımlar atır. Demokratik şəkildə keçirilən parlament və prezident seçkiləri, hüquqi və iqtisadi islahatlar Azərbaycanın müstəqillik və demokratiya yolunda dönməzliyinə işarədir.

Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli varisi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Ölkə başçısının qloballaşan dünyanın tələblərinə uyğun yeni keyfiyyətdə davam etdirdiyi siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə misilsiz töhfələr verib.

Prezident İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olub. Dövlətimizin başçısı əsası Ümummilli lider tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının ardıcıl şəkildə və yüksək dinamizmlə həyata keçirilməsinə möhkəm və dönməz zəmin formalaşdırıb.

Ümumiyyətlə, ölkəmizin hərtərəfli və sürətli inkişafı, baş verən əsaslı dəyişikliklər, xarici siyasətimizdəki uğurlar, insanların rahatlığı naminə həyata keçirilən qlobal layihələr Azərbaycanın qüdrətli dövlət olduğunu təsdiq edir. Bütün bunlar bir daha sübut edir ki, ölkəmizdə Heydər Əliyev siyasətinə alternativ yoxdur və məhz bu siyasət Azərbaycanın firavan gələcəyinin qarantıdır.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Milli Qurtuluş Günü təntənələri



## Beyləqan

**Beyləqanın Rayon Mədəniyyət Mərkəzində 15 İyun – Milli Qurtuluş Günü bayrama həsr olunmuş tədbir keçirilib.**

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov 1993-cü ilin iyun hadisələrinin Azərbaycan tarixində dönüş nöqtəsi olduğunu vurğulayaraq, ulu öndər Heydər Əliyevin ölkəni siyasi böhrandan xilas etdiyini və sabitlik, inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, müasir müstəqil Azərbaycanın təməlləri məhz həmin dövrdə qoyulub və bu gün həmin strateji kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə Birinci Şahsevən kənd 3 saylı tam orta məktəbin direktoru Zaur Qədirov Milli Qurtuluş Gününün dövlətçilik tariximizdəki əhəmiyyətindən danışıb. Yuxarı Aran qəsəbə tam orta məktəbinin şagirdi Rəqsanə Misirxanova Ulu öndərə həsr olunmuş şeiri səsləndirib.

Bədii hissədə müğənnilər, rayonun tanınmış musiqiçiləri vətənpərvərlik ruhunda musiqi proqramı ilə çıxış ediblər.

## Bakı

**Fövqəladə Hallar Nazirliyi tərəfindən 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.**

Tədbirdə Nazirliyin məsul şəxsləri, Azərbaycan Respublikasının xalq artisti Məbud Məhərrəmov, “Nərimanfilm” kinostudiyasının direktoru, “Doğma torpaq” filminin baş prodüseri Nəriman Məmmədov və filmin yaradıcı heyətinin digər üzvləri, FHN Akademiyasının professor-müəllim heyəti və kursantları iştirak ediblər.

Çıxış edənlər Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən bəhs edib, ümummilli lider Heydər Əliyevin misilsiz xilaskarlıq missiyasından söz açıblar. Bildirilib ki, müstəqilliyimizin ilk illərində dövlət idarəetməsindəki səriştəsizlik nəticəsində ölkədə xaos və dərin böhran hökm sürmüş, gənc respublikamız məhv olmaq təhülükəsi ilə üz-üzə qalmışdı. Belə bir ağır şəraitdə xalqın təkidli çağırışlarına cavab olaraq Ulu öndərin 1993-cü ilin iyununda Naxçıvandan Bakıya qayıtması Azərbaycan tarixinin həlledici dönüş nöqtəsi oldu.

Sonda “Nərimanfilm” kinostudiyasının ərsəyə gətirdiyi “Doğma torpaq” filmi izlənilib.






## Şamaxı

**Şamaxıda Konstitusiya və Suverenlik İli çərçivəsində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Suverenliyə Aparan Qurtuluş Yolu” adlı tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə açan Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov 15 İyun – Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından və müasir müstəqil Azərbaycanın qurulmasında əvəzsiz rolundan bəhs edib.

Daha sonra YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı, Şamaxı Dövlət Regional Kollecinin direktoru İlham Vəliyev, Şamaxı rayon Ağsaqqallar Şurasının üzvü Nəzakət Abdulrazaqova və ADPU Şamaxı filialının müəllimi Şasəddin Mikayılov çıxış edərək Milli Qurtuluş Gününün Azərbaycanın suverenliyinə və sabitliyinə gedən yolun başlanğıcı olduğunu vurğulayıblar.

***XQ***



# Dövlətin sosial dəstəyi davamlı və əhatəlidir

## İndiki islahat paketi 3 milyon vətəndaşın rifahının yaxşılaşmasına töhfədir

**(əvvəli 1-ci səhifədə)**

R.Mustafayev daha sonra bildirib ki, Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlara əsasən, 2018-2025-ci illərdə sosial ödənişlərdə əhəmiyyətli artımlar diqqət çəkib. Minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, minimum pensiya 3 dəfə, orta aylıq pensiya 2,6 dəfə, müavinət və təqaüdlərə ayrılan illik büdcə vəsaiti isə 5 dəfədən çox artırılıb. Bundan əlavə, dövlətimizin başçısının rəhbərliyi ilə formalaşan sosial siyasət nəticəsində 2019-cu ildən bəri sosial sahəyə ayrılan büdcə vəsaiti 2,2 dəfə artırılaraq 2025-ci ildə 16,9 milyard manata çatdırılıb və hazırda bu xərclər ümumi büdcənin 41 faizini təşkil edib.

əlbəttə ki, bizim siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir. Yəni, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar".

Xatırladaq ki, dövlət başçısının ötən ilin sonunda imzaladığı sərəncamda sosial müavinət və təqaüdlərdə də artım nəzərdə tutulmuşdu. Ölkə rəhbərinin cari il iyunun 12-də imzaladığı fərman da artıq bu istiqamətdə artımları gerçəkləşdirir, bir çox əhali kateqoriyalarına (şəhid ailələri, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslər, Vətən Müharibəsi Qəhrəmanları, Azərbaycanın Milli Qəhrəmanları, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü alanlar, beşdən çox uşağı

mövqe, beynəlxalq aləmdə etibarlı tərəfdaş olması ölkəmizi investisiya qoyuluşu üçün cəlbedici məkana çevirib və bütün bunlar respublika əhalisinin rifah halının daha da yaxşılaşmasında önəmli rol oynayıb.

Son illər Azərbaycanda neftdən asılılığı azaltmaq üçün qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilir. Qeyri – neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında ciddi islahatlar həyata keçirilir. Bölgələrdə yaradılan infrastruktur – abad yollar, müasir hotellər və s. turizmin inkişafını gücləndirir, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirir. Bütün bunların nəticəsidir ki, hazırda Azərbaycanın ümumi daxili məhsulunda neft amili təxminən 30 faizdən bir qədər çoxdur. Ümumi gəlirlərin əksəriyyəti isə qeyri – neft sektoru hesabına formalaşır.



Nazir müavini vurğulayıb ki, bu il yanvarın 1-dən pensiya orta aylıq nominal əməkhaqqının artımına uyğun olaraq 8,1 faiz indeksləşdirilib. Pensiya təminatına ayrılan illik vəsait 2018-ci ildən bu yana iki dəfə artırılıb və 2025-ci ildə 7,2 milyard manata çatıb. Bu artım 1,1 milyon vətəndaşa şamil olunub.

R.Mustafayev brifinqdə müharibə veteranlarına ayrılan təqaüddən də bəhs edib. Bildirib ki, dövlət sosial təminat tədbirlərini əsasən əmək qabiliyyəti məhdud şəxslərə tətbiq edir. Bunlar əlilliyi olan, pensiya yaşına çatmış şəxslər, aztəminatlı ailələr, çoxuşaqlı analar, hərbi qulluqçuların övladlarıdır. Yanaşma sosial ədalət prinsipinə əsaslanır. Veteranların rifahının uzunmüddətli dayanıqlı şəkildə dəstəklənməsi daha çox təşviq olunur. Onların məşğulluq imkanları, həmçinin kiçik biznesə çıxış imkanları yaradılır. Bunlarla bağlı mühüm addımlar atılır.

Dövlət təqaüd verilməsi ilə yanaşı, veteranların özünəməşğulluq proqramlarına növbədənkənar cəlb olunmasına, ailə təsərrüfatlarının qurulması yolu ilə veteranlara dəstək olmağa çalışır. 44 günlük Vətən müharibəsindən sonra şəhid ailəsi üzvü və müharibə iştirakçısı olan 26 min 600 nəfərin məşğulluğu təmin edilməsi, onlardan 12 min 600 şəxsin özünəməşğulluq proqramlarına cəlb olunması da vurğulanan fikrin bariz ifadəsidir.

Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli telekanallara müsahibəsində respublikada tətbiq olunan sosial islahat paketi haqqında deyib: "Bu qədər böyük sərmayələr qoyan və Qarabağın bərpası kimi qarşımızda bu qədər böyük problemi olan ölkədə bu sahəyə də bu diqqəti yetirmək,

olan qadınlar, ailə başçısını itirən ailələr, aztəminatlı ailələr, himayədar və övladlığa uşaq götürən ailələr, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum uşaqların qəyyumları, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlər, fəxri adlara layiq görülmüş şəxslərə) yönələn müavinət və təqaüdlərdə, habelə uşağın anadan olmasına görə və ya dəfn üçün birdəfəlik müavinətlərdə növbəti artımların edilməsini nəzərdə tutur.

Azərbaycanda aparılan siyasətdə sosial sahənin prioritet olması dövlət büdcəsində sosialyönümlü xərclərin ildən-ilə əhəmiyyətli dərəcədə artmasında da öz təsdiqini tapır. Bu gün sosialyönümlü xərclərin çəkisinin dövlət büdcəsində 41 faiz olması da sosial rifahın dövlət siyasətinin başlıca istiqaməti olduğunu göstərir. Ölkədə sosial müdafiə tədbirlərinin daim gücləndirilməsi, eləcə də sosial ödənişlərdə davamlı xarakter alan artımların gerçəkləşdirilməsi Azərbaycanın vətəndaş rifahının təminatına xidmət edən güclü sosial siyasətə malik ölkə olduğunu bir daha təsdiqləyir.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin günün tələblərinə uyğun təşkili, bu sahədəki problemlərin aradan qaldırılması istiqamətində görülən işlər sayəsində ölkədə yoxsulluq həddində yaşayanların sayı getdikcə azalıb. Sözügedən məsələnin ardıcıl şəkildə gerçəkləşdirilməsi layihələri kompleks xarakter daşıyıb. Siyasi sabitlik, zəngin təbii ehtiyatlar və iqtisadi potensial, yaradılan əlverişli biznes və investisiya mühiti, müasir infrastruktur, əlverişli coğrafi

Azərbaycanda qurulan etibarlı sosial müdafiə sistemi səmərəli və şəffaf olmaqla yanaşı, əhatəliliyi ilə də diqqət çəkir. Dünya Bankı mütəxəssislərinin hesablamalarına görə, hazırda ölkəmizin sosial müdafiə sistemi geniş əhatəliliyə malikdir və yoxsul sayıla biləcək əhalinin 90,1 faizini əhatə edən bu sistem yoxsulluğun azaldılmasında mühüm rol oynayır.

Azərbaycanın irəli sürdüyü qlobal geoiqtisadi təşəbbüslər, yeni iş yerlərinin yaradılmasının prioritet vəzifə kimi qarşıya qoyulması, yoxsulluq səviyyəsinin getdikcə azaldılması, respublika vətəndaşlarının maliyyə imkanlarının mərhələlərlə və mütəmadi artırılması, çoxsaylı infrastruktur layihələri, ölkəmizin nəqliyyat yollarının şaxələndiyi məkana çevrilməsi, yol infrastrukturunun əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, idarəçilərin yeni kreativ sinfinin yaradılması bu gün dövlətimizin gələcək üçün formalaşdırdığı tədbirlər portfelidir.

Xatırladaq ki, iqtisadi inkişaf potensialı müasir dövrdə hər bir dövlətin gücünü müəyyənləşdirən başlıca amildir. Ümumiyyətlə, hər bir ölkənin, xalqın problemlərinin həllinin ən səmərəli yolu məhz iqtisadi-sosial tərəqqidən keçir. Ona görə də respublikamızın iqtisadi siyasətinin sosialyönümlü xarakter daşıması təsadüfi deyil. Bu, bir tərəfdən insan amilinə yüksək həssaslıq nümunəsidirsə, digər tərəfdən bazar iqtisadiyyatı yolu ilə inkişaf edən bir sıra qabaqcıl dünya dövlətlərinin təcrübəsinə əsaslanır.

***V.BAYRAMOV***
***XQ***

"Yaşıl" gələcəyə keçid

# Azərbaycanın enerji tarixi yenidən yazılır

**Azərbaycanın strateji dayaqlarından biri olan Dövlət Neft Şirkəti son illərdə fəaliyyətində köklü keyfiyyət dəyişikliyi ilə seçilir. Qurum ənənəvi neft-qaz istehsalçısından daha geniş funksiyalar daşıyan, rəqəmsallaşmış, "yaşıl" enerjiyə yönəlmiş və beynəlxalq əməkdaşlıqları ilə fərqlənən çoxşaxəli enerji şirkətinə çevrilməkdədir. Bu transformasiya sadəcə istehsal göstəricilərinin yaxşılaşdırılması ilə məhdudlaşmır, həm də Azərbaycanın enerji təhlükəsizliyi, qlobal bazarlardakı rolu və ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm perspektivlər açır.**




### Yeni mərhələ: 3 strateji hədəf

SOCAR-ın transformasiyası əsasən 3 istiqamətdə aparılır:

**1.** Əməliyyat dayanıqlığının artırılması – təbii azalma ilə müşayiət olunan yataqlarda hasilatın sabit saxlanması, yeni layihələrin reallaşdırılması və infrastrukturun müasirləşdirilməsi;

**2.** Beynəlxalq miqyasda mövqelərin gücləndirilməsi – gəlir mənbələrinin şaxələndirilməsi, regional və qlobal enerji bazarlarında iştirakın genişləndirilməsi;

**3.** Maliyyə sabitliyi və sosial məsuliyyətin balanslaşdırılması – ESG reytinqlərin yüksəldilməsi, büdcə töhfələri və sosial təşəbbüslərin davam etdirilməsi.

### Əməliyyat göstəricilərində irəliləyiş

SOCAR son illərdə çətin geoloji və texniki şərtlərə baxmayaraq, hasilatı sabit saxlamağa nail olub. Xüsusilə AÇG blokuna daxil olan yeni "Azəri Mərkəzi Şərqi" (ACE) platformasından gündəlik hasilat gözləniləndən yüksək – 26 min barel olub. "Şahdəniz" yatağında hasilat 50 milyard kubmetri ötərək uzunmüddətli proqnozları aşıb. "Şahdəniz Kompressiya" layihəsi (SDC) isə əlavə 50 milyard kubmetr qaz və 25 milyon barel kondensat hasilatını nəzərdə tutur.

Eyni zamanda "Babək", "Ümid Faza-2", "KADUA" və "Abşeron" kimi yeni layihələr üzrə yekun investisiya qərarları və




hasilat planları yaxın illər üçün SOCAR-ın dayanıqlı böyüməsini təmin edəcək.

### Köhnə infrastruktura yeni nəfəs

SOCAR transformasiyanın əsas ağırlığını köhnəlmiş "midstream" və "downstream" seqmentlərə yönəldib. 70 ildən artıq fəaliyyətdə olan Heydər Əliyev adına Neft Emalı Zavodunda 2024-cü ildə başa çatan modernləşdirmə nəticəsində ölkəmizdə ilk dəfə "Avro-5" standartına uyğun yanacaq istehsalı mümkün olub. Zavodun texnoloji itkiləri 3,6 faizdən 1,6 faizə enib, yüngül məhsulların payı isə 70 faizi keçib.

Digər tərəfdən, "Azəriqaz" İstehsalat Birliyi üzrə qazpaylayıcı şəbəkələrin yenilənməsi, sayğacların klasterləşdirilməsi və rəqəmsal həllərin tətbiqi ilə qaz itkiləri azaldılıb, müştəri xidmətləri təkmilləşdirilib. Təkcə 2024-cü ildə 820 kilometr boru kəməri təmir olunub, qazlaşdırma səviyyəsi isə 97 faizə çatıb.

### İxrac imkanları və beynəlxalq tərəfdaşlıq

Azərbaycanın qaz ixracı 2024-cü ildə rekord səviyyəyə – 25,3 milyard kubmetrə çatıb. 2026-cı ilə qədər bu göstəricinin 14 milyard kubmetrə yüksəlməsi nəzərdə tutulur. SOCAR hazırda 12 ölkəyə qaz ixrac edir və SWAP mexanizmlərindən yararlanır.

Qlobal iştirak daha da gücləndirilib. BƏƏ-də ADNOC-la əməkdaşlıq çərçivəsində "Umm Lulu" yatağında iştirak payı əldə olunub. İsraildə "Tamar" yatağında SOCAR 10 faiz pay alıb və bp ilə yeni kəşfiyyat lisenziyaları əldə edib. Rumıniya, Pakistan və İsveçrə kimi ölkələrdə qaz ticarəti, LNG və yaşıl enerji üzrə layihələr sürətləndirilib.

Türkiyədəki STAR Neft Emalı Zavodunda isə istismar səmərəliliyi 119 faizə çatdırılıb. Bu da SOCAR-ın downstream seqmentində regional güc mərkəzinə çevrildiyini göstərir.

### Rəqəmsallaşma və "yaşıl" keçid

SOCAR rəqəmsallaşma sahəsində də öncül addımlar atır. "Azneft" İstehsalat Birliyində hasilatın virtual monitorinqi sistemi tətbiq olunub. "Petkim" və "STAR" zavodları Dünya İqtisadi Forumunun "Global Lighthouse Network" siyahısına daxil edilib.

"SOCAR Green" törəmə şirkətinin layihə portfeli 1,4 QVt-dan artıqdır. bp və Total ilə ortaq günəş və külək enerjisi layihələri həyata keçirilir. "Masdar" və "ACWA Power" ilə 4 QVt-lıq razılaşmalar imzalanıb. Biləsuvarda və Neftçalada tikilən günəş stansiyalarına yatırımlar 600 milyon dollardan çoxdur.

### Güclü maliyyə göstəriciləri və sosial öhdəliklər

SOCAR-ın 2024-cü ildə EBITDA göstəricisi 5,2 milyard dollara çatıb. 2022-ci illə müqayisədə borc/EBITDA nisbəti 66 faiz azalıb. Moody's və Fitch agentlikləri SOCAR-ın kredit reytinqlərini artırıb. Şirkətin ilk "yaşıl" istiqrazları yerli bazarda yüksək maraqla qarşılanıb – artıq 13,8 milyon dollarlıq əməliyyat həyata keçirilib.

Son 3 ildə dövlət büdcəsinə 5,7 milyard AZN vergi və 629 milyon AZN divident ödənişi gerçəkləşdirilib. Eyni dövrdə sosial layihələrə 3 milyard dollardan çox vəsait ayrılıb. İşğaldan azad olunmuş ərazilərin qazlaşdırılması və vətəndaşlar üçün yanacaq qiymətlərinin sosial həssaslıqla müəyyən olunması bu istiqamətdə əsas addımlardandır.

### Neft şirkəti gələcəyə gedən yolun xəritəsini cızır

SOCAR-ın "Next Horizon" strategiyası şirkətin qarşısında yeni dövrün tələblərinə uyğun çevik və səmərəli fəaliyyət modeli formalaşdırmağı hədəfləyir. Hasilatın maksimum dəyərə çevrilməsi, emal və neft-kimya zəncirinin modernləşdirilməsi, əməliyyat səmərəliliyinin artırılması və ESG standartlarına uyğun təhlükəsizlik sistemi bu strategiyanın əsas elementləridir.

SOCAR-ın beynəlxalq təşəbbüslərdə fəal iştirakı, "yaşıl" enerji texnologiyalarına keçidi və enerji təhlükəsizliyinə verdiyi töhfə onu təkcə Azərbaycanın deyil, regionun enerji gələcəyini formalaşdıran əsas oyunçulardan birinə çevirir.

***Ləman ZEYNALOVA,***
***Trend***

# Dəniz yataqları bu gün də zəngin neft-qaz xəzinəsidir



**Xəzər dənizinin Azərbaycan sektoru yeraltı sərvətlərinin zənginliyinə görə bütün dünyada məşhurdur. Bu zənginliyin açarı 76 il əvvəl tapılsa da, uzun illərin hasilatından sonra neft-qaz ehtiyatlarımız hələ tükənməyib. Ötən müddətdə kəşf olunmuş yataqlar ölkə neftçilərinin şücaəti sayəsində Azərbaycanın bugünkü iqtisadi iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb. Təsadüfi deyil ki, hazırda ölkəmizi dünyada və Avropada etibarlı enerji tərəfdaşına çevirmiş "Azəri–Çıraq–Günəşli" və "Şahdəniz"lə yanaşı, köhnə neft-qaz yataqları da iqtisadiyyatımıza uğurla xidmət edir.**

İyun ayının ilk günlərində Bakıda keçirilmiş Enerji Həftəsi də Azərbaycan neft-qaz sənayesi üçün, bir növ, hesabat xarakterli beynəlxalq toplantı kimi yadda qaldı. Həftə çərçivəsində təşkil olunmuş Xəzər neft və qaz sərgisində, eləcə də Bakı Enerji Forumunda ölkəmizin neft və qaz sektorunda qazanılmış çoxsaylı uğurlar bir daha nümayiş etdirildi. Mötəbər enerji toplantısının iştirakçıları dünyanın transmilli şirkətləri ilə hasilatın pay bölgüsü sazişləri çərçivəsində icra edilən layihələrlə yanaşı, Azərbaycan neftçilərinin zəngin təcrübəsi nəticəsində uzun illər istismarda olan yataqlar üzrə əldə edilmiş göstəricilərlə də tanış olmaq imkanı qazandılar.

Elə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) dəniz neft yataqları üzrə əldə olunmuş nailiyyətlər və perspektiv imkanlar barədə yaydığı məlumat da bu baxımdan diqqətçəkən oldu. Qurumun məlumatında bildirilir ki, dünyada açıq dənizdə neftçıxarmanın əsasının qoyulduğu "Neft daşları" yatağı öz zənginliyini bu gün də qoruyub saxlayıb. İşlənmənin əvvəlindən 2025-ci il aprelin 1-dək bu yataqdan 181,2 milyon ton neft və 14,2 milyard kubmetr səmt qazı hasil edilib. Ötən illər ərzində "Neft daşları" yatağında 1983 quyu qazılıb. Hazırda həmin quyulardan 430-u istismar fondundadır.

Xatırladaq ki, "Neft daşları" yatağı 1949-cu ildə açılıb. Həmin il noyabrın 7-də gündəlik 100 ton hasilatla istismara daxil edilmiş ilk quyu Azərbaycan neft sənayesini bütün dünyada məşhurlaşdırıb. Təsadüfi deyil ki, "Neft daşları" açıq dənizdə ilk dəniz platforması kimi "Ginnesin rekordlar kitabı"na daxil olub. Uzunluğu 12 kilometr, eni isə 6 kilometr olan "Neft daşları" yatağı 1951-ci ildə tam işlənməyə daxil edilib. Ötən müddətdə "möcüzələr adası"nda 180 kilometrdən çox estakada salınıb, 320-dən artıq istehsalat meydançası quraşdırılıb, 100 kilometrlərlə neft, qaz və su kəmərləri çəkilib. Dənizdə illik neft-qaz hasilatının 70 faizi sahilə məhz buradan ötürülür.

Bununla yanaşı, uzun illər işlənmədə olan "Günəşli" yatağından hasil edilmiş karbohidrogenlərin də həcmi açıqlanıb. Xatırladaq ki, karbohidrogen ehtiyatlarının zənginliyinə görə seçilən "Günəşli" strukturu 1958-1963-cü illərdə seysmik kəşfiyyat işləri nəticəsində müəyyən olunub. 1977-ci ildə burada 1 nömrəli kəşfiyyat quyusu qazılıb və yatağın tammiqyaslı istismarına başlanılıb. "Azneft" İstehsalat Birliyi üzrə hasilatın 55 faizindən çoxunu verən "Günəşli" yatağının dayaz sulu hissəsində 14 dərin dəniz özülü fəaliyyət göstərir. İşlənmənin əvvəlindən 2025-ci il aprelin 1-dək buradan 209,2 milyon ton neft (kondensatla birlikdə) və 136,5 milyard kubmetrdən çox qaz hasil olunub.

Ümumilikdə isə, ötən 48 il ərzində "Günəşli" yatağının dayaz sulu hissəsində 371 quyu qazılıb. Hazırda həmin quyulardan 274-dən neft və qaz çıxarılır. Yeri gəlmişkən, Xəzərin Azərbaycan sektorunda yerləşən zəngin yeraltı sərvətlər xəzinəsi olan "Günəşli" yatağından hasil olunan neft yüksək keyfiyyətə malikdir. Tərkibinə görə "Azeri Light" markasına tam uyğun gələn "Günəşli" nefti olduqca yüngüldür.

Xəzərin Azərbaycan sektorunda yerləşən "Bulla-dəniz" yatağı Bakı arxipelağının şimal hissəsində, Ələt burnundan 22-23 kilometr, Bulla adasından 12-15 kilometr, "Səngəçal dəniz" – "Duvannı-dəniz" – "Xərə Zirə adası" yatağından isə 10 kilometr cənub-şərqdə yerləşir. Burada dənizin dərinliyi 17 metrdən 30 metrə qədər və daha çox dəyişir. Dənizin dibi maili olaraq cənub-şərq istiqamətində dərinləyə doğru batır. Bu qalxım aparılan seysmik kəşfiyyat işləri nəticəsində 1951-ci ildə aşkar edilib. Yatağın neftlilik-qazlılığı isə 1973-cü ildə qazılmış 18 saylı quyu vasitəsilə aşkarlanıb. Bu quyudan VII horizontun 5203-5190 metr hüdudlarından sınaq vaxtı orta gündəlik 200 ton kondensat və 1 milyon kubmetr qaz alınıb.

Hazırda burada 1-i neft və 8-i qaz-kondensat olmaqla 9 quyu fəaliyyətdədir. Həmin quyular fontan üsulu ilə istismar edilir. İşlənmənin əvvəlindən bu il aprelin 1-dək "Bulla-dəniz" yatağından 70,8 milyard kubmetrdən çox qaz və 12,5 milyon ton neft (kondensatla birlikdə) hasil olunub.

Bir neçə il əvvəl işlənməyə daxil edilmiş "Abşeron" yatağı da qaz ehtiyatlarının zənginliyinə görə seçilir. Xatırladaq ki, "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz yatağı blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" saziş 2009-cu ildə SOCAR-la Fransanın "TotalEnergies" şirkəti arasında imzalanıb. 2023-cü il avqustun 4-də "Abşeron" layihəsinə daha bir səhmdar – Abu Dabi Milli Neft Şirkəti (ADNOC) daxil olub. Bununla da, SOCAR və "TotalEnergies" şirkətləri hərəsi 35 faiz ADNOC isə 30 faiz səhmə malik olmaqla səhmdarların yeni pay bölgüsü formalaşdırılıb. Saziş sahəsi 747 kvadratkilometr olan yatağın işlənilməsini layihənin birgə operatoru olan "JOCAP" şirkəti həyata keçirir.

2011-ci il yanvarın 14-də Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə yataqda qazma prosesi başlanılıb. 2011-ci il sentyabrın 9-da "Abşeron" yatağının kəşf edildiyi bəyan edilib. 2019-cu ildə yataqda 7 min 411 metr dərinlikdə ABD-001 hasilat və qiymətləndirmə quyusunda qazma işləri başa çatdırılıb. Növbəti ilin sentyabr ayında isə SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimi keçirilib.

2023-cü il iyulun 3-də "Abşeron" qaz-kondensat yatağından gündəlik 4,2 milyon kubmetr qaz və 1200 ton kondensat hasilatı ilə istismara başlanılıb. Hazırda fəal işlənmə mərhələsində olan bu yataqdan ötən müddətdə 2,6 milyard kubmetrdən artıq qaz və 1 milyon tondan çox kondensat hasil edilib.

Azərbaycanın qaz sənayesinin perspektivli, ümidverici yataqlarından sayılan "Ümid" strukturunda dərin axtarış qazmasına 1977-ci ildə başlanılsa da, heç bir quyuda sınaq işləri aparılmayıb. "Ümid" qaz-kondensat yatağı 1 saylı stasionar dəniz özülündən 2009-2011-ci ildə qazılmış 8 saylı quyu vasitəsi ilə kəşf olunub. Dənizin 58 metr dərinliyində quraşdırılmış platformanın tikintisindən tutmuş, qazma işlərinə kimi bütün əməliyyatlar SOCAR-ın öz gücü ilə həyata keçirilib. Məhz bunun nəticəsidir ki, "Ümid" yatağı SOCAR-ın müstəqillik illərində öz daxili imkanları hesabına kəşf etdiyi ilk yataq kimi tarixə düşüb.

İlkin hesablamalara görə, yatağın ehtiyatları Balaxanı VIII, Fasilə (B,C,D), Fasilə E, QÜQ və QA lay dəstələrinə görə 129 milyard kubmetr qaz və 20 milyon ton kondensat həcmində qiymətləndirilir. İstismarına 2012-ci ildə başlanılmış "Ümid" qaz-kondensat yatağının işlənilməsi "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı (UBOC) tərəfindən həyata keçirilir. Ötən müddətdə buradan 11,2 milyard kubmetr qaz və 1 milyon 650 min ton kondensat hasil olunub.

"Azneft" İstehsalat Birliyi hazırda balansında olan bütün yataqlar üzrə yeni quyuların planlaşdırılmasında yüksək hasilat və iqtisadi səmərəliliyin artırılması üçün optimallaşdırma işləri aparır. Bu məqsədlə yüksək maili və horizontal quyuların qazılması imkanları genişləndirilir. Qurumdan verilən məlumata görə, "Abşeron" Neft-Qazçıxarma İdarəsinin balansında olan "Pirallahı" yatağında horizontal qazma və süzgəclə tamamlama sayəsində istismara verilən quyu üzrə günəlik 2,5 dəfə hasilat artımı gözlənilir.

Qeyd edək ki, hazırda "Azneft" İstehsalat Birliyinin tərkibində "Neft daşları", "28 May", N.Nərimanov adına, "Abşeronneft", "Siyəzənneft", "Bibiheybətneft" və Ə.C.Əmirov adına neft-qazçıxarma idarələri fəaliyyət göstərir. Həmin müəssisələrin balansında, ümumilikdə, 21-i dənizdə, 28-i isə quruda olmaqla 49 neft və qaz yatağı mövcuddur. Hazırda bu yataqların 28-i (13-ü dənizdə, 15-i quruda) işlənmədədir.

# BP-nin Azərbaycan ali təhsilinə rəqəmsal dəstəyi

**BP şirkəti mühəndislik sahəsində ölkənin aparıcı ali təhsil müəssisələrindən biri olan Azərbaycan Texniki Universitetində (AzTU) müasir rəqəmsal kitabxananın yaradılmasını nəzərdə tutan yeni sosial sərmayə layihəsinin uğurla başa çatdığını elan edib. Bu təşəbbüs şirkətin ölkəmizdə təhsilin inkişafına və potensialın artırılmasına dəstək öhdəliyinin bir hissəsidir.**



İnnovativ layihənin məqsədi tələbələrin və professor-müəllim heyətinin tədris, öyrənmə və digər akademik materiallara, mənbələrə və resurslara çıxışını, bu resursların idarə olunması və paylaşma üsullarını modernləşdirməklə onlardan istifadəni sürətli və asan etməkdir.

Qeyd edək ki, hazırda AzTU-nun kitabxanasında 500 mindən çox kitab saxlanılır. Bununla yanaşı, universitetdə 20 tədris və multimedia otağı, eləcə də ixtisaslaşdırılmış laboratoriyalar fəaliyyət göstərir. Yeni rəqəmsal kitabxana bu resursları elektronlaşdırmaqla sürətli və fasiləsiz bilik, məzmun mübadiləsi və birgə işləmək imkanları yaradır. Bununla yanaşı, innovativ layihə geniş rəqəmsal bilik bazasına məsafədən və birbaşa çıxış fürsəti, akademik və tədqiqat materialları üçün təkmilləşdirilmiş axtarış imkanları, həmçinin kontenti paylaşmaq və tədqiqat məlumatlarını saxlamaq üçün birgə istifadə vasitələri kimi funksiyaları təmin edir.

Rəqəmsal kitabxananın açılış mərasimində çıxış edən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "Bu layihə Azərbaycanda təhsilin gələcəyinə və yeni nəsil mühəndis və yenilikçi mütəxəssislər yetişdirilməsinə dəstək öhdəliyimizi əks etdirir. Qürur duyuruq ki, Azərbaycan Texniki Universitetini daha sıx birləşmiş və innovativ təhsil mühiti qurmaq niyyətilə üz tutduğu rəqəmsal transformasiya yolunda dəstəkləyə bilmişik. Belə bir mühitin yaradılmasına doğru atılmış bu addım universitetə öz akademik infrastrukturunu modernləşdirməyə şərait yaradaraq biliklərin və tədqiqat imkanlarının daha əlçatan olmasını təmin edir. Biz xüsusilə məmnunuq ki, 10 mindən çox tələbəyə və 600 nəfər professor-müəllim heyətinə müasir rəqəmsal vasitələrdən və distant təhsil imkanlarından faydalanmağa kömək edirik".

BP-Azərbaycan şirkətinin məlumatına görə, layihə çərçivəsində universitet əməkdaşları üçün təlim aspekti də nəzərdə tutulub. Onlara kitabxana resurslarını daha səmərəli idarə etmək üçün yeni rəqəmsal metodlar öyrədilib. İcra müddəti 18 ay, ümumi dəyəri isə 408 min (240 min ABŞ dolları) olan bu layihəni BP şirkəti öz sosial sərmayə fəaliyyətlərinin bir hissəsi olaraq maliyyələşdirib.

**Azərbaycan ilə Qazaxıstan arasında ilk fiber-optik bağlantı yaradılmasını nəzərdə tutan Transxəzər Fiber – Optik Kabel Xəttinin tikintisi üzrə növbəti mərhələ artıq tamamlanıb. "AzerTelecom" və "Kazakhtelecom" kabelin dəniz dibi ilə çəkilməsi üzrə işlərə başlamaq üçün zəruri layihə tədqiqatının uğurla başa çatması da artıq elan olunub. Xatırladaq ki, mütəxəssislər tərəfindən bu tədqiqat dəniz dibi mühitinin öyrənilməsi və kabel xəttinin potensial marşrutunun müəyyənləşdirilməsi baxımından yüksək dəyərləndirilib.**

Layihə tədqiqatının nəticələrinə əsasən hazırlanmış hesabat Xəzər dənizinin xəritələrinin, dəniz dibinin və ekoloji xüsusiyyətlərinin, o cümlədən potensial marşrut risklərinin ətraflı təhlilini verir. Hesabat, həmçinin layihənin növbəti mərhələləri olan dəniz dibinin tədqiqatı və kabel marşrutunun layihələndirilməsi üçün vacib olan məlumatları əks etdirir. "AzerTelecom" və "Kazakhtelecom" tərəfindən qəbul olunmasına dəstək göstərib.

Qeyd edək ki, Azərbaycanın magistral internet provayderi "AzerTelecom" şirkətinin daxil olduğu "NEQSOL Holding"in sədri Yusif Cabbarovun sözlərinə görə, Transxəzər Fiber – Optik Kabel Xətti layihəsi regionda rəqəmsal əlaqəni və texnoloji inkişafı gücləndirməklə yanaşı, regional iqtisadi əməkdaşlığın genişləndirilməsinə töhfə verəcək.

# Transxəzər Kabel Xətti – Qafqazdan Mərkəzi Asiyaya rabitə körpüsü



ABŞ-nin "Pioneer Consulting" şirkəti layihəyə texniki nəzarət və məsləhət dəstəyi göstərir. Şirkət layihənin bütün mərhələlərinin və əldə olunan nəticələrin beynəlxalq standartlara, eləcə də qabaqcıl sənaye təcrübələrinə uyğunluğunu gerçəkləşdirir. "Pioneer Consulting" sözügedən layihənin tədqiqatı prosesində əsas texniki məlumatların nəzərdən keçirilməsi və ekspert rəylərinin təqdimatı zamanı fəal iştirak edib, eyni zamanda, hesabatın "AzerTele-

Bu layihə "NEQSOL Holding"in strateji "Rəqəmsal İpək Yolu" təşəbbüsünün əsas hissəsidir və regionda dayanıqlı rəqəmsal gələcəyin qurulmasını hədəfləyir. Belə bir məqsədə çatmaq üçün beynəlxalq səviyyədə tanınan qabaqcıl həllər tətbiq edilərək Asiya ilə Avropa arasında daha sürətli, etibarlı və yüksək keyfiyyətli bağlantı dövrünə keçid gerçəkləşdirilir.

# Ağdam Sənaye Parkı 7 ayda 85 milyon manatlıq məhsul buraxıb

**İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumata görə, hazırda burada 9 müəssisə fəaliyyət göstərir, 5-dən çox müəssisənin isə tikintisi davam etdirilir. Bildirilir ki, cari ildə sənaye parkında tütün məmulatlarının istehsalı müəssisəsinin açılışı nəzərdə tutulur. Müəssisədə son tamamlama işləri görülür.**



Ağdam Sənaye Parkında indiyədək investisiya portfeli 260 milyon manatdan çox olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Parkın artıq 70 fazidən çox hissəsi sahibkarların istifadəsinə ayrılıb. Sahibkarlar tərəfindən görülən işlərə 115 milyon manatdan çox investisiya yatırılıb, 653 nəfər isə daimi işlə təmin edilib.

Ağdam Sənaye Parkında fəaliyyət göstərən müəssisələr tərəfindən 2024-cü ilin sentyabrından 2025-ci ilin birinci rübü daxil olmaqla 85 milyon manatlıq, cari ilin birinci rübü ərzində isə 63 milyon manatlıq məhsul istehsal olunub. İstehsal edilən məhsulların daxili bazara çıxarılması ilə yanaşı, ixrac edilməsi istiqamətində də önəmli uğurlar əldə edilib.

Qeyd edək ki, parkda fəaliyyət göstərən sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər. Burada rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən, 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar.

Ağdam Sənaye Parkında fəaliyyət göstərən sahibkarlara indiyədək 126 təsdiqedici sənəd verilib. Bu sənədlər əsasında sahibkarlar tərəfindən idxal olunan texnika və texnoloji avadanlıqlara görə 8 milyon manatdan çox vəsaitə qənaət edilib.

# "Murovdağ" Cənubi Amerika sahillərindən Afrikaya üzür

**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin tərkibində fəaliyyət göstərən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-in "Murovdağ" quru yük gəmisi Uruqvaydan Konqoya 26 min 768 ton buğda çatdırıb.**



Holdinqdən verilən məlumata görə, gəmi səfərinə Uruqvayın Nueva Palmiriya limanından başlayıb və 15 günlük Atlantik okeanı səyahətini uğurla tamamlayaraq, Afrika sahillərinə, Konqo Demokratik Respublikasının Matadi limanına çatıb.

Hazırda "Murovdağ" limanda yükünü boşaltmaq üçün lövbər reydində gözləmə mövqeyindədir.

Qeyd edək ki, bu nəhəng quru yük gəmisi 38 min ton yükgötürmə qabiliyyətinə malikdir. Uzunluğu 179,9 metr, eni 30 metr, bortunun hündürlüyü 15 metr, suya oturumu isə 10,47 metrdir. Maksimum sürəti 15,7 uzel olan gəmi suya oturumunun optimal dizaynı sayəsində bir çox dayaz limanlara rahatlıqla daxil ola bilir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***

# Qərbi Azərbaycanın tarixi-mədəni irsi və ulu türk yurduna qayıdış

**Naxçıvanda "Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış" mövzusunda respublika elmi konfransı keçirilib. Naxçıvan MR Nazirlər Kabineti, AMEA və onun Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin birgə təşkil etdiyi məclisdə Qərbi Azərbaycana Qayıdış hərəkatına elmi, tarixi və mədəni dəstəklə bağlı aktual mövzular diqqət mərkəzində olub.**

Konfransdan əvvəl ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi və Heydər Əliyev Muzeyi ziyarət edilib. Qonaqlar Ümummilli liderin həyat, fəaliyyətinə və zəngin dövlətçilik irsinə həsr olunmuş ekspozisiya nümunələri ilə tanış olublar. Sonra "Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış" adlı sərgiyə baxış keçirilib.







Plenar iclası giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev erməni millətçilərinin dünya imperializminin himayəsi ilə Azərbaycan xalqına qarşı törətdikləri soyqırım və deportasiyaların faciəli xronikasından söz açıb. Alim qeyd edib ki, XX əsr boyu həyata keçirilmiş və XXI əsrdə də davam etmiş soyqırımı, deportasiya və təcavüzlər nəticəsində yüz minlərlə azərbaycanlı öz doğma yurdundan ayrı düşüb, on minlərlə insan qətlə yetirilib. Son dövrlərdə Qərbi Azərbaycana həsr olunmuş həm beynəlxalq, həm də respublika səviyyəli tədbirlərin sayının artmasına diqqət çəkən İsmayıl Hacıyev bu mövzunun həyatımızda daim gündəm təşkil etdiyini söyləyib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Qərbi Azərbaycana məxsus toponimlərin, dil faktorlarının, abidələrin və digər mədəniyyət nümunələrinin araşdırılmasının önəmini vurğulayıb, bu sahədə elmi əsaslar yaradan alimlərə və mütəxəssislərə uğurlar arzulayıb. AMEA prezidenti akademik İsa Həbibbəyli rəhbərlik etdiyi qurumun Qərbi Azərbaycanın tarixinin və folklorunun araşdırılmasında geniş fəaliyyətindən danışıb.

Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Qərbi Azərbaycan İcmasının Amasiya rayonu üzrə icmanın sədri Abel Məhərrəmov Naxçıvanın Qərbi Azərbaycana Qayıdışa hərtərəfli dəstəyini qeyd edib, bu yöndə birgə fəaliyyətdən söz açıb. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Qərbi Azərbaycanın tarixi-mədəni irsinin araşdırılmasına həsr olunmuş fundamental tədqiqatlardan danışıb, NDU-da bu sahədə görülən işlər barədə məlumat verib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Keşkənd rayon icmasının sədri, professor Mahirə Hüseynova Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsi ilə bağlı Azərbaycan alimlərinin araşdırmaları barədə ətraflı danışıb, bu cinayəti kəskin ittiham edib. Iğdır Universiteti ədəbiyyatının dosenti Oğuz Şimşək Qərbi Azərbaycanın tarixi haqqında ölkəsinin elmi-siyasi baxışını təqdim edib, erməni vəhşiliklərindən söz açıb. AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, professor Cəbi Bəhramov bu tarixi bölgənin qədim türk yurdu olmasının sübutlarına nəzər salıb.

Konfransda Qərbi Azərbaycanın bələli tarixi, Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış Qayıdış Konsepsiyasının gerçəkləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələr diqqət mərkəzində olub.

Məclisdə "Biz qayıdacağıq" sənədli filminə baxış keçirilib.

***T.RÜSTƏMLİ***
***XQ***

**Xuntaçıların məhkəməsi**

# Qarabağın quldur dəstələri Ermənistan ordusunun tərkib hissəsi olub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma kimi cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 13-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiəçiləri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər. Məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyana Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov tərəfindən növbəti suallar verilib.

L.Mnatsakanyan 2015-2018-ci illərdə qondarma rejimin "ordu komandanı", 2018-2019-cu illərdə "fövqəladə hallar xidmətinin rəisi", 2019-cu ilin iyununda 2020-ci il iyunun əvvəlinədək "polis rəisi" işlədiyini, sonra təqaüdə çıxdığını bildirib və əlavə edib: "Vəzifədən" azad olunduqdan sonra mən heç bir ictimai və rəsmi yerdə işləməmişəm, polis təqaüdçüsü olmuşam". O, "vəzifədən azad olunması"nı Ermənistanın Yerqirabad Könüllülər Birliyinin sədri Sasun Mikayelyanın dediklərinə cavab verməsi ilə əsaslandırıb.

L.Mnatsakanyan "Hansı vəzifəli şəxsin əmri ilə azad olundunuz?" sualına "baş nazirin iştirakı ilə Ermənistan prezidentinin" cavabını verib. Əlavə edib ki, həmin vaxt Ermənistanda baş nazir vəzifəsini Nikol Paşinyan, prezident vəzifəsini isə Armen Sarkisyan tutub.

Təqsirləndirilən şəxs dövlət ittihamını müdafiə edən prokurorun suallarını cavablandırarkən 2020-ci ildə 44 günlük müharibə zamanı qondarma qurumun "prezidenti" Arayik Harutyunyanın istəyi ilə bir neçə istiqamətdə olduğunu bildirib. Belə ki, A.Harutyunyan müharibə zamanı ona ayrı-ayrı vaxtlarda iki dəfə müraciət edərək təhlükəsizlik, mülki müdafiə işləri ilə əlaqədar yerli "hakimiyyət orqanları"na kömək etməsini və artilleriyanın vəziyyətini yoxlamasını istəyib. L.Mnatsakanyan da öz növbəsində qeyd olunanlarla bağlı Hadrut, Suqovuşan və digər istiqamətlərdə olub.

Bundan sonra məhkəmədə L.Mnatsakanyanın da iştirak etdiyi və 44 günlük müharibə dövründə Şuşakənd orta məktəbində hərbçilərin keçirdikləri müşavirənin videoyazısı nümayiş olunub.

Müşavirədə çıxış edən qondarma rejimin 1994-2000-ci illərdə "ordu komandanı" olmuş Samvel Babayan (qondarma rejimin keçmiş "müdafiə naziri", keçmiş "təhlükəsizlik şurasının katibi" – red.) hərbçilərə tapşırıq verərək, rəqibi Şuşada mühasirəyə almaq üçün hazırlanan hücum əməliyyatının planını izah edir. O, xəritədə konkret yerləri göstərərək orada minalanmış sahənin olduğunu deyir. Bildirir ki,





həmin sahəni keçməyin. Samvel Babayan üzünü hərbçilərə tutaraq bildirir ki, Qarabağın taleyi sizin sabahkı fəaliyyətinizdən asılıdır. Kim hansı tapşırığı alırsa, onu da icra etməlidir. Əməliyyat formal deyil və əgər baş tutmasa, Qarabağla vidalaşıb İrəvana getməliyik. Getmək üçün də Azərbaycanın icazə verib-verməyəcəyi bəlli deyil.

Samvel Babayan qeyd edir ki, sürət əsas tapşırıqdır və tez bir zamanda lazım olan mövqelər tutulmalıdır. O, səhər saat 6-da hadisə yerində olmağı, 7-də isə artilleriyanın işə düşəcəyini, hücuma keçəcəklərini söyləyir.

Məhkəmədə Levon Mnatsakanyan həmin müşavirədə iştirakını təsdiqləyərək deyib ki, kadrlar 2020-ci il noyabrın 5-də çəkilib. Müşavirəni Samvel Babayan keçirib. Cavabdeh şəxs də S.Babayan olub. Müşavirədə 3 taborun "komandiri" iştirak edib. L.Mnatsakanyan həmin yerə bir gün əvvəl getdiyini bildirib. Əlavə edib ki, məqsəd 3 taborun gücü ilə hücum edib Çanaqçı, Daşaltı, Şuşa istiqamətlərində yolu bağlamaq olub. Yəni, qüvvələr bölünməli, rəqib bütün təminat növlərindən məhrum edilməli idi. Müşavirə rəhbərinin fikrincə, uğurlu əməliyyat nəticəsində Şuşanı gələcəkdə müdafiə etmək daha asan olacaqdı. Əməliyyat səhər saat 6-da başlamalı idi. Amma rəhbər heyət getdikdən sonra orada qalan komandirlər plandan narazılıqlarını bildirərək, bunun üçün hazır olmadıqlarını və hazırlaşmaq üçün vaxt verilmədiyini bildiriblər.

L.Mnatsakanyan deyib ki, əməliyyat baş tutmayıb. O, müşavirənin iştirakçılarından birinin həmin vaxt ordu tərəfindən Şuşa istiqamətində "məsul şəxs" təyin edilən Artur Harutyunyan olduğunu qeyd edib.

Dövlət ittihamını müdafiə edən prokuror təqsirləndirilən şəxsin əvvəlki ifadələrinə istinad edərək onun "İsgəndər M", "Smerç", "Elbrus" və "Toçka U" raketlərinin qondarma rejimin "ordusu"nun arsenalında olmaması barədə fikirlərini xatırladıb. Ardınca həmin raketlərin Azərbaycanın yaşayış məntəqələrinə, mülki infrastruktur obyektlərinə atılması barədə əmrin kim tərəfindən verildiyini soruşub.

L.Mnatsakanyan sualı belə cavablandırıb: "Bu silahlar Ermənistan Respublikasının silahlı qüvvələrində Raket qoşunlarının artilleriya idarəsindədir və onlar idarə edirlər. İndi orada hansı qaydalar var, onu artıq bilmirəm. Ermənistan Respublikasının qanuna görə, Ermənistan Respublikasının Təhlükəsizlik Şurası tərəfindən sənədlər paketi təsdiqlənir". O, qondarma rejimin silah idxalına dair heç bir dövlətlə müqavilə bağlamadığını da vurğulayaraq deyib: "Mən "ordu komandanı" olduğum dövrlə (2015-2018-ci illərdə - red.) bağlı cavab verim. Heç bir ölkə ilə müqavilə bağlanılmayıb, heç bir silah-sursat idxal edilməyib. Silahları yalnız Ermənistan silahlı qüvvələrindən onların tərkib hissəsi kimi almışıq".

Baş Prokurorluğun dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran təqsirləndirilən şəxs Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində döyüşmək üçün Rusiyadan, Livandan, Amerikadan, Fransadan, Suriyadan, Kanadadan, Avstraliyadan, İspaniyadan, Avropanın müxtəlif ölkələrindən ermənəsilli şəxslərin gəldiyini bildirib. O, digər suallara cavab verərkən Aprel döyüşləri zamanı silahlı birləşmələrin ehtiyatda olan dəstələrinin Ağdam və Xaçınçay istiqamətlərinə yerləşdirilməsi ilə bağlı əmrin özü tərəfindən verildiyini deyib.

L.Mnatsakanyan Aprel döyüşləri zamanı şimal və cənub istiqamətlərində artilleriya üzrə cavabdeh olmuş şəxslərin adlarını da açıqlayıb: "Briqada komandiri Qriqori Sahakyan, artilleriya rəisi Gena Baqdasaryan idi". O, prokurorun suallarını cavablandırarkən 2016-cı ildə Aprel döyüşlərindən bir qədər sonra Ermənistan Respublikasının prezidenti Serj Sarkisyanın Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərinə səfər etdiyini təsdiqləyib və deyib: "Ermənistan Respublikasının prezidenti hər il Qarabağa səfər edirdi və səfər çərçivəsində hərbi hissələrə də gəlirdi. Bu, 2016-cı ildə istisna təşkil etməyib. Yəni, həmin ildə də gəlib, hərbi hissəyə səfər edib".

L.Mnatsakanyan qondarma rejimin "ordu komandanı" olduğu dövrdə bu səfərlərdə Ermənistan prezidentini müşayiət etdiyini də bildirib. Təqsirləndirilən şəxs Aprel döyüşlərində iştirak edən hərbçilərin bir qisminin təltif olunduğuna da diqqətə çatdırıb. L.Mnatsakanyan minalar basdırılandan sonra tərtib olunan xəritələrə bağlı sualı da cavablandırıb. O deyib: "Minalanmış sahələrin xəritələri "yuxarı"ya - Ermənistan silahlı qüvvələrinin Mühəndis qoşunları idarəsinə gedirdi. Amma formulyarları dəqiq bilmirəm".

Ardınca təqsirləndirilən şəxs müdafiəçilərin suallarını cavablandırıb.

Məhkəmə iclasında dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs David Manukyana suallar verib. Lakin D.Manukyan sualların əksəriyyətini cavablandırmaqdan yayınıb. Təqsirləndirilən şəxs azərbaycanlı əhalinin evlərindən didərgin salınmasında iştirak etmədiyini iddia edib. O, mina basdırılması barədə sualı cavablandırarkən "Biz onları basdırmışdıq ki, öz xətti keçə bilməsinlər" deyib.

Məhkəmə prosesi iyunun 19-da davam etdiriləcək.

***XQ***

Mərkəzi Dövlət Arxivi – 105

# Mötəbər tarixi həqiqətlər məbədi




**(əvvəli ötən saylarımızda)**

1930-cu illərin axırı və 1940-cı illərin əvvəlində beynəlxalq aləmdə yaranan siyası gərginlik və II Dünya müharibəsinin başlanması ilə əlaqədar İttifaq dövləti bir sıra sahələrdə olduğu kimi, dövlət arxiv fondu sənədlərinin mühafizəsinin təşkili, arxiv fondlarının təhlükəsiz yerlərə köçürülməsi, arxivlərin müharibə dövrü sənədləri ilə komplektləşdirilməsi, müharibə zamanı əldə edilmiş sənədlərin arxiv fondlarına daxil edilməsi və digər məsələləri əhatə edən xüsusi qərarlar qəbul etdi.

Azərbaycan SSR-nin Nazirlər Soveti yaranmış vəziyyəti nəzərə alaraq 17 iyul 1940-cı ildə "AzSSR-də arxiv işinin vəziyyəti haqqında" xüsusi qərar qəbul edir. Həmin qərarda iki ay müddətində arxiv kadrlarının tərkibinə baxılması, onların siyasi cəhətdən hazırlıqlı şəxslərlə əvəz olunması, İcraiyyə Komitələrində dövri olaraq arxiv rəhbərlərinin hesabatlarının dinlənilməsi, tarixi-siyasi əhəmiyyət kəsb edən arxiv materialları əsasında fabrik və zavodlarda, tədris müəssisələrində kütləvi təbliğat-təşviqat işlərinin aparılması, tarixi-siyası əhəmiyyət kəsb edən sənədlərin mətbuatda işıqlandırılması, sərgilərin təşkili və sair məsələlər əhatə olunurdu.

"Dövlət arxivlərinin hərbi dövrdə mühafizəsi haqqında" SSRİ daxili işlər nazirinin əmrinə uyğun olaraq 1941-ci ildə ölkəmizdə də Azərbaycan arxivlərinin zərurət yarandığı halda təhlükəsiz əraziyə təxliyəsi barədə plan hazırlandı. Plana əsasən arxiv sənədlərinin məhv olması təhlükəsi yarandığı halda Azərbaycan arxivlərində mühafizə olunan sənədlərin bir hissəsinin Qazaxıstanın Qızıl Orda vilayətinə, digər hissəsinin Bakı ətrafı rayonlara köcürülməsi qərara alınır. Həmçinin Azərbaycan arxivləri Sovet İttifaqının müxtəlif şəhər və vilayətlərindən (Rostov, Stavropol, Krasnodar və s.) məhv olmaq təhlükəsi ilə bağlı ölkəmizə köçürülmüş minlərlə arxiv materiallarının müvəqqəti mühafizəsini təmin edir.

Müharibə başa çatdıqdan sonra iqtisadi və mədəni həyatın ayrı-ayrı sahələrində olduğu kimi, respublikamızda arxiv işinin inkişafına, arxiv sənədllərinin mühafizəsi, elmi-məlumat vasitələrinin yaradılması və sənədlərin bərpası işinin təşkilinə xüsusi önəm verildi. Arxiv sənədlıərinin mühafizəsi şəraitinin yaxşılaşdırılmasına yönəlmiş qərarlar qəbul olundu. "Nazirlik və idarələrdə arxiv materiallarının saxlanılması rejiminin qaydaya salınması və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" AzSSR Nazirlər Sovetinin 11 iyul 1956-ci il tarixli 332 №-li qərarın bu sahədə xüsusi əhəmiyyəti oldu.

Qərarda arxiv materiallarından elmi və iqtisadi məqsədlər üçün istifadəsi işinin genişləndirlməsi, əsasız olaraq məxfiləşdirilmiş inqilabaqədərki və sovet dövrü sənədlərinin məxfiliyinin açılması məsələsinə baxılması, tarixi əhəmiyyətli arxiv materialları əsasında sənəd məcmuələrinin, göstəricilərin hazırlanması, Moskva, Leninqrad, Tbilisi arxivlərində saxlanılan Azərbaycanla bağlı arxiv materialları aşkar edilərək surətlərinin fondlaşdırılması üçün elmi təşkilatların, arxivlərin işə cəlb edilməsi, habelə arxiv sənədlərinin bərpası, mikrofilmləşdirilməsi məqsədilə Dövlət Arxivi tərkibində bərpa və mikrofilmləşdirmə mərkəzinin, fotolaboratoriyanın yaradılması istiqamətində tədbirlərin görülməsi barədə aidiyyəti dövlət orqanlarına xüsusi tapşırıqlar verildi.

Mərkəzi Arxiv İdarəsi Nazirlər Sovetinin müvafiq qərarından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə nazirlik və idarələrdə arxiv işinin təşkilinə yoxlama baxışlar keçirməklə nəzarəti artırdı, Arxiv İdarəsinin tərkibində Sənədlərin bərpası və mikrofilmləşdirmə laboratoriyası yaradıldı, nazirlik və idarələrdə məxfi qriflə mühafizə edilən 50 mindən artıq saxlama vahidinin məxfilik qrifi açılmaqla dövlət arxivinə qəbulu təmin edildi. Dövlət Tarix Arxivi mühafizədə olan arxiv fondlarının göstəricisini və tarixi əhəmiyyətli mövzular üzrə elmi nəşrləri çapa hazırlandı.

Mərkəzi Arxiv İdarənin adıçəkilən qərarın icra vəziyyəti ilə bağlı hazırladığı və DİN-ə təqdim etdiyi arayışdan aydın olur ki, bir sıra nazirliklərdə və idarələrdə qərarın icrasına lazımi diqqət verilməmiş, bəzi hallarda hətta Arxiv İdarəsinin razılığı olmadan arxiv sənədləri məhv edilmişdir. Eyni zamanda Dövlət Arxivlərinə bina tikintisi məsələsi həll edilmədən qalmış, rayon dövlət arxivlərinin bina ilə təminatında ciddi problemlər qalmaqda davam etmişdir. AzSSR daxili işlər naziri adıçəkilən qərarın icra vəziyyəti ilə bağlı Arxiv İdarəsindən daxil olan arayışı və təklifləri müzakirə üçün 23 may 1957-ci il tarixli 26/1-563 nömrəli məktubla hökümətə təqdim edır.

AzSSR Nazirlər Soveti məsələni müzakirə edərək DİN-nin təqdim etdiyi təklifləri baxılmaq üçün Dövlət Plan Komitəsinə göndərir. Komitə layihə ilə bağlı rəyi hazırlayaraq Nazirlər Sovetinə təqdim edir. Azərbaycan SSR Nazirlər Soveti daxil olan materialları araşdıraraq ölkədə arxiv işinin vəziyyətini bir daha dəyərləndirir və daha əvvəl verilmiş qərarda nəzərdə tutulan tədbirlərin icrasında yaranan problemlərin aradan qaldırılması və bu sahədə görülən işlərin sürətləndirilməsi məqsədilə 11 iyul 1957-ci ildə "Nazirlik və idarələrdə arxiv materiallarının saxlanılması rejiminin qaydaya salınması və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" AzSSR Nazirlər Sovetinin 11 iyul 1956-ci il tarixli 332№-li qərarın yerinə yetirilməsinin gedişi barədə" daha bir qərar qəbul edir.

Nazirlər Soveti bu qərarla nazirliklərə və idarələrə sənədlərinin dövlət arxivinə vaxtında təhvil verilməsi, onların mühafizəsi şəraitinin yaxşılaşdırılması, icrayyə komitələrinə rayon dövlət arxivləri üçün binaların ayrılması, prokrorluq orqanlarına arxiv sənədlərinin qanunsuz məhv edənlərin qarşısının alınması üçün əməli tədbirlərin görülməsi barədə xüsusi tapşırıqlar verir.

Azərbaycan hökuməti arxiv işinin dövlət quruculuğunda əhəmiyyətli sahə olduğunu nəzərə alaraq, ölkədə arxiv işinin və arxivlərin vəziyyətini daimi nəzarətdə saxlayır, görülmüş işlərlə bağlı müzakirələr təşkil edir, hesabatları dinləyir və mütəmadi olaraq bu sahədəki vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş qərarlar qəbul edildi. Nazirlər Sovetinin "Azərbaycan SSR-də arxiv işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" 11 noyabr 1958-ci il tarixli 861 nömrəli qərarı dövlət arxivlərinin və arxiv işi sahəsindəki fəaliyyətin tənzimlənməsinə yönələn daha bir adım kimi dəyərlənirmək olar.

Qərarda bütün nazirliklərə, təşkilatlara, XDS İcrayə komitələrinə tabeliyində olan idarə arxivlərində saxalanılan sənədlərin qaydaya salınmasının təmin edilməsi, arxivlərin bina, avadanlıq və kadr təminatının yaxşılaşdırılması, arxiv arayışlarının verilməsinə nəzarətin artırılması, həmçinin prokrorluq orqanlarına saxta arxiv arayışının verilməsində günahkar olanların məsuliyyətə cəlb edilməsi, DİN-ə arxivlərə metodiki nəzarətin artırılması tapşırılır, habelə Bakı və Gəncə (Kirovabad) icraiyyə komitələrinin birləşmiş arxivlərinin 1959-cu ildən tərkibi daimi sənəd materiallarından ibarət dövlət arxivlərinə çevrilməsinin təşkil edilməsi və 1959-cu il üçün Arxiv İdarəsinin elmi işçilərinin sayının 11 ştat vahidi artırılması Maliyyə Nazirliyinə tapşırılır.

XX əsrin 50-ci illərində arxiv işinin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı İttifaq və ya respublika səviyyəsində qəbul edilmiş qərarlar, xüsusi ilə 13 avqust 1958-ci ildə təsdiq edilmiş "SSRİ-nin Dövlət arxiv fondu və dövlət arxivləri şəbəkəsi haqqında" Əsasnamə dövlət arxivlərinin və dövlət arxiv fondunun formalaşdırılmasının əsas prinsiplərini müəyyənləşdirdi. Əsasnamədə dövlət arxiv fondu anlayışının izahı verilir, onun arxiv fondu sənədlərinin mərkəzləşmiş şəkildə hesaba almaq, saxlamaq və əməli cəhətdən istifadə etmək məqsədilə təşkil olunduğu qeyd edilir, həmçinin arxiv fondunun idarə, müəssisə, təşkilat və fiziki şəxslərin fəaliyyəti nəticəsində yaranan elmi, tarixi və əməli əhəmiyyətə malik sənədlərin məcmusu olduğu, sənədli materialların mühafizəsi və uçotu məqsədilə təşkil edildiyi və bölünmədən tam şəkildə bir arxivdə saxlanıldığı bildirilirdi.

1960-cı ildə keçmiş İttifaq respublikalarında daxili işlər orqanlarının fəaliyyətinin yenidən təşkili ilə əlaqədar dövlət arxivlərinin DİN tabeliyindən Nazirlər Sovetinin tabeliyinə verilməsi qərara alınır. Bununla arxivlərin fəaliyyətində yeni bir mərhələnin əsası qoyulur. 28 iyul 1961-ci ildə "Dövlət arxiv fondu və dövlət arxivlərinin şəbəkəsi haqqında" Əsasnamə, 1962-ci ildə isə "Dövlət arxivlərinin əsas iş qaydaları" təsdiq edilir. Bu Qaydalarda arxiv işinin elmi əsaslarla təşkili metodları və prinsipləri müəyyən edilir. Arxiv İdarəsində Elmi Şuranın yaradılması, respublikamızın arxiv təşkilatlarının fəaliyyətində yaranan elmi-metodiki məsələlərə baxılması və həlli məqsədilə Metodiki Komissiyanın təşkili qərara alınır. Arxivin elmi-məlumat kitabxanası qiraət zalı ilə birləşdirilir, sənədlərin daimi mühafizə üçün seçilməsi və saxlanılmalı olmayan sənədlərin məhv edilməsi məsələlərinə baxılması məqsədilə dövlət arxivlərində Ekspert-yoxlama komissiyaları (EYK) təşkil edilir.

Dövlət idarəetmə sistemindəki yeniliklərə uyğun olaraq arxiv işinin idarəedilməsi və fəaliyyətinin tənzimlənməsi məqsədilə AzSSR Nazirlər Soveti 15 sentyabr 1961-ci ildə 790 nömrəli qərarla "AzSSR Nazirlər Soveti yanında Arxiv İdarəsi haqqında Əsasnamə"ni və 1963-cü il 6 iyul tarixli 487 nömrəli qərarla "AzSSR rayon (şəhər) dövlət arxivi və onların filiallarına dair Əsasnamə"ni təsdiq edir. Bununla da arxiv işi ilə bağlı 1938 -1960-cı illərdə qəbul edilmiş 35-ə yaxın normativ hüquqi akt qüvvədən düşmüş hesab olunur.

Arxiv işinə və arxiv sənədlərindən elmi-tədqiqat məqsədilə istifadə olunmasına diqqət artırılır, dövlət arxivləri şəbəkəsinin yenidən qurulması və genişləndirilməsi işinə start verilir. Bu sahədə görülən işlərin yaxşılaşdırılması, respublikamızın arxiv təşkilatlarının fəaliyyətində nəzərə çarpan çatışmamazlıqların aradan qaldırılması, yerlı icrayə komitələri tərəfindən arxiv işinin təşkilinə diqqətin artırılması, arxivlərin müvafiq tələblərə uyğun binalarla təmin edilməsi, arxivçi kadrların peşə hazırlığının yüksəldilməsi sahəsində irəliləyişin təmin edilməsi məqsədilə AzSSR Nazirlər Soveti 6 sentyabr 1963-cü ildə "AzSSR-də arxiv işinin yaxşılaşdırılması tədbirləri haqqında" qərar qəbul edir.

On bir bəndən ibarət qərarda dövlət orqanlarının qarşısına ölkədə arxiv işinin inkişafına təsir edəcək mühüm vəzifələr qoyulur. Qərarda nazirliklərə, icraiyyə komitələrə, idarə və təşkilatlara onlarda saxlanılan arxiv materiallarının 1963-1965-ci illər ərzində tam olaraq qaydaya salınması işlərinin yekunlaşdırılması, idarə arxivlərinin ixtisaslı kadrlarla, ştatlarla təmin edilməsi, Bakı kitabxanaçılıq texnikumunun nəzdində 1964-65-ci tədris illərində orta səviyyəli arxivçi kadrların hazırlanması üçün kursların təşkil edilməsi məsələsinə baxılması, Arxiv İdarəsi tərəfindən idarə arxivlərinə elmi-metodiki köməkliyin artırılması, Arxiv İdarəsinin strukturunda təşkilat-metodika şöbəsinin yaradılması, dövlət arxivi üçün binanın tikintisi işlərinin sürətləndirilməsi, Naxçıvan və Qarabağda (keçmiş DQMV-də) arxiv binalarının tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanması, arxiv işçiləri üçün yaşayış binasının tikintisi, arxiv və kargüzarlıq işinin avtomatlaşdırılması üçün avadanlaıqların alınması və sənədlərin indeksləşdirilməsi və təsnifatı üzrə Vahid Dövlət Kargüzarlıq Sisteminin tətbiqi kimi mühüm məsələlər əks olunurdu.

Ölkədə arxiv işinin yaxşılaşdırılması məqsədilə ayrı-ayrı nazirliklərə, dövlət strukturlarına icrası vacib tapşırıqlar verilməsinə baxmayaraq, qərarın icrasını təmin etməli olan bəzi nazirliklər və təşkilatlar öz vəzifələrinin icrasına səthi yanaşır, nəticədə qərarda göstərilən bir sıra məsələlər həll edilmədən qalır, arxiv təşkilatlarının fəaliyyətinin və arxiv işinin təşkilində yaranan çətinliklərin aradan qaldırılması təmin edilmirdi.

Azərbaycan SSR Nazirlər Soveti respublikamızda dövlət arxiv fondu sənədlərinin komplektləşdirilməsi, qaydaya salınması, mühafizəsi və istifadəsi sahəsində arxiv təşkilatlarının işinin yaxşılaşdırılması, görkəmli elm və incəsənət xadimlərinin şəxsi sənəd irsinin toplanılması, dövlət arxiv təşkilatları səbəkəsinin təkmilləşdirilməsi, dövlət arxivlərinin elmi-tədqiqt müəssisələri ilə kordinasiyalı fəaliyyətinin təşkili, kinofoto sənədlərin sığorta fondunun yaradılmasının zəruriliyi, idarə arxivlərinin qeyri-qənaətbəxşt vəziyyəti və digər məsələləri müzakirə edərək bu sahənin daha sürətli inkişafını təmin etmək məqsədilə 17 iyul 1965-ci ildə daha bir qərar qəbul edir.

"AzSSR-də arxiv işinin gələcəkdə daha da yaxşılaşdırılması barədə" AzSSR Nazirlər Sovetinin qərarının ölkəmizdə arxiv işinin inkişafında, onun təşkilati strukturunun təkmilləşdirilməsində və dövlət arxivləri şəbəkəsinin genişləndirilməsində müstəsna əhəmiyyəti oldu. Eyni zamanda bu qərarla Azərbaycan SSR Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivi yaradıldı və 1966-cı ilin yanvarından fəaliyyətə başladı. Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin vəzifə və funksiyalarına görkəmli mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin, yaradıcı təşkilatların, teatr, muzey, nəşriyyat, qəzet və jurnal redaksiyalarının sənədlərinin aşkar edilməsi, arxivə komplektləşdirilməsi, qaydaya salınması, mühafizəsi və istifadəsi işinin təşkili daxil edilir.

1966-cı ildən fəaliyyətə başlayan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində hazırda Azərbaycan ədəbiyyatının, incəsənətinin və bütövlükdə mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan görkəmli şəxslərin şəxsi fondları və müvafiq profilli yüzlərlə müəssisənin idarəşilik sənədləri mühafizə edilir və elmi-tədqiqat, mədəni-maarifçilik məqsədləri üçün həmin sənədlərdən geniş istifadə olunur. Eyni zamanda Azərbaycan SSR Nazirlər Sovetinin yuxarıda adıçəkilən qərarı ilə respublikmızın dövlət arxivlərinin şəbəkəsini təsdiq edilir, Arxiv İdarəsinin nəzdində İdarə sənədlərini qaydaya salan təsərrüfathesablı qurup yaradılır, dövlət və idarə axivlərinə, elmi-tədqiqat müəssisələrinə, kitabxana və muzeylərə dövlət, ictimai, mədəniyyət və incəsənət xadimlərinin sənədlərinin qəbulu ilə bağlı məsələlərin koordinasiyası məqsədilə Arxiv İdarəsin

Aidiyyəti dovlət orqanlarına Naxçıvanda, Xankəndidə, Gəncə (Kirovabad), Şəki (Nuxa), Yevlax rayonlarında arxiv binalarının tikintisinin 1966-ci ilin planına daxil edilməsi, dövlət arxiv işçiləri üçün yaşayış binasının tikintisi işinin sürətləndirilməsi, Arxiv İdarəsinin sifarişi ilə qiymətli kinosənədlərin neqativ və pozitivlərinin sığorta fondunun yaradılması, Dövlət Elm və Texnika Sənədləri Arxivinin yaradılması ilə bağlı təkliflərin hazırlanması barədə tapşırıqlar verilir. Qərarda müəyyən olunmuş tapşırıqların icrası ölkəmizdə arxiv quruculuğunun yeni mərhələyə keçidini sürətləndirir və bu sahənin inkişafına təkan verir.

Ölkədə arxiv quruculuğunda baş verən yeniliklər, həmdə onun təşkilati strukturunun və şəbəkəsinin yenidən qurulması ilə nəticələnən instisional dəyişikliklərin həyata keçirilməsini zəruri edirdi. Bu zərurəti nəzərə alan AzSSR Nazirlər Soveti 5 sentyabr 1967-ci ildə "AzSSR-nin arxiv təşkilatlarının işinin və təşkilatı strukturunun təkmilləşdirilməsi haqqında" növbəti qərar qəbul edir. Qərar respublikamızda arxiv sənədlərinin mühafizəsi şəraitinin yaxşılaşdırılmsı, onlardan elmi-tədqiqat məqsədi ilə istifadəsi işinin səmərəli təşkili, Arxiv İdarəsinin və dövlət arxivlərinin strukturunun və şəbəkəsinin təkmilləşdirilməsi kimi aktural məsələləri həll edir.

Adıçəkilən qərarla respublikamızın rayon (şəhər) dövlət arxivlərinin bazasında Oktyabr İnqilabı və Sosializm quruculuğu Mərkəzi Dövlət Arxivinin 15 filialı yaradılır, digər rayon dövlət arxivlərinin dəyişən tərkibli sənəd materiallarının mühafizə olunduğu arxivlər kimi fəaliyyəti təşkil edilir. Naxçıvan MSSR Nazirlər Soveti yanında və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti İcrayyə Komitəsinin nəzdində Arxiv İdarələri təşkil olunur. Həmçinin respublika və yerli əhəmiyyətli idarə, müəssisə və təşkilatların sənədlərinin qaydaya salınması və dövlət mühafizəsinə təhvil vermək üçün hazırlanması işinin səmərəli təşkili məqsədi ilə dövlət arxivlərinin tərkibində təsərrüfat hesablı qrupların yaradılması barədə Mərkəzi Arxiv İdarəsinin təklifi qəbul edilir.

Dövlət Plan Komitəsinə Azərbaycan Dövlət Univeristetinin (indiki BDU) tarix fakultəsində arxivşünaslıq, orta ixtisas təhsili müəsssilərin birində isə arxivçi ixtisaslarının təşkili məsələsinə baxılması, həmçinin Dövlət arxivinin yeni binasının yanğın təhlükəzliyinin təmin edilməsi məqsədilə həmin ərazidə yerləşən yanacaq doldurma məntəqəsinin digər yerə köşürülməsi kimi vacib məsələlər qərarda öz əksini tapır. Qəbul edilmiş qərar vətənimizin mədəni sərvəti olan arxiv fondu sənədlərinin dövlət mühafizəsi, komplektləşdirilməsi və istifadəsi işinin daha səmərəli təşkilini təmin etməklə, həm də arxiv təşkilatları şəbəkəsinin genişlənməsini və çevik idarəetmə sisteminin formalaşdırılmasını təmin edir.

Həmin illərdə arxiv təşkilatları qarşısında duran vacib məsələlərdən biri də respublikamızın kolxoz və sovxozların fəaliyyətində yaranan sənədlərin arxivləşdirilməsi və mühafizəsinin təşkili



məsələsi idi. AzSSR Nazirlər Soveti bu sahədə mövcud olan boşluqların aradan qaldırılması məqsədilə 19 avqust 1967-ci ildə "AzSSR-nin kolxoz və sovxozlarında arxiv materiallarının mühafizəsinin yaxşılaşdırılması tədbirləri haqqında" qərar qəbul edir.

Bu qərar ölkəmizin kolxoz və sovxozlarında arxiv işinin təşkilində əsaslı dönüşə səbəb olur. Qərarda aidiyyəti kənd təssərüfatı qurumlarına bütün kolxoz və sovxozlarda arxivarus ştat vahidinin yaradılması, Arxiv İdarəsinə arxivçilərin peşə hazırlığının təmin edilməsi üçün kursların təşkili, onlara elmi-metodiki köməklik göstərilməsi, kolxoz və sovxozlarda arxiv işinin aparılmasına dair təlimatın hazırlanması tapşırılır.

Qərar ölkəmizin kənd təssərüfatı müəssisələrində yaranan qiymətli arxiv fondu sənədlərinin məhv edilməsinin qarşısının alınmasında, onların qaydaya salınması və mühafizəsinin təşkilində, xüsusilə arxiv sənədlərindən istifadə olunmaqla təqaüdə çıxan kolxozçuların və qulluqcuların sosial hüquqlarının müdafiəsinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır. Eyni zamanda ölkəmizin kənd təsərrüfatı müəssisələrində yaranan sənədlərin elmi-tarixi və əməli əhəiyyətə malik hissəsinin dövlət arxiv fondunda cəmləşdirilməsinə müsbət təsir göstərir.

**(ardı var)**

***Əsgər RƏSULOV,***
***Milli Arxiv İdarəsinin rəisi,***
***Həsən HƏSƏNOV,***
***rəis müavini***

İzimiz, tariximiz...

# Mərmər nağılda əbədiləşən məhəbbət

## *Səfəvi şahzadəsinin şərəfinə tikilən Tac Mahal*

**(IV YAZI)**

Səfəvi şahzadəsi Ərcümənd Banu bəyimin (Böyük Moğol imperatoru Şahcahana ərə getdikdən sonra Mümtaz Mahal) şərəfinə tikilən, əbədi məhəbbət və evlilik sədaqətinin təcəssümü kimi qəbul edilən möhtəşəm Tac Mahal haqqında məşhur ingilis şairi Edvin Arnold belə deyib: "Tac Mahal digər binalar kimi memarlıq əsəri deyil, canlı daşlarda təcəssüm olunmuş imperator sevgisinin məğrur etirafı"dır.

Bu da məlumdur ki, Tac Mahalın inşası üçün memarlar və ustalardan ibarət böyük bir komanda yaradılıb, induslarla yanaşı, Osmanlı İmperiyasından, Səfəvilər dövlətindən, Suriyadan ustalar və sənətkarlar, Bağdaddan xəttatlar, Buxaradan mozaika ustaları, İstanbuldan memarlar və günbəz ustaları, Səmərqənddən minarə ustaları, Qəndəhardan daş ustaları, Şirazdan rəssamlar gətirilib. Abidə ümumilikdə 1,2 hektar ərazidə yerləşir. Tac Mahal haqqında daha ətraflı yazının sonunda...

**

Böyük Moğol İmperiyasının imperatoru Cahangir Şahın vəziri, Səfəvilər sülaləsindən olan Əbülhəsən Asəf xanın qızı Ərcümənd Banu bəyim ("Saraydan uca") 1593-cü il aprelin 27-də Aqrada anadan olub. O, elmi biliklərlə maraqlanan, istedadlı və mədəni bir yeniyetmə idi, ərəb və fars dillərini öyrənmişdi və bu dillərdə şeir yazırdı. O, təvazökarlıqla səmimiyyəti özündə birləşdirən, istiqanlı, hadisələrə soyuqqanlı münasibət bəsləyən bir qız kimi şöhrət qazanmışdı.

Əbülhəsən Asəf xan zamanında Səfəvilər Dövlətindən Hindistana gəlib hörmət-izzət sahibi olmuşdu. Sultan Şahcahanın atası Sultan Cahangirin həyat yoldaşı, imperatriça Nur Cahan Əbülhəsən Asəf xanın bacısı idi.

### Şüşə muncuq brilyant deyil

Bir rəvayətdə deyilir ki, Şahzadə Xürrəm (Şahcahan) və Ərcümənd Banu bəyim (Mümtaz Mahal) təsadüfən tanış olublar. Baxmayaraq ki, həyatımızda təsadüflər elə-belə baş vermir.

Taxt-tacın gənc varisi Şahzadə Xürrəm bir gün bazarda gəzərkən muncuq satan gənc qız görür.

Moğol taxt-tacının gələcək varisi qızın gözəlliyinə heyran olur, ona yaxınlaşıb muncuqların qiymətini soruşur, Ərcümənd zarafatla cavab verir: 10 min rupi.

Ərcümənd Banu bəyim, əlbəttə ki, Şahzadə Xürrəmin onun sözlərini ciddi qəbul edəcəyini gözləmirdi. Şahzadə Xürrəm tərəddüd etmədən dərhal pulu çıxarıb qıza verir. Ərcümənd buna çox təəccüblənir və Şahzadə Xürrəmə zarafat etdiyini və muncuqların brilyant deyil, adi şüşə olduğunu söyləyir.

O zaman Ərcümənd Banu bəyim Şahcahanın timsalında özünün almazını tapdığını dərk edə bilməzdi. Gələcək imperatorla gələcək imperatriça belə tanış olurlar.

Düzdür, rəsmi mənbələrdə deyilir ki, bütün bunlar əfsanədir, çünki Ərcümənd Banu Bəyim aristokrat qızı idi və bazarda ticarət edə bilməzdi.

### Şahzadə Xürrəmin Ərcümənd Banu bəyimlə toyu

Şahzadə Xürrəmin 15, Ərcümənd Banu Bəyimin isə 14 yaşı olanda, 1607-ci il aprelin 5-də nişanlanıblar. Lakin onların toyu beş il sonra, 1612-ci il mayın 10-da Aqrada baş tutur. Bu vaxt Şahzadə Xürrəmin 20, Ərcümənd Banu Bəyimin 19 yaşı vardı. Ərcümənd Banu Bəyimə Mümtaz Mahal adını Şahcahanın atası Sultan Cahangir toy mərasimi zamanı vermişdi, bu isə "Sarayın bəzəyi" deməkdir.

Nişan və toy arasındakı 5 il ərzində Şahcahan 1610-cu ildə atası Cahangir Şahın təklifi ilə birinci arvadı Şahzadə Qəndəhari bəyimlə evlənib.

Mümtaz Mahalla evləndikdən sonra üçüncü arvadı, Moğol sarayında xidmət edən yüksək səviyyəli bir əyanın qızı İzzunnisə bəyimlə (Əkbərabadi Mahal) izdivac qurur. Saray tarixçilərinin yazdıqlarına görə, birinci və üçüncü nikah siyasi xarakter daşıyıb, Səfəvilərlə Moğollar arasında münasibətlərin yaxşılaşmasına xidmət edib.

Saray salnaməçisi Mötəmid xanın yazdığına görə, Şahcahanın digər arvadları ilə münasibətləri "nikah" statusundan artıq deyildi. Şahcahanın Mümtaz Mahala duyduğu yaxınlıq, dərin məhəbbət, diqqət və lütf digər arvadlarına yox idi. Mümtaz Mahal həm də taxt varisinin anası olduğu üçün Şahcahanın "Həzrət" deyə müraciət etdiyi yeganə xanımı idi.

Mümtaz Mahalın Şahcahanla birlikdə yaşadığı iqamətgah – Xas Mahal (Aqra qalasının bir hissəsi) qızıl və qiymətli daşlarla bəzədilib, qızılgül suyu axan fəvvarələri iqamətgaha xüsusi gözəllik verib. Moğol imperatorunun arvadlarının hər biri ev və ya səyahət xərcləri üçün müntəzəm olaraq aylıq müavinət alıb. Şahcahan Mümtaz Mahala ildə bir milyon rupi pul verib. Bu, tarixdə qeydə alınan ən böyük müavinətdir. Bu gəlirdən əlavə Şahcahan Mümtaz Mahala çoxlu yüksək gəlirli torpaq sahəsi və daşınmaz əmlak da bağışlayıb.



Şahcahan həm də dövlət işlərində Mümtaz Mahalla məsləhətləşib, imperatriça Şahın yaxın sirdaşı və ən etibarlı adamı, imperiyada böyük siyasi gücə malik şəxs statusu qazanıb. Mümtaz Mahalın sələfi və xalası Nur Cahan kimi Mümtaz da mühüm dövlət məsələləri həll olunan zaman pərdə arxasında oturar, nə iləsə razılaşmayanda əlini Şahcahanın kürəyinə qoyar, bununla da məsələyə öz münasibətini bildirərdi. Mümtaz Mahalın xahişi ilə Şah düşmənlərini bağışlayar və ya ölüm hökmlərini yüngülləşdirər və ya ləğv edərdi. Şahın Mümtaza inamı o qədər böyük idi ki, ona ölkənin ən yüksək şərəfini – fərmanları təsdiq edən imperator möhürü – Mehr Uzazı da vermişdi və Mümtazın razılığı olmadan imperator heç bir iş görə bilməzdi.

Şahcahan daim alim, şair, rəssam, miniatür sənətçiləri , həmçinin memarların yanında olub, onlara dəstəyini nümayiş etdirib. Memarlara xüsusi münasibət göstərən Şahcahan Hindistanda məscidlər, qalalar, saraylar, mədrəsələr və digər abidələr tikdirib. Şahcahanabad, indiki Nyu-Dehli şəhərini də o saldırıb.

Mümtaz Mahal da əri kimi şairləri, alimləri və başqa istedadlı insanları himayə edib. O dövrün məşhur şairi Vansidhara Mişra imperatorun sevimlisi idi. Mümtaz Mahal yoxsul alimlərin, ilahiyyatçıların və dindarların qızlarına təqaüd və ianə verib.

### Mümtaz Mahalın ölümü

Mümtaz Mahalın Şahcahanla sevgi dolu evliliyi olub. Hələ sağlığında şairlər Mümtaz Mahalın gözəlliyini, lütfünü və mərhəmətini tərənnüm ediblər. Tez-tez hamilə qalmasına baxmayaraq, ərindən ayrılmaq istəməyən Mümtaz Mahal daim onunla səyahətə çıxıb, hərbi yürüşlərdə fəal iştirak edib. Hamilə qadın üçün belə səfərlər, əlbəttə ki, sağlamlığa və həyatına ciddi ziyan vurub.

Şahcahan Dekan yaylasında müharibəyə gedərkən də Mümtaz Mahal onun yanında olub. Şahcahanın ikinci xanımı Mümtaz Mahal ona 14 uşaq bəxş edib (8 oğlan və 6 qız), o, 14-cü övladını dünyaya gətirərkən 1631-ci il iyunun 17-də 38 yaşında Bürhanpur yaxınlığında qurulan düşərgədə Şahcahanın çadırında dünyadan köçüb, yeni doğulan körpə Qauxara bəyim isə sağ qalıb. Rəvayətə görə, Mümtaz Mahal ölümündən əvvəl ərindən onun başqa qadınlardan övlad sahibi olmayacağını və onun xatirəsinə insanların heyran qalacağı bir məqbərə tikdirəcəyini xahiş edib.

Onu da demək lazımdır ki, 14 uşağın bir neçəsi hələ körpə ikən müxtəlif xəstəliklərdən dünyasını dəyişib.

Mümtaz Mahalı müvəqqəti olaraq Burhanpurda, Tapti çayının sahilində dəfn olunur. Saray salnaməçiləri Mümtaz Mahalın ölümünə və Şahcahanın kədərlənməsinə qeyri-adi dərəcədə diqqət yetiriblər.

Mümtaz Mahalın ölümündən sonra Şahcahan səkkiz gün çadırdan kənara çıxmayıb, sevdiyi həyat yoldaşını itirdiyinə çox sarsılıb. Səkkiz gün ərzində heç nə yeməyib, heç kimlə danışmayıb.

Aqraya qayıtdıqdan sonra imperiyanın ərazisində iki illik matəm elan edib, özü də yas saxlayıb, çox vaxt tənha qalıb. Bir ildən sonra xalqın qarşısına çıxanda saçları ağarmış, beli bükülmüşdü. Mümtazın böyük qızı Cahanara bəyim yavaş-yavaş atasını dərd-qəmdən uzaqlaşdırıb və tədbirlərdə anasının yerini tutub.

Mümtaz Mahalın şəxsi sərvəti 10 milyon rupi dəyərində olub. Qızı Cahanara bəyim atası Şahcahandan bu sərvətin yarısını alıb və qardaş-bacıları arasında bölüb.

1631-ci ilin dekabrında Mümtaz Mahalın nəşi müvəqqəti dəfn olunan qəbirdən çıxarılaraq qızıl tabutda Aqraya aparılıb. Şahcahan, oğlu Şah Şüca, vəzirlər, digər əyanlar, doğma və əzizlərinin müşayəti ilə Mümtaz Mahal Yamuna çayının sahilindəki kiçik bir binada dəfn edilib.



### Tac Mahalın tikilməsi

Bir müddət sonra Şahcahan imperiyanın paytaxtında arvadının şərəfinə dəfn olunduğu yerdə məscid-məqbərə tikilməsi barədə göstəriş verib.

Abidənin tikintisinə 1631-ci ildə başlanıb, 1643-cü ildə məqbərə hazır olub, həyət və ətrafındakı binaların tikintisi 1649-cu ildə, Tac Mahal kompleksinin tam inşası isə 1652-ci ildə başa çatıb.

Tac Mahalın əsas memarının kim olduğuna dair bir çox fərziyə var. Bəzi tədqiqatçılar Tac Mahalın əsas memarının Venesiya və ya Fransadan gətirildiyini iddia etsələr də tikintidə Şahcahanın ən çox sevdiyi memar Usta Əhməd Lahurinin də iştirak etdiyini bildirirlər. Tikintidə İstanbuldan gələn Memar Sinanın tələbələrindən olan Mehmet İsa əfəndi və onun dəstəsinin əsas rol oynadığı qeyd edilir. Mehmet İsa əfəndi Tac Mahalın tikintisində son dərəcə parlaq, ağ mərmərdən istifadə edib. Bu mərmərlə tikilən möhtəşəm qübbənin yerdən hündürlüyü 82 metrdir. Qübbənin üzərindəki qızıl aypara bu əzəməti daha da artırır. Türbənin ağ mərmərdən dörd minarəsi var. Abidədə olan yazıları Xəttat Səttar əfəndi yazıb. Məzarlarn olduğu salona gələn insanların səsi qübbədə yeddi dəfə əks-səda verir.

Yamuna çayının sahilində qərar tutan Tac Mahalın tikintisində ayrı-ayrı vaxtlarda 200-dən 1000-ə yaxın, bəzən daha çox fəhlə və sənətkarın işlədiyi bildirilir. Abidəyə tikinti materialları gətirmək üçün çoxlu fil və dəvə cəlb olunub. Qiymətli daşlar Çin, Əfqanıstan, Tibet, Şri- Lankadan və digər yerlərdən gətirilib.

Böyük və gözəl fəvvarəli bağ içində tikilən Tac Mahal beşgünbəzli möhtəşəm binadan və künclərindəki 4 minarədən ibarətdir. Sənət əsəri kimi ayrıca bir xəzinə olan Tac Mahalın divarlarına daş-qaşlarla üzlük çəkilib. Yüz minlərlə qiymətli daş vurulan divarlarda 42 zümrüd, 142 yaqut, 625 brilyant, 50-dən çox böyük inci var.

Tac Mahal məscidi İslam dini ənənələrinə uyğun dizayn edilib, interyeri Quran ayələri ilə bəzədilib. Mümtaz Mahalın məzarının yan tərəflərində xəttatlar Allahın doxsan doqquz adını həkk ediblər. Ey Müqəddəs, ey Bənzərsiz, ey Cəlallı, ey Əbədi, ey Ulu, ey Qüdrətli, ey Səxavətli, ey Əzəmətli, ey İzzətli və s.

Tac Mahalın divarları yarımşəffaf ağ mərmərlə örtülüb. Rəngini dəyişən mərmər ttikintidən 300 kilometr aralıda yerləşən daş karxanasından gətirilib. Mərmər gündüzlər ağ, dan yeri söküləndə, qürub çağında çəhrayı, gecələr isə gümüşü rəngə çalır. Kompleksin divarlarına Qurani-Kərimdən ayələr həkk olunub. Divarlar və tavan əlvan daşlarla – firuzə, qara, qırmızı və narıncı əqiq, malaxit, mirvari, sədəf, kəhrəba, zümrüd və yaqutla işlənib. Ümumiyyətlə, 28 növ qiymətli və yarımqiymətli daşlardan istifadə olunub.

Məscid-məqbərənin tikintisi 32 milyon rupiyə başa gəlib. Bu məbləğ hazırkı qiymətlərlə bir neçə milyard avroya bərabərdir.

Tac Mahalın tikintisi başa çatdıqdan bir müddət sonra Şahcahanın dörd oğlu arasında hakimiyyət üstündə mübarizə başlayıb. Oğlu Övrəngzib (Aləmgir) atasını taxtdan salaraq həbsxanaya atır və özünü imperator elan edir.

Rəvayətə görə, Şahcahan ömrünün ixtiyar çağını həbsdə keçirib və qalanın kiçik pəncərəsindən Tac Mahalı izləməklə təskinlik tapıb. Şahcahan ölümündən sonra Tac Mahalda, sevimli həyat yoldaşı Mümtaz Mahalın yanında dəfn olunub.

Şahcahanın arvadından başqa heç kimi Tac Mahalda dəfn etmək fikri olmayıb. Şahcahanın oğlu, imperator Övrəngzib atası üçün ayrıca məqbərə tikməkdənsə, Şahcahanı anası Mümtaz Mahalın məzarının yanında dəfn etməyi məqsədəuyğun sayıb.

### Mümtaz Mahal obrazı ədəbiyyatda

Hindistanda Mümtaz Mahalın həyatı, fəaliyyəti, daim xalqın yanında olması, onların mənafeyini müdafiə etməsi, imperatriçanın ailəsinin ayrı-ayrı məqamları ilə bağlı romanlar, povestlər, hekayələr, şeirlər yazılıb, onun haqqında sənədli və bədii filmlər, seriallar çəkilib.

• 433 Eros asteroidindəki krater Mümtaz Mahalın, digər krater isə Şahcahanın, Venera planetindəki krater Mümtaz Mahalın şərəfinə adlandırılıb.

**Ədəbiyyatda:**

• Ərcümənd Banu bəyim (Mümtaz Mahal) İndu Sundaresanın "Qızılgül bayramı" (2003) romanının və onun davamı olan "Kölgə şahzadə"nin (2010) baş qəhrəmanıdır.

• Mümtaz Mahal Sonia Çandraçudun "Tacda problem" (2011) romanının baş qəhrəmanıdır.

• Con Şorsun "Mərmər səma altında" (2013) romanında Mümtaz Mahalın qızı Şahzadə Cahanara Tac Mahalın necə yarandığına dair qeyri-adi hekayəni danışır, abidənin tamamlanması ilə müşayiət olunan taleyüklü hadisələrin şahidi kimi öz həyatını təsvir edir.

• Manahil Bandukvalanın "Abidə" (2022) adlı şeirlər toplusu Mümtaz Mahal ilə səmimi bir söhbətdir. Müəlllif bu kitabda sevgi, irs, ailə və imperiya mövzularını araşdırır.

**Bədii və sənədli filmlərdə:**

• "Mümtaz Mahal" 1926-cı ildə Homi Master tərəfindən çəkilmiş Hindistan səssiz filmidir.

• "Şiraz" (1928) filmində Mümtaz Mahal rolunu aktrisa Enakşi Rama Rau oynayıb.

• "Mümtaz Mahal" (1944) onun həyatından bəhs edən filmdir.

• Aktrisa Suraiya Nanubhai Vakilin "Tac Mahal" (1941) filmində gənc Mümtaz Mahal rolunu oynayıb.

• Əbdül Rəşid Kardarın "Şahcahan" (1946) filmində Mümtaz Mahalı aktrisa



Nəsrin canlandırıb.

• Rama Daryaninin rejissoru olduğu "Mümtaz Mahal" (1957) filmində baş rolu Vena oynayıb.

• Bina Rai M. Sadiqin "Tac Mahal" filmində (1963) Mümtaz Mahal rolunu oynyıb.

• S.T. Zaidinin "Tac Mahal" (1968) filmində Mümtaz Mahal rolunu Zeba oynayıb.

• 1977-ci ildə çəkilən "Şahzadə Mümtaz" filmində baş rollarda Asokan və Şakuntala oynayıb.

• 2003-cü ildə çəkilən "Tac Mahal: Sevgi Abidəsi" tarixi filmində baş rolu Purnima Patvardhan oynayıb.

• Əkbər xanın "Tac Mahal" (2005) filmində Mümtaz Mahal rolunu Sonia Jehan oynayıb.

• Hindistanın Zee5 televiziya kanalında efirə gedən məşhur "Tac: qanla ayrılanlar" internet serialında Ərcümənd Banu bəyim rolunu gənc aktrisa Suhani Juneja oynayıb.

• Məşhur Guerlain Shalimar (1921) ətiri Mümtaz Mahal adınadır.

*

Hər il Tac Mahalı görmək üçün Hindistana milyonlarla turist gəlir. Bu abidə 1983-cü ildə UNESCO-nun Dünya Mədəni İrs Siyahısına, 2007-ci ildə isə ümumdünya səsverməsi nəticəsində Dünyanın Yeddi yeni möcüzəsi siyahısına salınıb.

XIX əsrin sonunda Tac Mahal baxımsız vəziyyətə düşüb. Abidə Britaniya əsgərləri və məmurları tərəfindən qarət edilib. Onlar binanın divarlarından qiymətli daşları söküb aparıblar. Elə həmin vaxt lord Keyzon Tac Mahalda irimiqyaslı yenidənqurma-bərpa işlərinə başlayıb və bu, 1908-ci ildə başa çatıb. Moğalların bir vaxtlar cənnəti xatırladan bağına da əl gəzdirilib, bağı Britaniya üslubuna salıblar.

Tac Mahal abidəsinin adı ilə bağlı bir çox mülahizələr var. Məscid-məqbərənin tikintisini müşahidə edən Fransua Bernie adlı avropalı səyyah onu Tac Mahal adlandıran ilk şəxsdir.

Abidənin gözəlliyi həm də Mümtaz Mahalın gözəlliyinin rəmzi kimi qəbul olunur və bu assosiasiya bir çoxlarını Tac Mahalı qadın kimi təsvir etməyə vadar edir.

Tac Mahal təkcə gözəl bina deyil, həm də dünyanın əbədi sevgi və sədaqət simvoluna çevrilib. Bu gün böyük məhəbbət rəmzi və möhtəşəm memarlıq nümunəsi olan Tac Mahal Hindistanın görməli yerləri sırasında zirvədə durur.

Beləliklə, dünya memarlığının şah əsəri – Tac Mahalda məhəbbət əbədi olaraq Mümtaz Mahalın və sevimli əri Şahcahanın ruhu dolaşır, əbədi məhəbbət məbədinə gələnləri salamlayır, gedənləri xoş arzularla yola salır.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**

14 İyun Ümumdünya Qan Donoru Günüdür

# Qan – maye can, möcüzəli həyat iksiri

**İnsan orqanizmi üçün ən mühüm komponentlərdən biri olan qan birləşdirici toxumalara aid olan və bədəndə dövr edərək müxtəlif funksiyaları yerinə yetirən mayedir. Qan limfa və hüceyrəarası maye ilə birlikdə orqanizmin daxili mühitini əmələ gətirir. Bakı Dövlət Universitetinin müəllimi, biologiya elmləri namizədi Sevda Tahirli "Qanımızın səsi" kitabının müəllifidir. Sevda xanım bizimlə söhbətdə əvvəlcə bunları dedi:**



**– Qanın insan həyatında çox mühüm rol oynadığı lap qədim dövrlərdən məlumdur. Təsadüfi deyil ki, antik təbabətin atası Hippokrat ruhi xəstələrin şəfa tapması üçün onlara sağlam qan içirilməsini məsləhət görürdü.**

Məşhur yunan yazıçısı Homerin "Odisseya" əsərində ölmüş Tiressiyanı həyata qaytarmaq üçün ona heyvan qanı içirirlər. Oxşar misallara antik dövrün təbibləri Pliniy və Selsinin əsərlərində də rast gəlmək mümkündür. Onların yazdıqlarına görə, qocalar və epilepsiyadan əziyyət çəkənlər can verən qladiatorların qanını içmək üçün hər şeyə hazır imişlər.

**– Sevda xanım, qan qruplarının elmi cəhətdən öyrənilməsinə nə vaxtdan başlanılıb?**

– 1628-ci ildə ingilis alimi U.Harvey qan dövranı qanunu kəşf edərək canlı orqanizmdə qanın hərəkət prinsipini müəyyən edib. Onun kəşfi qanköçürmə sahəsində geniş imkanlar açılmasına təkan verib. 1666-cı ildə ingilis anatomu P.Loner ilk dəfə bir itdən digərinə qan köçürüb. Rəsmi şəkildə öz təsdiqini tapan qanköçürmə isə əsası XVII əsrin 60-cı illərində qoyulan London Kral Akademiyası tərəfindən həyata keçirilib.

**– Doğrudanmı qanın tərkibi bu qədər əhəmiyyətli rol oynayır?**

– Bircə fakt göstərəcəyəm. 1924-cü ildə Leninin ölümü sovetlər ölkəsinin rəhbərliyini həmin problem üzərində ciddi düşünməyə məcbur edib. O dövrdə yayılmış bəzi fikirlərə görə, proletariatın rəhbəri vaxtsız qocalmadan əziyyət çəkirmiş. Partiyada rəhbər vəzifə sahiblərinin fizioloji cavanlaşdırılması probleminin həlli Aleksandr Boqdanova həvalə edilib. Sovetlər ittifaqında açılan dünyada ilk qanköçürmə institutuna direktor təyin edilən Boqdanov gənclərin qanını yaşlılara köçürməklə ömrün uzadılması məsələsini ciddi şəkildə öyrənməyə başlayıb. Həkimin sevimli oğlu üzərində eksperimentlər aparması da onun bu işin uğuruna olan inamından soraq verir. O, zəif, sısqa görkəmli 25 yaşlı oğlunun qanını 40 yaşlı atletin qanı ilə əvəz edib və xəstəhal gənc tezliklə güclü əzələli idmançı bədənə sahib olub. Boqdanov instituta rəhbərlik etdiyi dövrdə cavanlaşmaq üçün özünə də dörd dəfə qan köçürüb. Lakin o, elə öz eksperimentlərinin də qurbanı olub – 1928-ci il aprelin 7-də gənc tələbədən özünə növbəti dəfə qan köçürəndən sonra vəfat edib. Onda hələ Landştaynerin qanın rezus faktorunun mövcudluğuna dair kəşfinə 12 il qalırdı. Güman edilir ki, Boqdanovun həyatını itirməsinə səbəb rezus faktoru nəzərə almaması olub...




**– Sevda xanım, qan qrupu ilə insanın xasiyyəti və xəstəlikləri arasında hansısa əlaqə varmı?**

– Birmənalı fikir söyləmək olmaz. Qan qrupu ilə daha çox yapon alimləri məşğul olurlar. Hətta yaponlar adi söhbət zamanı bir-birindən hansı qan qrupuna məxsus olduqlarını soruşurlar. "Gündoğar ölkə"də ərzaq məhsulları qan qrupuna görə çeşidlənir. Peşəkar idman komandası təşkil ediləndə oyunçuların qan qrupu mütləq nəzərə alınır.

Araşdırılmalar göstərir ki, qan qrupları ilə xarakter və xəstəliklər arasında da bəzi əlaqələr olduğunu tapmaq mümkündür. Məsələn, həm immun sisteminə, həm də stressə davamlığına görə I qan qrupu hegemonluq edir, lakin onlarda xora xəstəliyinə meyillilik var.

Yaponiyada işə qəbul zamanı daha çox II qan qrupu olanlara üstünlük verirlər. Onların fikrincə, həmin qrupa məxsus olanlar daha dəqiq və məsuliyyətli olurlar. III qan qrupuna məxsus olanlar yaradıcılıq keyfiyyətləri ilə seçilir, depressiyalara və mədə-bağırsaq xəstəliklərinə daha çox meyilli olur. IV qan qrupuna malik olanlar romantikaya meyilli və sirli, nevrozlara daha çox meyilli olur, lakin qohumcanlı, istiqanlı və ailəyə bağlıdırlar.

**– Qanın hansı qrupa məxsus olmağının öyrənilməsi nə verir?**

– Qan qruplarının öyrənilməsi ciddi tədqiqata ehtiyacı olan və bir sıra vacib məqamları ortaya çıxara biləcək bir sahədir. Həyat tərzi, xarakter, valideyn olmaq hüququ və sağlamlıq ondan nə dərəcədə asılıdır? Fikrimcə, biz bir musiqi parçası kimiyik. Musiqi notlara görə dəyişdiyi kimi, ortaq xüsusiyyətlərdə bənzərlik olsa da, özünəməxsusluğa görə bir-birimizdən fərqlənirik. Ona görə də həyatda seçim edərkən bir sıra hallara diqqət yetirildiyi kimi, hansı qan qrupuna məxsus olmaq da nəzərə alınmalıdır...

***Söhbəti yazdı:***
***Süleyman QARADAĞLI***

# ABŞ-ın azalan dəstəyi Ukraynada savaşa necə təsir edəcək?

**ABŞ-ın Ukraynaya hərbi yardımının azaldılması yalnız regional təhlükəsizliyə deyil, həm də qlobal sabitliyə ciddi təhdid yarada bilər. Analitiklərin fikrincə, bu cür addım Rusiyanın cəbhə xəttində mövqelərini gücləndirməsinə şərait yarada, eləcə də münaqişənin diplomatik yollarla həll perspektivlərini zəiflədə bilər. Bu barədə ABŞ-da yerləşən nüfuzlu tədqiqat qurumu – Müharibənin Öyrənilməsi İnstitutu (ISW) tərəfindən yayımlanan son hesabatda geniş təhlil təqdim olunub.**



İnstitutun ekspertləri bildirirlər ki, ABŞ və Qərbin hərbi-siyasi dəstəyi Ukraynanın müdafiə qabiliyyəti və döyüş meydanında təşəbbüsü əlində saxlaması baxımından həlledici əhəmiyyət daşıyır. Onların qənaətincə, dəstəyin azalması Rusiyanı strategiyasını dəyişməyə vadar etməyəcək. Əksinə, Moskva hələ də Ukraynanın öz mövqelərini qoruyub saxlamaq qabiliyyətinə şübhə ilə yanaşır və Qərbin uzunmüddətli dəstəyini zəif hesab edir. Bu isə Rusiyanı hücumları davam etdirməyə təşviq edə bilər.

ISW-nin hesabatında vurğulanır ki, ABŞ tərəfindən göstərilən genişmiqyaslı yardım Ukraynanın müdafiə imkanlarını artırmaqla yanaşı, Kremlin hərbi hesablamalarını dəyişməkdə və Rusiya tərəfini daha konstruktiv danışıqlara cəlb etməkdə mühüm rol oynaya bilər. Əks halda, ABŞ-ın dəstəyinin azalması mümkün sülhün əldə olunmasını çətinləşdirəcək. "Belə bir inkişaf ABŞ prezidenti Donald Trampın Ukraynada uzunmüddətli və davamlı sülhə nail olmaqla bağlı verdiyi vədlərlə ziddiyyət təşkil edir", – deyə ISW-nin hesabatında qeyd olunur.

Xatırladaq ki, prezident Donald Tramp çıxışlarında münaqişənin diplomatik yollarla dayandırılmasının vacibliyini bəyan edib. Lakin İstanbulda keçirilmiş danışıqlara baxmayaraq, sülh prosesində ciddi irəliləyişə nail olunmayıb.

ABŞ-ın müdafiə naziri Pit Heqset Konqresdəki dinləmələrdə 2026-cı il üçün nəzərdə tutulan büdcə çərçivəsində Ukraynaya silah tədarükü üçün proqnozlaşdırılan xərclərin azaldılması planlarının mövcud olduğunu açıqlayıb. Nazir, eyni zamanda, Tramp administrasiyasının bu münaqişəyə "fərqli baxışa" malik olduğunu və diplomatik həll yollarının üstün tutulduğunu vurğulayıb.

Digər tərəfdən, ABŞ Dövlət Departamenti Konqresə təqdim etdiyi hesabatda Ukraynaya silah ixracı üçün 30 milyard ABŞ dolları dəyərində lisenziyanın verilməsi ilə bağlı prosedurların davam etdirildiyini bildirib ki, bu da administrasiyanın daxili siyasətində müəyyən ziddiyyətli baxışların mövcudluğuna işarədir.

Ekspertlər hesab edirlər ki, ABŞ-ın yardımını məhdudlaşdırması yalnız Ukraynanın deyil, bütövlükdə, Avropa təhlükəsizlik arxitekturasının zəifləməsinə səbəb ola bilər. Belə bir vəziyyətdə Rusiya təhdidinin artması, NATO-nun şərq cinahında hərbi balansın pozulması və digər münaqişələrin alovlanması riski də istisna edilmir.

Bundan başqa, ABŞ-ın Ukraynaya hərbi yardımının azalması təkcə cəbhə xəttindəki vəziyyəti deyil, həm də sülh danışıqlarının perspektivlərini, beynəlxalq alyansların etibarlılığını və qlobal təhlükəsizlik mühitini dərindən dəyişmək potensialına malikdir. Bu vəziyyət, dünya miqyasında təhlükəsizliyin azalmasına və yeni münaqişələrin yaranması riskinə yol aça bilər. Beynəlxalq ictimaiyyət, bu potensial nəticələri nəzərə alaraq Ukraynaya davamlı dəstəyin vacibliyini vurğulayır.

***S.ELAY***
***XQ***

# Balakəndə "Açıq qapı" günü

**Dünən Balakən Dövlət Peşə Təhsili Mərkəzində "Açıq qapı" günü keçirilib. Toplantıda dövlət qurumlarının nümayəndələri, valideynlər, ictimaiyyət nümayəndələri , rayonda fəaliyyət göstərən müəssisələrin təmsilçiləri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə ayrı-ayrı peşələr üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət sərgilərlə tanış olublar.**



Mərkəzin direktoru Azad Dibirov təhsil ocağının fəaliyyət istiqamətləri və əldə olunan uğurlar barədə məlumat verib. Qeyd olunub ki, Balakən Dövlət Peşə Təhsili Mərkəzi yeni yaradılmış təhsil müəssisəsidir. Mərkəzin fəaliyyəti Balakən şəhərində yerləşən 1 və 2 nömrəli peşə məktəblərinin bazasında təşkil olunmuşdur. Diqqətə çatdırılıb ki, mərkəzin əsas məqsədi rayonda əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması prosesinə töhfə verməkdir. Təhsil müəssisəsində əsasən turizm, kənd təsərrüfatı, sənaye və digər sahələr üzrə peşə ixtisaslarının tədrisi həyata keçirilir.

Məlumat verilib ki, Mərkəzdə kompüter sistem inzibatçısı, turizm sahəsində iaşə üzrə mütəxəssis, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, aşpaz, dərzi, dayə, aqroservis mütəxəssisi və digər ixtisaslar üzrə kadrlar hazırlanır. Ümumilikdə, 6 istiqamət üzrə 21 qrupda 350 tələbə təhsil alır, onlardan 264 nəfəri bu il məzun olacaq. Gələcəkdə mərkəzdə 3 illik təhsil müddətinə malik qrupların yaradılması və yüksək texniki peşə təhsili pilləsi üzrə mütəxəssis hazırlığının həyata keçirilməsi nəzərdə tutulur.

Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nəzakət Rüstəmova çıxışında ölkəmizdə təhsil sahəsinə göstərilən yüksək dövlət qayğısından, peşə təhsilinin zəruriliyi, düzgün peşə seçiminin əhəmiyyəti və peşə təhsilinin perspektivlərindən söz açıb, kollektivə uğurlar arzulayıb. Tədbir bədii proqramla davam edib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# 273 min suriyalı Vətənə dönüb

**Ötən il dekabrın 8-dən bu günə qədər Türkiyədən Suriyaya könüllü geri dönənlərin sayı 273 mini keçib. Bu barədə Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz mediaya açıqlamasında bildirib.**

O deyib ki, Türkiyədə müvəqqəti qoruma statusu ilə yaşayan suriyalıların yeni formalaşan Suriyaya təhlükəsiz, ləyaqətli və könüllü şəkildə geri qayıtması ölkəsi üçün çox önəmlidir.



Bu istiqamətdə Türkiyənin dövlət və özəl sektoru, eləcə də vətəndaş cəmiyyətinin əməkdaşlığını yüksək qiymətləndirən Yılmaz bunun, eyni zamanda, beynəlxalq əməkdaşlıq modeli olduğunu vurğulayıb: "Təəssüf ki, bu gün dünyada ən böyük problemlərdən biri miqrasiyadır və bu mövzuda Türkiyə dünyaya nümunə göstərilə biləcək bir modeldir. İndi fərqli bir mərhələyə daxil olmuşuq və bunun nəticələrini görürük".

Suriyalıların vətənlərinə qayıdış prosesinin Türkiyənin başlatdığı "Sülh çeşməsi", "Zeytun budağı" kimi antiterror əməliyyatları ilə formalaşdırdığını qeyd edən vitse-prezident o tarixdən bu günə qədər 1 milyondan çox suriyalının ölkəsinə geri qayıtdığını bildirib.

***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərdə gövdə və mexanizmlərin sığorta xidmətlərinin satın alınması məqsədilə

**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il iyunun 20-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1132.
**Ünvan:** Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 121 (30815) 14 iyun 2025-ci il, cümə

İdrakın kodları

# İdrak necə yaranıb?

## II yazı

**İnsan varlığının ən sirli suallarından biri budur: idrak necə yaranıb? Daş, su, hava və odun arasında ilk dəfə düşünən, hiss edən, qorxan, sevinən bir varlıq nə zaman meydana çıxıb?**

Bu sual əsrlərlə həm fəlsəfənin, həm təbiət elmlərinin, həm də ilahiyyatın mərkəzində dayanıb.

### Materiyadan şüura keçid

Maddənin təkamülü milyard illərlə davam edib: atomlar formalaşıb, hüceyrələr meydana gəlib, orqanizmlər inkişaf edib. Amma hansısa bir nöqtədə fiziki tərkib dəyişmədən fərqli bir keyfiyyət doğulub: “Mən varam!” hissi.

Bu, şüurun, özünü dərketmənin başlanğıcı idi. Elm bu mərhələyə “emergent şüur” deyir: Sadə maddi elementlər birləşdikcə keyfiyyətcə yeni bir varlıq – idrak meydana gəlir.

### Beyindəki şüur ocağı




İnsan beynində 86 milyard neyron var. Onların arasında trilyonlarla sinaps əlaqəsi qurulur. Neyron, sadəcə, bioloji hüceyrədir, sinaps elektrik-şəfəq axınıdır, molekullar kimyəvi maddələrdir.

Bəs necə olur ki, şəxsiyyət, vicdan, duyğu, xatirə, sevgi, qorxu, seçim meydana çıxır? Elm hələ bu suallara tam cavab verə bilmir.

### İlk “mən” necə formalaşıb?

İnsanla digər canlılar arasında kəskin fərq yaradan keyfiyyətlər mövcuddur. İnsan özünü müşahidə edə bilir, keçmişi xatırlayır, gələcəyi planlaşdırır, mühakimə yürüdür, ölümü dərk edir.

İnsan ilk dəfə nə zaman öz varlığının fərqinə varıb? Bu, hələ də yaradılışın gizli qalan sirlərindəndir.

### Təsəvvüf baxışı: Ruh nəfəsi

İslam, yəhudi və xristian ənənələrində şüurun başlanğıcı belə izah olunur: “Ona ruhumdan üfürdüm...” (Quran, Hicr surəsi, 29). Burada artıq şüur maddi mexanizmdən kənara çıxır – ilahi mənşəli bir nur kimi təqdim olunur.

İnsanın idrakı – Tanrının ruhundan ona bəxş olunan xüsusi bir nemətdir.

### Metafizik ehtimal: İdrak kodlaşdırılmış proqramdırmı?

Müasir neyroelm və informasiya nəzəriyyəsi bilmək istəyir: Bəlkə şüur maddənin içində gizli olan informasiyanın təkamül zirvəsidir, beyin isə kodlaşdırılmış şəbəkədir. Bəlkə də kainatın özü şüurun yaranmasına “proqramlaşdırılıb”?

Bu ehtimallar yaradılış kodunun sirrini daha maraqlı edir.

### İdrak – canlını insan edən kod

Şüur doğulduğu andan etibarən insan artıq təkcə bioloji varlıq deyil.

O, əxlaq formalaşdırır, mərhəmət hiss edir, vicdan azabı çəkir, gözəlliyi sezir, sənət və ədəbiyyat yaradır. Nəhayət, yaradılışın sirrini düşünməyə başlayır. İdrak insana “öz kodunu oxumaq” bacarığı verir.

### Son

İdrakın necə doğulduğunu bəlkə də insan haçansa tam anlayacaq. Bəlkə də bu mümkün olmayacaq. Amma biz bildiyimiz bir həqiqətlə yaşamağa davam edirik: “Mən varam” demək yaradılışın ən sirli kodlarından biridir.

*Oğuz ARİF*

Gözəllik adası

# Gerçəyə çevrilən Qızılgül nağılı



– Ay nənə, bir nağıl da de...

– Yaxşı bala, gəl otur dizimin üstündə, bu dəfə sənə Qızılgülün nağılını söyləyəcəyəm.

Biri var idi, biri yox idi... Tanrının bol nemət bəxş etdiyi bir diyar – Zaqatala var idi. Dağların qoynunda qərar tutmuş bu gözəl məkanda torpağın bərəkəti birə-beş artıq idi. Burada hər qarış torpaq dəyərli idi, hər damla su həyat bəxş edirdi. İnsanlar illərlə bu torpağı sevgi ilə becərir, zəhmətlərinin bəhrəsi ilə yaşayırdılar.

Bu diyarın ən gözəl nemətlərindən biri də Qızılgül idi. Zaqatalanın torpağı və iqlimi qızılgül üçün ideal mühit yaratmışdı. Xüsusilə 1960–1980-ci illərdə Qızılgül plantasiyaları bütün bölgəyə şöhrət qazandırmışdı. Hər yazın gül mövsümündə səhərin ilk işartısında qız-gəlinlər plantasiyalara axışar, barmaqlarının ucu ilə ləçəkləri ehtiyatla dərərdilər. Bu səhnələr sanki nağılvari bir gözəllik kimi cilvələnirdi.

Nənə nağılın davamında söylədi ki, 1990-cı illərin əvvəllərində ölkədə baş verən iqtisadi böhran bu sahəyə də təsirsiz ötüşmədi. İstehsal dayandı, plantasiyalar baxımsız qaldı. Qızılgül sənayesi uzun illər susqunluğa qərq oldu. Nə yaxşı ki, işbilən insanlar bu gözəl ənənənin tam unudulmasına yol vermədilər.

İllər sonra dövlətin diqqəti və dəstəyi ilə Zaqatalanın qədim məşğulluğu yenidən dirçəldildi. Bu dəfə ünvan dəyişdi – rayonun Şərq qapısında yeni plantasiyalar salındı. Layihənin həyata keçirilməsində mərhum Şamil Məmmədovun əməyi xüsusilə qeyd olunur. O, bu sahənin inkişafına böyük zəhmət sərf etdi.




2017-ci ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə müasir gül emalı müəssisəsinin açılışı keçirildi. Prezident burada yaradılan şəraitlə yerində tanış oldu və müəssisənin gələcəyinə yüksək qiymət verdi. Gülçülük təsərrüfatına geniş investisiya yatırıldı: 82 hektarda “Dəməşq qızılgülü”, 25 hektarda “Lavanda” plantasiyaları salındı, artezian quyuları qazıldı, damcı suvarma sistemləri quraşdırıldı, infrastruktur yeniləndi. Türkiyədən təcrübəli aqronomlar dəvət olundu, Bolqarıstandan yüksək keyfiyyətli tinglər gətirildi.

Bu gün müəssisə “Lecheq Farm and Distillery” MMC adı ilə fəaliyyətini davam etdirir. Burada illik 1250 ton yaş gül ləçəyi emal olunur, 250 litr qızılgül, 6 min litr lavanda yağı istehsal edilir. İstehsal olunan məhsullar əsasən Yaponiya, ABŞ, Fransa, Almaniya, Türkiyə və digər ölkələrə ixrac olunur. Müəssisənin məhsulları dünyanın nüfuzlu sərgilərində təqdim edilir, bəzi məhsullar isə artıq beynəlxalq dərsliklərə daxil edilib.



Bu il mövsüm 528 ton məhsul yığımı ilə yekunlaşıb. Təsərrüfatın baş aqronomu Abdulla Qurbanovun sözlərinə görə, yığım prosesində 1500 nəfər çalışıb. İndi isə yığım mövsümündən sonra daimi briqadalar tərəfindən işlər davam etdirilir, qalan məhsullar əlavə məhsulların hazırlanması üçün toplanır.

Müəssisə təkcə efir yağı istehsalı ilə kifayətlənmir. Gülqənd, gülçay, qurudulmuş ləçəklər, lavanda yağı və digər məhsullar da hazırlanır. Bununla yanaşı, lavanda, nanə, yasəmən, şalfey və yovşan kimi dərman və aromatik bitkilərin də becərilməsi və emalı həyata keçirilir. Gələcək planlara şalfey yağının istehsalı da daxildir.

Bu gün Zaqatalada təkcə iqtisadi fəaliyyət deyil, nənəmin söylədiyi bir nağıl gerçəkləşir. Qızılgül əfsanəsi yenidən dirçəlir, torpağın ətri dünyaya yayılır, insanların zəhməti ilə zənginləşir. Bu, təkcə kənd təsərrüfatı deyil – bu, milli sərvətimizin, zəhmətsevər insanlarımızın, torpağa bağlılığımızın və mədəni irsimizin davam edən nağılıdır.

Və bu nağıl bitmir. Əksinə, hər mövsüm yenidən başlanır...

*Elmira MEHDİQIZI,*
*jurnalist*

**Zaqatala**

# Məktəblərə “Son zəng” təlimatı

**“Son zəng” tədbirinin keçirilməsi qaydalarını tənzimləyən təlimatlar aprel ayından məktəblərə göndərilib, təlimatdan irəli gələn məsələlərlə bağlı şagird, müəllim və valideynlərlə müvafiq söhbət aparılıb. Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi məlumat yayıb.**



“Tədbiri öz mahiyyətinə və təlimatın tələblərinə uyğun şəkildə təşkil etməyin vacibliyini məktəb rəhbərlərinə bir daha xatırladırıq. Valideynlərdən bu əlamətdar gündə övladlarının təhlükəsizliyinə və sağlamlığına xüsusi diqqətlə yanaşmağı xahiş edirik. Bu günü xoş ovqatla, yaddaqalan və təhlükəsiz tamamlamaq bütün iştirakçı tərəflər üçün vacib məqamdır”, - deyə məlumatda qeyd olunub.

*XQ*

# Bölgələrdə arabir yağış yağacaq...

**Bu gün günorta saatlarından başlayaraq Azərbaycanın şimal və qərb rayonlarında iyunun 17-si gündüzədək bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**



Bildirilib ki, ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var.

Gözlənilən yağıntılı hava şəraiti ilə əlaqədar çaylarda suluğun artacağı, Böyük və Kiçik Qafqaz ərazisindən axan bəzi çaylarda qısamüddətli sel və daşqın olacağı ehtimal edilir.

*Q.QASIMOV*
*XQ*

İdman

# Bakıda Dünya akrobatika kuboku



**Dünən Bakıda akrobatika gimnastikası üzrə Dünya Kubokuna start verilib. Turnirdə 7 ölkədən 63 idmançı medallar uğrunda mübarizə aparır.**

İlk yarış günündə qadın cütlükləri, kişi və qadın qrupları balans, kişi və qarışıq cütlüklər isə temp hərəkətlərində qüvvələrini sınayıblar.

Qeyd edək ki, Dünya Kubokuna iyunun 15-də yekun vurulacaq.

# Paytaxtın avarçəkmə yarışı




**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası (AKAF) ilə Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə iyunun 18-də avarçəkmə üzrə açıq Bakı birinciliyi keçiriləcək.**

Yeniyetmə və gənc idmançıların iştirakı ilə təşkil olunacaq yarışda Bakı və Mingəçevirdən ümumilikdə 100-ə yaxın avarçəkən iştirak edəcək.

Reqlamentə əsasən, idmançılar akademik avarçəkmə və kanoedə birnəfərlik qayıqda 500 metr məsafə üzrə mübarizə aparacaqlar. Kayak qayığında isə 500 metr məsafədə həm tək, həm də iki nəfərlik qayıqda çempionluq uğrunda mübarizə gedəcək.

# Neymar “Fənərbağça”ya gedəcəkmi?



**Braziliya millisinin və “Santos” klubunun futbolçusu Neymar karyerasını Türkiyədə davam etdirə bilər.**

Bildirilib ki, “İstanbul nəhəngi” 33 yaşlı Neymara 1+1 illik müqavilə təklif edib. Oyunçunun hazırkı komandası ilə sözləşməsində istənilən Avropa klubuna pulsuz keçmək imkanı verən xüsusi bənd var.

Qeyd edək ki, Neymar bu mövsüm “Santos”un heyətində 14 oyunda 3 qol və eyni sayda məhsuldar ötürmə ilə yadda qalıb.

*M.HACIXANLI*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3687
SİFARİŞ 1202
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00